RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 84 (8677) CÜMƏ, 23 aprel 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Qalib Sərkərdənin Zəngəzur diktəsi: Qayıdacağıq!



## İlham Əliyevin növbəti dəfə göstərdiyi qətiyyət və cəsarət Ermənistanda şok effekti yaradıb

“Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq”.

İkinci Qarabağ müharibəsinin qalib Sərkərdəsinin bu fikirləri siyasi və sosial-iqtisadi xaosa bürünmüş məğlub Ermənistanı çox bərk silkələyib. Əgər belə olmasaydı, İlham Əliyevin aprelin 20-də Hacıqabulda səsləndirdiyi fikirləri bu ölkənin XİN-i dərhal kontekstdən çıxararaq “Ermənistanın ərazi bütövlüyünə təhdid” olduğunu iddia edib dünyaya car çəkməzdi. Amma belə iftiralar, oyunlar Azərbaycanı zərrə qədər qorxutmur. Çünki bu gün qalib Lider kimi diktəni İlham Əliyev edir, Azərbaycanın Baş Sərkərdəsinin sözü keçir.

### Artıq Azərbaycanla oyun oynamağın faydası yoxdur

Fakt budur ki, müharibədən öncə Azərbaycan Prezidentinin dəfələrlə Ermənistana etdiyi xəbərdarlıqlara əhəmiyyət verməyən işğalçı ölkə, indi İlham Əliyevin hər bir mesajından sonra əl-ayağa düşür. Çünki erməni xalqı artıq reallığı görür və bununla barışır. Bilirlər ki, İlham Əliyev dediyi sözün arxasında durur, verdiyi vədi mütləq gerçəkləşdirir. Erməni xalqı dəmir yumruğun zərbəsinin çox acı nəticələr verdiyini də unutmur və anlayır ki, artıq Azərbaycanla oyun oynamağın faydası yoxdur. Həqiqətən də bu ölkənin vətəndaşları bu gün reallığın, gerçəkliyin fərqinə varmaqdadırlar, buna məcbur və həm də məhkumdurlar.

Ardı 5-ci səh.

## Dövlət proqramı çərçivəsində növbəti turizm infrastrukturunun yaradılması layihəsi icra olunur

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Abşeron rayonunda Palçıq Vulkanları Turizm Kompleksinin təməlini qoyublar



Aprelin 22-də Abşeron rayonunun Qobustan kəndinin ərazisində Palçıq Vulkanları Turizm Kompleksinin təməli qoyulub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Palçıq Vulkanları Turizm Kompleksi Bakıdan 59 kilometr cənub-qərbdə, Qobustan qəsəbəsindən təxminən 17 kilometr şimal-qərbdə, Şamaxı istiqamətinə gedən əsas yolun üstündə dəniz səviyyəsindən 235 metr hündürlükdə yerləşən ərazidə yaradılacaq. Bura “Qılınc” palçıq vulkanlarının ərazisi kimi tanınır. Bu yerin turizm imkanları qiymətləndirildikdən sonra burada turizm kompleksinin yaradılması qərara alınıb. Beləliklə, “Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” çərçivəsində növbəti turizm infrastrukturunun yaradılması layihəsi icra olunur.

Qeyd edək ki, Azərbaycan dünyada palçıq vulkanlarının nadir və klassik inkişaf regionu kimi tanınır. Yer kürəsindəki məlum 1700-dək palçıq vulkanından 700-ü ölkəmizdə - əsasən Abşeron yarımadası, Şamaxı-Qobustan, Cənub-Şərqi Şirvan və Bakı arxipelaqındadır. Onlardan 350-si aktiv vulkandır.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev dövlət başçısına və birinci xanıma kompleks barədə məlumat verdi.

Ardı 2-ci səh.



### Azərbaycan Prezidentinin bəyanatından sonra ermənilər ciddi qorxu içərisindədirlər:

## “İlham Əliyev Mehridə bayrağını ucaltmağa hazırlaşır”

### Soros Fondu Ermənistanda itirilən mövqelərini bərpa etmək üçün ölkəmizə qarşı kampaniyasına başlayıb

İkinci Qarabağ müharibəsindən sonra regionda davamlı sülh və əməkdaşlıq əlaqələrinin formalaşması Azərbaycan üçün prioritet istiqamətlərdən biridir. Bunun əsas şərtlərindən biri isə Zəngəzur dəhlizinin yaranmasıdır. Bu fonda Prezident İlham Əliyevin səsləndirdiyi *“Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik... Azərbaycan xalqı 101 il bundan əvvəl bizim əlimizdən alınmış Zəngəzura qayıdacaqdır”* fikirləri Ermənistanda xüsusi diqqət mərkəzindədir.

### “Azərbaycan dəhlizin işə salınmasını təmin edəcək”

Erməni şərqşünas ekspert Varujan Qeqamyan Azərbaycanın mütləq Zəngəzura qayıdacağını bildirir: “Bir neçə gündür Zəngəzurdayıq. İnsanlarla söhbətləri, yeni sərhəd zonasına səfəri, eləcə də Zəngəzur ətrafındakı mövcud xəbərləri nəzərə alaraq deyə bilərik ki, Zəngəzur regionun geosiyasi mərkəzidir. Burada güclü dövlətlərin maraqları kəsişir. Bu maraqlar arasında hələlik balans qurulmayıb. İki əsas tərəf bu anda Zəngəzur üçün mübarizə aparır. Birincisi (Türkiyə, Azərbaycan və onların müttəfiqləri) dəhlizlərin Zəngəzurdan keçməsini tələb edir, ikinci tərəf isə (bəzi Avropa dövlətləri) dəhlizə qarşıdır. Amma dəhlizə qarşı olanların mövqeyi əhəmiyyət kəsb etmir. Azərbaycan dəhlizin işə salınmasını təmin edəcək”.

Ardı 9-cu səh.

## Peyvəndləmə: dinamika müsbətə doğrudur

### Dünyanın bütün həkimləri koronavirusa qarşı ən effektiv üsul kimi vaksinasiyanı seçiblər

Hər hansı xəstəliyin müalicəsi, əlbəttə, ilk növbədə həkimin müayinə və diaqnozundan çox asılıdır. Hələ də dünyanı vahimə içərisində saxlayan koronavirusun da müalicəsi, təbii ki, onun profilaktikasından başlayır. Dünya səhiyyəsinin son nailiyyətlərini nəzərə alsaq, bu virusa yoluxmanın qarşısının alınması ilə bağlı həyata keçirilən tədbirlərin mühüm əhəmiyyətini diqqətdən qaçırmamalıyıq.

Koronavirusa yoluxaraq dünyasını dəyişənlərin müxtəlif yaş qruplarına aid olması ilə bağlı Çinin Xəstəliklərə Nəzarət və Müdafiə Mərkəzinin yaydığı statistikaya nəzər salsaq görərik ki, ilk yoluxmalar dövründə bu bəladan həyatını itirənlərin 2,8 faizi kişilər, 1,7 faizi isə qadınlar olub. Virusa yoluxanların 80 yaşdan yuxarı risk qrupuna daxil olanları da az deyildi.

Lakin bu rəqəmlər COVID-19 virusunun yayılmasının ilkin mərhələsində əldə edilən göstəricilər idi. Bu gün isə virus, hətta məktəbyaşlıları da eyni dərəcədə yaxalayır və ağırlaşdıra bilir. Buna görə vacib hesab edilən istər profilaktik, istərsə də digər mühüm tədbirlər diqqət mərkəzində saxlanılır.

Ardı 9-cu səh.

◆ Jurnalist araşdırması

## Əyrini deyil, əyri göstərən ayna

### Televiziya “silahımız” özümüzə, gələcəyimizə tuşlanıb



Niyə efirlərimizdə daha çox sənətkarlar, ziyalılar, elm adamları deyil, müğənnilər, meyxanaçılar, ya da eyni fikirləri əzbərləyib deyən “politoloqlar”dır?..

Bir bəlamız da budur. Istənilən mövzuda eyni - “seçilmiş” adamlar fikir söyləyir. Bir adam neçə hərşeyşünas olar...

Niyə Qarabağı azad edən qazilərdən, onların qəhrəmanlıqlarından deyil, kriminal avtoritetlərdən verilişlər hazırlanıb yayımlanır?

Bütün bunlar yalnız baş qatmağa xidmət edir. Bu, dünənin reallığı ola bilərdi. Dünən medianı kurasiya edənlər belə istəmişdi (tamaşaçı yox). Bu günün reallığı isə başqadır. Bu günün qəhrəmanları fərqlidir. Bu günün tamaşaçısı da dünənki deyil...

Peşəkarlar sıradan çıxarıldı, media qurumlarının rəhbərliyinə idarə etməyi bacaranlar deyil, idarəolunananlar gətirildi!

Onlar da özləri kimi idarəolunanları götürdülər işə, “otur desəm otursun, dur desəm dursun” prinsipi ilə...

Bu gün öz silahımızla özümüzü vururuq...

Öyrədici, maarifləndirici heç bir layihə yoxdur! Kimsə deyə bilər ki, “televiziyanın missiyası maarifləndirmək, öyrətmək deyil”, - tam yanılır!

Televiziya kütləvi informasiya vasitəsidir və birbaşa missiyası yönləndirməkdir, maarifləndirməkdir!

Televiziya bir kəlməsi ilə kütləni arxasınca apara bilən qüvvədir!

Televiziya sosial çarxlarla insanların şüuruna əsaslı şəkildə təsir göstərə bilər. Televiziya sənədli televiziya filmləri ilə tamaşaçanı maarifləndirə, oxuyub öyrənə bilmədiklərini aşılaya bilər.

Televiziya bir millətə özünü - tarixini, ədəbiyyatını, keçmişini öyrədib gələcəyinə işıqlı yol aça bilər. Əgər istəyərsə, təpəri çatarsa...

Bunun üçün ona rəhbərlik edən kəslərin pulu sevdiklərinin yarısı qədər Azərbaycanı sevmələri yetər...

Bax: səh. 8

# Dövlət proqramı çərçivəsində növbəti turizm infrastrukturunun yaradılması layihəsi icra olunur

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Abşeron rayonunda Palçıq Vulkanları Turizm Kompleksinin təməlini qoyublar













*Əvvəli 1-ci səh.*

**Prezident İlham ƏLİYEV:** Buraya gələn qonaq, turist nə görəcək?

**Fuad NAĞIYEV:** Konsepsiya ondan ibarətdir ki, kompleksin binası yuxarıdan krater kimi görünəcək. Eyni zamanda, burada emalatxana da fəaliyyət göstərəcək. Uşaqlar üçün dərslər keçəcəyik. Sərgi zalı və kafe də olacaq.

"Qılınc" palçıq vulkanlarının yerləşdiyi ərazidə turizm kompleksinin yaradılmasının bir sıra üstünlükləri vardır. Yaxınlıqda yerləşən və dünyanın ən böyük vulkanlarından olan "Torağay"a və digər vulkanlara mənzərənin açılması, burada turistlərə gəzinti üçün əlverişli şərait yaradan 3 müxtəlif vulkan qrupunun olması, Qobustan qoruğunun yaxınlığında yerləşməsi kimi amillər buranın turistik önəmini daha da artırır.

Dövlət başçısı Palçıq Vulkanları Turizm Kompleksinin təməlini qoydu.

Sahəsi 12 hektar olan kompleksdə kvadrotsikl ərazisi, piyada yürüş yolları, zipline və baxış qülləsi, avtodayanacaq, suvenir dükanı, eləcə də müalicəvi vannalar nəzərdə tutulur.

Əraziyə gedən yol infrastrukturunun qurulması üçün Qobustan qoruğundan "Qılınc" və ətraf ərazilərdəki vulkanlara gediş-gəlişi təmin edəcək, eləcə də Bakı-Qobustan-Palçıq vulkanları turizm klasterinin yaranması ilə nəticələnəcək 20 kilometrlik yolun çəkilişi planlaşdırılır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva vulkanların yerləşdiyi ərazini gəzdilər.



# Milli Məclisin sədri Sahibə Qafarova İndoneziyanın ölkəmizdəki səfiri ilə görüşüb

Aprelin 21-də Milli Məclisin sədri Sahibə Qafarova İndoneziya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hildi Hamidlə görüşüb. Qonağı salamlayan spiker ona Azərbaycanda diplomatik fəaliyyətində uğurlar arzulayıb.



Milli Məclisin sədri ölkələrimiz arasında dostluq münasibətlərini qeyd edərək xüsusilə siyasi sahədə möhkəm əlaqələrin olduğunu, Azərbaycan və İndoneziyanın Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlarda uğurla əməkdaşlıq etdiyini bildirib. Həmçinin humanitar sahədə də səmərəli əməkdaşlıq əlaqələrinin mövcudluğu vurğulanıb.

İkitərəfli əlaqələrin inkişafında parlamentlərimizin müsbət rol oynadığını diqqətə çatdıran spiker Sahibə Qafarova bildirib ki, iki ölkənin ali qanunverici orqanları arasında həm ikitərəfli, həm də çoxtərəfli formatda uğurlu əməkdaşlıq həyata keçirilir. Bunun göstəricisi olaraq, hər iki ölkənin qanunverici orqanlarında işçi qrupları fəaliyyət göstərir. O, pandemiya başa çatandan sonra tərəflər arasında təmasların artacağına inamını ifadə edib.

Ölkəmizin ötən il 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbə haqqında qonağa məlumat verən sədr vurğulayıb ki, Azərbaycan öz torpaqlarını işğaldan azad edərək BMT-nin qətnamələrini özü icra edib. Qeyd olunub ki, Ermənistan 30 ilə yaxın bir dövrdə işğal altında saxladığı Azərbaycan torpaqlarında böyük dağıntılar, vandalizm aktları törədib, şəhərləri, evləri, kəndləri, tarixi, mədəni və dini abidələri, o cümlədən məscidləri tamamilə dağıdıb. Milli Məclisin sədri Ermənistanın bütün çağırışlara baxmayaraq, növbəti dəfə hərbi cinayət törətdiyini, beynəlxalq humanitar hüququn prinsiplərini kobud şəkildə pozaraq minalanmış ərazilərin xəritələrini Azərbaycan tərəfinə verməkdən imtina etdiyini də diqqətə çatdırıb.

Səmimi qəbula görə minnətdarlığını bildirən səfir Hildi Hamid Azərbaycanda diplomatik fəaliyyəti dövründə iki ölkə arasında münasibətlərin daha da inkişafı istiqamətində çalışacağını bildirib. O, Azərbaycanın zəngin təbii sərvətlərə malik, böyük mədəni zənginliyi olan gözəl ölkə olduğunu qeyd edib. Diplomat hazırda ölkələrimiz arasında münasibətlərin inkişafından razılığını bildirərək vurğulayıb ki, təhsil, ticarət, enerji, turizm və digər sahələrdə əlaqələrimizin daha da inkişafı üçün geniş imkanlar mövcuddur.

Azərbaycanın işğaldan azad olunan ərazilərinə səfər etdiyini söyləyən diplomat orada şahidi olduqlarını diqqətə çatdırıb. O, bildirib ki, Azərbaycan dövləti həmin ərazilərin bərpası və yenidən qurulması, bölgədə davamlı sülhün təmin olunması istiqamətində böyük işlər görür. Səfir ölkəsinin hər zaman Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə böyük hörmətlə yanaşdığını diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Erkən Uşaqlıq Dövründə İnkişaf (EUDİ) və Azərbaycanda Milli EUDİ kampaniyasının təqdimatı olub




Heydər Əliyev Fondunun dəstəyi, Regional İnkişaf İctimai Birliyi (RİİB), Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və BMT-nin Uşaq Fondunun (UNICEF) birgə təşkilatçılığı ilə aprelin 22-də Erkən Uşaqlıq Dövründə İnkişaf (EUDİ) və Azərbaycanda Milli EUDİ kampaniyasının təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin müdiri, Milli Məclisin deputatı Soltan Məmmədov tədbirin mövzusunun ölkəmizdə uğurla icra olunan icbari tibbi sığorta siyasətinin önəmli komponentlərindən birini təşkil etdiyini bildirib. Ölkəmizdə uşaq sağlamlığı, uşaqların təhsili və sosial təminatının hər zaman əsas prioritetlərdən biri olduğunu qeyd edən S.Məmmədov EUDİ layihəsinin Azərbaycanın hər zaman tətbiqində yüksək siyasi iradə nümayiş etdirdiyi 17 davamlı inkişaf məqsədlərindən 11-nin uğurlu icrasına öz töhfəsini verəcəyini diqqətə çatdırıb.

O, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun uşaqların sağlamlığı, təhsili və sosial təminatı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirdiyini vurğulayıb: 2004-cü ildən Fondun Diabetli uşaqlara ən yüksək qayğı layihəsi çərçivəsində ölkə üzrə şəkərli diabet xəstəliyi olan 18 yaşınadək şəxslər insulin preparatları və şpris qələmlərlə təmin edilirlər. Koxlear implantasiya proqramı çərçivəsində bir qrup eşitmə qüsuru olan şəxslərin əməliyyatı həyata keçirilib. 2015-ci ildən bu günədək proqram çərçivəsində ölkə üzrə 200-dən çox şəxs koxlear implantasiya əməliyyatına cəlb olunub. Talassemiya xəstəliyinin qarşısının alınması məqsədilə 2005-ci ildə Talassemiyasız həyat naminə layihəsinin icrasına başlanılıb. Layihə çərçivəsində 2009-cu ildə Bakıda müasir avadanlıqlarla təchiz olunmuş Talassemiya Mərkəzi inşa edilib. Heydər Əliyev Fondunun təşəbbüsü ilə mütəmadi olaraq ürək qüsurundan əziyyət çəkən uşaqların müayinə və əməliyyatı həyata keçirilir. Səhiyyə sahəsində aparılan islahatlara dəstək olaraq qanunvericilik bazasında tələb olunan davamlı dəyişikliklər bu gün də həyata keçirilir. Bundan başqa, müxtəlif xəstəliklərlə mübarizədə həyata keçirilən dövlət proqramları ölkəmizin sosialyönümlü siyasətinin bariz nümunəsidir. Yoluxucu xəstəliklərin immunprofilaktikası, uşaqlarda anadangəlmə ürək qüsurlarının aradan qaldırılması, talassemiya, hemofiliya xəstəlikləri, o cümlədən onkoloji xəstəliklər və diabetlə mübarizə, koxlear implantasiya əməliyyatları, ana və uşaq sağlamlığının yaxşılaşdırılması tədbirləri və digər dövlət proqramları uşaqların erkən yaş dövründə sağlam inkişafına böyük dəstəkdir. Əminəm ki, bu işlər gələcəkdə də davam edəcək və dövlət qurumları, vətəndaş cəmiyyəti, beynəlxalq təşkilatların birgə səyi və aktiv iştirakı ilə həmin layihələri tezliklə işğaldan azad olunmuş torpaqlarımızda da uğurla həyata keçirəcəyik.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, insan kapitalına ən erkən yaşlardan qoyulan yatırım inkişafın fundamental əsası hesab olunur. O, EUDİ layihəsinin vacib və yüksək nəticəyə hesablanmış bir layihə olduğunu qeyd edib: Erkən uşaqlıq dövrü inkişafı ana bətnindən başlayaraq məktəbə qəbul yaşına qədər nitq, dil, ritorika, eləcə də sosial və emosional inkişafa dair vərdiş və bacarıqların əldə olunmasından ibarət fasiləsiz bir prosesdir. Odur ki, körpə həyatının ilk 1000 günündə düzgün qidalanma, stimullaşdırma və qayğı, həmçinin keyfiyyətli səhiyyə xidməti ilə əhatə olunması çox vacibdir. Ölkəmizdə gənclərin səlahiyyətləndirilməsi, sosial müdafiə və erkən uşaqlıq dövrünün inkişafı məsələləri hökumətin dayanıqlı iqtisadi artımı təmin edən aparıcı mexanizmlərinə daxil edilib.

Mövcud milli və beynəlxalq qanunvericilik, işlək mexanizmlər və alətlər, bu günədək keçdiyimiz yol əldə etdiyimiz nəticələr bundan sonra da qarşımıza uşaqlar üçün öz potensiallarını tam şəkildə reallaşdırmaq imkanı verən bir mühitdə böyüməyi təmin etməyi qarşımıza vəzifə kimi qoyur. Bu vəzifənin yerinə yetirilməsi üçün müəyyən nailiyyətlərimiz var. Ən əsası azyaşlı uşaqlar arasında immunizasiya və onun əhatə səviyyəsinin yüksək olması, ana və uşaq sağlamlığı, bu sahədə olan problemlərin erkən aşkarlanması, profilaktikası, xüsusilə icbari müayinələrə dair dövlət proqramlarını məxsusi qeyd etmək istərdim. Dövlət proqramları içərisində məktəbəqədər təlimə çıxış imkanlarının artırılması ilə əlaqədar da ciddi addımlar atılıb. Doğumun universal və dəqiq qeydiyyatı ilə bağlı görülən işlər təqdirəlayiqdir. Ödənişli analıq məzuniyyətinin tətbiqi, ana südü əvəzedicilərinin marketinqinə dair məcəllənin tətbiqi Azərbaycanda bu sahədə problemləri xeyli dərəcədə azaldıb. Amma yenə də problemlər qalmaqdadır. 18 yaşınadək sağlamlıq imkanları məhdud uşaqların sayında müəyyən artım hiss olunur. Bunu da əsas səbəbləri erkən və qohum nikahları, doğuş zamanı travmalar, bir sıra genetik xəstəliklərdir. Erkən aşkarlama və erkən müdaxilə üçün mütəxəssislərin bilik və bacarıqlarının artırılması istiqamətində görülən işləri xüsusi vurğulamaq lazımdır. Burada Heydər Əliyev Fondunun, əlaqədar dövlət orqanlarının birgə işi təqdirəlayiqdir. Sağlam və təhlükəsiz ailə mühitində tərbiyə almaq, əqli və psixi inkişaf sahəsində erkən aşkarlama və müdaxilə tədbirlərinin reallaşdırılması və intensivləşdirilməsi xüsusilə vacibdir. Effektiv qidalanmama səbəbindən 5 yaşadək uşaqlarda qısaboyluluq hələ də müşahidə olunur. Hamilə qadınlar və azyaşlı uşaqlarda anemiya halları rast gəlinməkdədir. Bu problemlərin həlli üçün belə layihələrin reallaşdırılması çox vacibdir. Bugünkü təqdimat mərasimini uşaq hüquqlarının çoxtərəfli əməkdaşlıq əsasında milli inkişaf gündəliyimizdə ön plana çəkilməsinin bariz nümunələrindən biri kimi dəyərləndirmək olar. Uşaqlara qayğını, valideynlərə faydalı məsləhətləri nəzərdə tutan universal, mütərəqqi, ev ziyarəti modelinin pilot qismində uğurlu tətbiqi gələcəkdə bu kampaniyanın coğrafiyasının daha da genişləndirilməsini və həmin kampaniyalar, belə layihələr haqqında əhalinin məlumatlılığının artırılmasını vacib bir vəzifə kimi qarşıya qoyur.

Ölkəmiz üçün ciddi çətinliklər yaratmış pandemiya dövründə xüsusilə davranış problemləri ilə bağlı yaranan çətinlikləri qeyd etmək istərdim. Bu istiqamətdə üzləşdiyimiz çətinliklər göstərdi ki, həqiqətən də insanların bu sahədə vərdişlərini, bacarıqlarını və davranış imkanlarını xeyli dərəcədə genişləndirən layihələrə, tədbirlərə böyük ehtiyac var.

UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Edvard Karvardin, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas təmsil etdiyi təşkilatların Azərbaycandakı müxtəlif qurumlarla uşaqlara dair həyata keçirdiyi layihələrdən bəhs edib. Hər iki təşkilatın ölkəmizdəki nümayəndələri EUDİ layihəsinin Azərbaycan xalqına və gələcək nəsillərə töhfə verəcəyinə ümidvar olduqlarını bildiriblər.

Sonra erkən uşaqlıq dövründə inkişafla bağlı qısa videoçarx nümayiş olunub.

UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbərinin müavini Min Yuan və Regional İnkişaf İctimai Birliyinin EUDİ layihəsinin rəhbəri Nəzrin Şirinova 2019-cu ildən Avropa İttifaqının maliyyə dəstəyi ilə Regional İnkişaf İctimai Birliyi və UNICEF-in Azərbaycandakı nümayəndəliyinin birgə icra etdiyi EUDİ layihəsinin məqsədləri, layihə çərçivəsində yaradılmış **www.eudi.az** portalı, Erkən Uşaqlıq Dövründə İnkişaf Resurs Mərkəzinin fəaliyyəti, o cümlədən gələcəkdə nəzərdə tutulan digər fəaliyyətlər barədə ətraflı məlumat veriblər.

Bildirilib ki, erkən uşaqlıq dövrü bir-birindən ayrı üç mərhələni əhatə edir: mayalanmadan doğuşaqədərki dövr, doğuşdan 3 yaşaqədərki dövr və məktəbəqədərki dövr. Erkən uşaqlıq dövrünün inkişafının məqsədi bütün azyaşlı uşaqların, o cümlədən həssas qruplara daxil olan uşaqların öz inkişaf potensiallarına nail olmasıdır. Buna iki faktor vasitəsilə imkan yaradılır: doğuşdan məktəbə qəbul yaşına qədər bütün uşaqların onların inkişaf ehtiyaclarını qarşılayan yüksəkkeyfiyyətli əsas sağlamlıq, qidalanma, müdafiə və erkən təlim xidmətlərinə bərabər çıxış imkanına malik olması; valideynlərə və uşaqlara qayğı göstərən digər şəxslərə dəstəyin göstərilməsi və onların öz azyaşlı uşaqlarını məsuliyyətli qayğı və pozitiv valideyn tərbiyəsi ilə təmin etməsi.

Qeyd olunub ki, layihənin əsas məqsədləri 8 yaşadək uşaqların sosial, fiziki və əqli inkişafı, sağlamlığı, düzgün qidalanması, təlim-tərbiyəsi, uşaqlarda inkişaf dinamikasının izlənməsi və inkişafın stimullaşdırılması ilə bağlı valideynləri və digər maraqlı tərəfləri maarifləndirmək, bu sahədə çalışan səhiyyə, təhsil və sosial xidmətlər üzrə mütəxəssislərin potensialını artırmaqdır. Layihənin icrası müddətində həmçinin 4 hədəf regionda - Gəncə və Şirvan şəhərləri, Ağcabədi və Abşeron rayonlarında aidiyyəti qurumlar da cəlb olunmaqla müxtəlif "dəyirmi masa"ların, konfransların, festivalların təşkili, icma platformasının yaradılması, geniş maarifləndirmə işlərinin aparılması planlaşdırılır.

Sonra **www.eudi.az** portalına həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbir müzakirələrlə davam etdirilib. Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, təhsil nazirinin müavini Firudin Qurbanov, səhiyyə nazirinin müavini Rəhim Əliyev, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Nigar Bayramova, TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı, Milli Məclisin deputatları Hicran Hüseynova, İlham Məmmədov, Müşfiq Məmmədlinin çıxışları dinlənilib. Çıxışlarda vurğulanıb ki, Azərbaycanda Erkən Uşaqlıq Dövründə İnkişaf (EUDİ) Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında prioritet istiqamətlərdən biri kimi müəyyən edilib. Bu istiqamətdə həyata keçirilən layihələr və digər təşəbbüslər heç şübhəsiz hökumətin insan kapitalının inkişafı prioritetlərinə, eləcə də Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planının icrasına öz töhfəsini verəcək.

# Ölkəmizin sərvətlərinin talan edilməsində Ermənistanla bərabər, onun xarici tərəfdaşları da məsuliyyət daşıyırlar

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan Dəmir yumruq əməliyyatı uğurla başa çatdıqdan sonra qarşımızda dayanan əsas prioritet istiqamət işğaldan azad edilmiş ərazilərimizdə infrastrukturun bərpa edilməsi və uzun illər öz dədə-baba yurdlarından didərgin düşmüş vətəndaşlarımızın doğma yurdlarına qayıtmasıdır. Otuz illik həsrət, nəhayət, sona çatır və soydaşlarımızın doğma el-obalarına qayıdacağı günə az qalır.



AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis sədrinin müavini Adil Əliyev bildirib.

Ölkəmizin 30 ilə yaxın müddətdə pozulmuş ərazi bütövlüyünün 44 gün davam edən Vətən müharibəsi nəticəsində bərpa edildiyini vurğulayan Milli Məclis sədrinin müavini deyib: Azərbaycanın misilsiz Qələbəsi ilə başa çatan Vətən müharibəsi, eyni zamanda, Ermənistanın yürütdüyü faşizm siyasətinə vurulan ən böyük zərbə oldu. Müharibədəki məğlubiyyətdən sonra Ermənistanda hələ də sabitlik yoxdur və yaxın vaxtlarda olacağı da gözlənilmir. Bu ölkədə rəhbər şəxslərin getdikləri yerlərdən biabırcasına qovulması, hər gün davam edən mitinqlər Ermənistan dövlətçiliyinin təhlükədə olmasının əyani göstəricisidir.

Adil Əliyev bildirib ki, Vətən müharibəsi erməni faşizminə ağır zərbə vurdu. O faşizmə ki, Azərbaycan xalqına məxsus qədim abidələri, dini məbədləri, məscid və ziyarətgahları, türbələri amansızcasına məhv edir, dağıdırdı. O faşizm ki, zəbt etdiyi torpaqlarda Azərbaycan mədəniyyətinə və tarixinə şəhadət edən bütün maddi mədəniyyət abidələrini yer üzündən - bizim öz torpağımızdan silməyə çalışırdı. İndi isə törədilmiş bu cinayətlərə görə cavab vermək zamanı gəlib çatıb - Azərbaycana vurduğu zərərə görə Ermənistan barəsində beynəlxalq məhkəməyə müraciət edilir. İşğal dövründə törədilmiş dağıntılarla yanaşı, ölkəmizin təbii sərvətlərindən - qızıl və mis yataqlarından, mineral su mənbələrindən, digər təbii ehtiyatlarından qanunsuz istifadə etmiş Ermənistan və onun xarici tərəfdaşları da beynəlxalq məhkəməyə verilir. Dövlətimiz bu sahədə hüquqi prosedurları hazırda davam etdirir.

Hazırda Azərbaycan dövləti işğaldan azad olunmuş ərazilərin minadan təmizlənməsi kimi çox vacib bir prosesi həyata keçirir. Bu, vətəndaşlarımızın doğma yurd yerlərinə qaytarılması istiqamətində atılan ən mühüm addımlardan biridir. Təəssüf ki, savaşda məğlub olaraq sülh sazişi üçün yalvaran Ermənistan yenə də beynəlxalq humanitar hüququ pozaraq minalanmış ərazilərin xəritələrini verməkdən imtina edir. Bu kimi davranışlar onu deməyə əsas verir ki, Ermənistan hələ də məğlubiyyəti həzm edə bilmir və gücü çatdığı qədər nifaqı davam etdirmək istəyir. Ermənistanın bu əməli növbəti hərbi cinayətdir və noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın müddəalarına ziddir, - deyə Milli Məclis sədrinin müavini vurğulayıb.

Adil Əliyev qeyd edib ki, Vətən müharibəsinin başa çatmasından aylar keçsə də, ərazilərin minalardan təmizlənməsi işləri hələ də davam edir. Hazırda ANAMA-nın (Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik) əməkdaşları ilə yanaşı, Türkiyə və Rusiyadan gələn hərbçilər də bu işdə ölkəmizə kömək göstərirlər. Lakin Ermənistanın minalanmış ərazilərin xəritələrini təqdim etməməsi səbəbindən indiyədək 100-dən çox mülki vətəndaş yaralanıb və ya həlak olub. Ermənistanın törətdiyi cinayətlər, vurduğu ziyan göz qabağındadır. İşğaldan azad olunmuş bölgələrə səfər edənlər bu vəhşiliyin şahidi olur. Ağdamdakı vəziyyəti görən xarici qonaqlar dağıntıların miqyasından dəhşətə gələrək Ağdam şəhərini Qafqazın Xirosiması adlandırıblar. Digər şəhər və kəndlərimizdəki vəziyyət də Ağdamdan çox fərqlənmir. Ermənistan tərəfi amansızcasına hər yeri və hər şeyi dağıdıb, məhv edib. Bütün abidələrimizə, yaşayış məskənlərimizə qarşı vandal siyasətlərini həyata keçiriblər. Onların törətdikləri vəhşiliklər gözəl guşələrin bərpa prosesini ləngidir, - deyə A.Əliyev vurğulayıb.

Milli Məclis sədrinin müavini bildirib ki, mina təmizləmə prosesi ilə paralel olaraq, işğaldan azad edilmiş ərazilərdə infrastruktur layihələrinin icrası çox sürətlə davam etdirilir. Aparılan abadlıq və quruculuq işləri sayəsində hazırda ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhəri tam şəkildə elektrik enerjisi ilə təmin edilib. İndi Daşkəsəndən Kəlbəcərə yeni ötürücü xətlər inşa olunur. Ən qısa zamanda isə kəndlərimizin bərpası təmin ediləcək. Hazırda Cəbrayıl, Ağdam, Füzuli rayonlarının keçmiş təmas xəttinə yaxın olan kəndlərinin bərpası istiqamətində işlər görülür.

İşğaldan azad edilmiş ərazilərə gediş-gəliş yollarının bərpası və yenidən qurulması istiqamətində də məqsədyönlü tədbirlər icra olunur. Zəfər yolu adlandırılan Füzuli-Şuşa yolunun, Füzuli-Hadrut, Füzuli-Cəbrayıl, Bərdə-Ağdam, Göygöl-Toğana-Kəlbəcər avtomobil yollarının tikintisi gedir, Bərdə-Ağdam və Horadiz-Zəngilan-Ağbənd dəmir yolları infrastrukturu yaradılır. Hansı ki, bu yolun sonu düz 101 ildən sonra bizi əlimizdən alınmış tarixi torpağımız olan Zəngəzura qaytaracaqdır, - deyə Adil Əliyev qeyd edib.

# Dünya Axıska Türkləri Birliyinin sədri Milli Məclisdə olub



Aprelin 22-də Milli Məclis sədrinin müavini Adil Əliyev Dünya Axıska Türkləri Birliyinin sədri Ziyəddin Kassanovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qonaqları salamlayan Adil Əliyev 2020-ci ilin şanlı tariximizin ən parlaq səhifələrindən biri olduğunu qeyd edib. Bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qazandığı tarixi Qələbə uzun illər yaddaşlardan silinməyəcək.

Milli Məclis sədrinin müavini ölkəmizin Azərbaycanda yaşayan bütün xalqların vahid Vətəni olmasına və hər kəsin tolerant mühitdə yaşadığına diqqət çəkərək 44 gün davam edən Vətən müharibəsində Azərbaycan xalqının dövlətimizin başçısının ətrafında sıx birləşərək düşmənə döyüş meydanında sarsıdıcı zərbə vurduğunu qeyd edib. Sədr müavini Ermənistan tərəfindən ərazilərimizin 30 illik işğalına son qoyulmasına, dünyanın ermənilərin törətdiyi cinayətlərə qarşı hələ də səssiz qalmasına diqqət çəkib.

Adil Əliyev faşizmin Ermənistanda dövlət siyasətinin əsasını təşkil etdiyini vurğulayaraq işğaldan azad edilmiş ərazilərimizdə ermənilər tərəfindən törədilmiş vəhşiliklərdən danışıb. Bütün tikililərin, məscidlərin, dini ziyarətgahların, tarixi abidələrin dağıdıldığını, onların bu əməlləri nəticəsində dilbər guşələrimizin məhv edildiyini vurğulayan Adil Əliyev Ermənistanın müharibədə məğlubiyyətə uğrayaraq təslim olmasına baxmayaraq, minalanmış sahələrin xəritələrinin bugünədək ölkəmizə verilmədiyini, bu səbəbdən də vətəndaşlarımızın minaya düşərək həlak olduqlarını və ya xəsarət aldıqlarını qonaqların diqqətinə çatdırıb.

Ermənistanın minalanmış sahələrin xəritələrini verməməsinin növbəti müharibə cinayəti olduğuna diqqət çəkən sədr müavini həm də işğal altındakı torpaqlarımızın bütün maddi sərvətlərinin, təbii ehtiyatlarının düşmən tərəfindən mənimsənildiyini, həmin ərazilərdəki qızıl, mis yataqlarının Ermənistan və onun xarici müttəfiqləri tərəfindən dayanmadan talan edildiyini bildirib. Qeyd edib ki, hazırda ölkəmizə dəyən ziyanın hesablanması ilə əlaqədar xarici mütəxəssislərin iştirakı ilə komissiyalar fəaliyyət göstərir. Dəyən ziyan qiymətləndirildikdən sonra ərazilərdəki abadlıq və quruculuq işləri daha intensiv hal alacaq.

Səmimi görüşə görə minnətdarlığını bildirən, Dünya Axıska Türkləri Birliyinin sədri Ziyəddin Kassanov Azərbaycanda yaşayan axıska türklərinin də digər millətlərlə birgə firavan mühitdə yaşadığını diqqətə çatdırıb. Azərbaycanın qazandığı tarixi Qələbədən danışan qonaq bu Zəfərin türk dünyası tarixində mühüm yerinin olduğunu bildirib. O, Birlik tərəfindən çap edilən nəşrlərdə Prezident İlham Əliyevin çıxışlarına xüsusi yer verildiyini, hazırda yaşadıqları Qazaxıstanda Azərbaycanın Vətən müharibəsi dövründə haqq səsini ucaltdıqlarını qeyd edib. Qonaq bundan sonra da Azərbaycanın maraqlarının müdafiəsi istiqamətində ciddi səylə çalışacaqlarını diqqətə çatdırıb.

Görüşdə iştirak edən Türkiyənin ölkəmizdəki sabiq səfiri Hulusi Kılıç Azərbaycanın Vətən müharibəsində Qələbəsindən danışıb, ölkəmizin Cənubi Qafqazın lideri olmasından qürur duyduğunu qeyd edib.

Sonra görüşdə tərəfləri maraqlandıran digər mövzularda fikir mübadiləsi aparılıb.

# Daxili İşlər Nazirliyində kollegiya iclası keçirilib



Aprelin 22-də Daxili İşlər Nazirliyində videokonfrans formatında mülkiyyət əleyhinə cinayətlər, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə, cinayət işlərinin istintaqı və təhqiqat sahəsində fəaliyyətin nəticələrinə və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a bildiriblər, iclası giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov kriminogen duruma təsiri, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi baxımından bu istiqamətlərdə ətraflı müzakirələrin aparılmasının və qarşıda duran vəzifələrin müəyyən edilməsinin zəruriliyini diqqətə çatdırıb.

Gündəlikdəki məsələlərlə bağlı Baş Cinayət Axtarışı İdarəsinin rəisi polis general-mayoru Arzu Daşdəmirov, Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi polis polkovniki İslam Hümbətov və Baş İstintaq və Təhqiqat İdarəsinin rəisi polis general-mayoru Emil Usubov məruzə edərək həyata keçirilən tədbirlərdən, əldə edilmiş nəticələrdən danışıblar.

Məruzə ətrafındakı çıxışlarda aidiyyəti ərazi orqanlarının rəisləri görülmüş işlər və mövcud çatışmazlıqların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə məlumat veriblər.

Kollegiya iclasına yekun vuran general-polkovnik V.Eyvazov cari ilin birinci rübündə asayişin və ictimai təhlükəsizliyin təmini ilə bağlı qarşıya qoyulmuş vəzifələrin bütövlükdə layiqincə yerinə yetirildiyini, cinayətkarlığa qarşı mübarizədə, insan hüquq və azadlıqlarının qorunması sahəsində əldə olunmuş müsbət nəticələrin hesabat dövründə də qorunub saxlanıldığını və inkişaf etdirildiyini diqqətə çatdırıb. Həmçinin xidməti fəaliyyətdə səmərəliliyin artırılması, xüsusən vətəndaşların narkotiklərin ziyanlı nəticələrindən qorunması, həmin vasitələrin tranzit daşınmasının qarşısının alınması, bu işin sərhədyanı bölgələrdə daha da gücləndirilməsi üzrə tapşırıq və tövsiyələrini verib.

Eyni zamanda, vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qarşıya qoyduğu əsas vəzifələrdən olduğunu xatırladan nazir bütün müraciətlərə həssaslıqla yanaşılmasının, cinayətlər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsinin, hər bir şəxsin hüquq və azadlığının, qanuni mənafeyinin etibarlı müdafiəsinin, bütövlükdə polisin səlahiyyətinə aid vəzifələrin peşəkarlıqla yerinə yetirilməsinin vacibliyini nəzərə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının şəxsi heyəti bundan sonra da qanunvericiliklə müəyyən edilmiş funksiyaları layiqincə həyata keçirəcək, ölkədə sabitliyin, əmin-amanlığın davamlılığının təmin edilməsi üçün qüvvə və bacarığını əsirgəməyəcəkdir.

# Fransalı hüquqşünaslar Gəncədə Ermənistanın müharibə cinayətləri ilə tanış olublar









Aprelin 22-də fransalı hüquqşünaslar Yasin Yakuti və Eliz Arfi Gəncədə səfərdə olublar. AZƏRTAC xəbər verir ki, qonaqlar oktyabrın 11-də və 17-də Gəncədə erməni terroru nəticəsində çoxsaylı insanın öldüyü, yaralandığı və böyük dağıntıların törədildiyi əraziyə gəliblər.

Gəncə şəhər prokuroru Azad Qarayev Ermənistanın hərbi cinayətləri ilə tanış olan qonaqlara məlumat verərək bildirib ki, işğalçı düşmənin silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutub.

Bildirilib ki, Ermənistan ordusunun oktyabrın 11-də Gəncədə törətdiyi müharibə cinayəti nəticəsində 5-i qadın olmaqla 10 nəfər həlak olub. Həmçinin 10-u qadın, 9-u azyaşlı olmaqla 34 nəfər yaralanıb. Belə müharibə cinayətlərindən sonuncusu oktyabrın 17-də törədilib. Gəncənin mərkəzi hissəsinin raket atəşinə tutulması nəticəsində 6-sı uşaq olmaqla 16 nəfər həlak olub, 55-dən çox şəxs yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Qeyd olunub ki, əhalinin sıx yaşadığı ərazilərə Toçka-U, Smerç, Skad və digər raketlərlə gecə saatlarında hücumun həyata keçirilməsi çoxlu sayda dinc insanın qətlə yetirilməsi məqsədi daşıyıb.

# Fransalı hüquqşünaslar Ağdamda Şahbulaq qalasını ziyarət ediblər



Aprelin 22-də fransalı hüquqşünaslar Yasin Yakuti və Eliz Arfi işğaldan azad olunmuş Ağdam rayonunda Şahbulaq qalasını ziyarət ediblər. AZƏRTAC xəbər verir ki, onlara qalanın tarixi barədə məlumat verilib.

Qeyd edilib ki, Şahbulaq kəndi yaxınlığında yerləşən bu qala 1751-1752-ci illərdə Qarabağ xanlığının banisi Pənahəli xan tərəfindən inşa edilib. Elmi ədəbiyyatda Şahbulaq qəsri adı ilə tanınan abidə, əslində, iri qəsr kompleksinin iç qalası olub. Kompleks yaşayış evlərindən, bazar, hamam və məsciddən ibarət idi. Kompleksin ətrafı mühafizə divarları, nəzarətçi qüllələri ilə əhatələnib. Şahbulaq saray kompleksinin şimal-qərbində, bulağın yaxınlığında məscid də inşa edilib. Qəsr adını gur sulu bulağın adından alıb.

Pənahəli xan Şuşa qalasını inşa etdirənədək Şahbulaq qalası Qarabağ xanlığının inzibati mərkəzi olub. Şahbulaq tikililəri Qarabağ xanlığının, xüsusilə də onun paytaxtı olmuş Şuşa şəhərinin memarlığına təsir göstərib.

Hazırda Şahbulaq qəsr kompleksindən bulaq yanındakı təpə üzərində ucalan qala və məscid binası qalıb. Ermənilər 1993-cü ildə Ağdamı işğal etdikdən sonra əksər abidələrimiz kimi, Şahbulaq qalasını da erməniləşdirməyə çalışıblar.

# Fransalı hüquqşünaslar Ağdam Cümə məscidində olublar







Aprelin 22-də fransalı hüquqşünaslar Yasin Yakuti və Eliz Arfi işğaldan azad olunmuş Ağdam rayonunda Cümə məscidini ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, səfər iştirakçılarına məscidin tarixi və erməni barbarlığı barədə məlumat verilib.

Qeyd edilib ki, ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm həyata keçiriblər. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib, bəziləri isə erməniləşdirilib.

Bildirilib ki, Ağdam məscidi də ermənilər tərəfindən dağıntılara məruz qalıb, minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları biləkdən yararsız, tanınmaz vəziyyətə salınıb.

# Tərtər və Ağcabədidə İcma Resurs mərkəzləri istifadəyə verilib

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və BMT-nin İnkişaf Proqramının (BMTİP) birgə təşkilatçılığı ilə Tərtər və Ağcabədi rayonlarında İcma Resurs mərkəzlərinin açılış mərasimi keçirilib.

Mərasimdə dövlət komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, Tərtər Rayon İcra Hakimiyyəti başçısı Müstəqim Məmmədov və Ağcabədi Rayon İcra Hakimiyyəti başçısı Rafil Hüseynov, BMTİP-in rezident nümayəndəsi Alessandro Frakassetti və başqaları iştirak ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə qonaqlar Ümummilli Lider Heydər Əliyevin abidəsini və Şəhidlər xiyabanını ziyarət ediblər. Daha sonra Tərtər və Ağcabədi Rayon İcra hakimiyyətlərinin başçıları qonaqlara Ermənistanın təcavüzü nəticəsində sivil vətəndaşlara qarşı törədilən terror cinayətləri barədə məlumat veriblər.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova mərkəzlərin açılışı münasibətilə iştirakçıları təbrik edib. Sədr müavini bu gündən etibarən fəaliyyətə başlayacaq mərkəzlərin icma nümayəndələri, o cümlədən zərər çəkmiş ailələrə dəstək göstərilməsində, onların cəmiyyətə reinteqrasiyasında mühüm rol oynayacağına inamını ifadə edib.

BMTİP-in rezident nümayəndəsi Alessandro Frakassetti Azərbaycan hökuməti və bir sıra beynəlxalq tərəfdaşlarla birgə həyata keçirilən layihələrdə diqqətin daim həssas qruplara yönəldiyini vurğulayıb. O, mərkəzlərin xüsusilə Tərtər və Ağcabədi rayonlarında açılmasının da zərər çəkmiş vətəndaşlara dəstək göstərilməsi və bərpa məqsədi daşıdığını bildirib.

Tədbirin davamında layihə koordinatoru Fəridə Əmirova qısa təqdimatla çıxış edib.

Çıxışlardan sonra Tərtər və Ağcabədi sakinləri, eyni zamanda, qaçqın və məcburi köçkün ailələri üçün ixtisasartırma təlimlərinin keçirilməsi, psixososial yardımın göstərilməsi ilə bağlı rəy və təkliflər bildirilib, diskussiya aparılıb.

Tədbir müzakirələrlə davam edib.

Qeyd edək ki, Azərbaycanın Füzuli-Horadiz, Ağcabədi və Tərtər rayonlarında əhalinin ən həssas qruplarının tezliklə bərpa edilməsi və icmanın dayanıqlılığının təmin edilməsi layihəsi çərçivəsində yaradılan İcma Resurs mərkəzləri zərər çəkmiş icmaların ən vacib ehtiyaclarının müəyyənləşdirilməsinə kömək etmək, o cümlədən əsas diqqəti qadın, uşaq və əlilliyi olan şəxslərə yönəltməklə zərər çəkmiş vətəndaşlara biznes məsləhət xidmətləri də daxil olmaqla sosial-iqtisadi bərpa dəstəyinin verilməsi məqsədi daşıyır.

# Şahbuz rayonunda yeni torpaqlar əkin dövriyyəsinə qatılıb, üç kəndin elektrik sistemi yenilənib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyib: Bizim hələ ki dövriyyədə olmayan böyük torpaq sahələrimiz vardır. Orada meliorativ tədbirlər, infrastruktur layihələri həyata keçirilməlidir ki, biz on minlərlə hektar yeni torpaqları dövriyyəyə buraxaq.

Naxçıvan Muxtar Respublikasında meliorasiya və irriqasiya sistemlərinin yenidən qurulması aqrar sahənin inkişafına mühüm töhfə verir. Hər il bu istiqamətdə silsilə tədbirlər görülür, mütərəqqi suvarma şəbəkələri və nasos stansiyaları tikilir, uzun illər əkilməyən torpaq sahələri əkin dövriyyəsinə qatılır. Həyata keçirilən bu tədbirlər bol məhsul istehsalı ilə yanaşı, həm də əhalinin məşğulluğunun təmin olunmasına hesablanıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Şahbuz rayonunun Külüs kəndində yeni nasos stansiyası tikilib, Şahbuzkənd, Külüs və Keçili kəndlərinin elektrik sistemləri yenilənib.

## Şahbuzkənd, Külüs və Keçili kəndlərinin elektrik təsərrüfatı yenidən qurulub

Aprelin 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Şahbuzkənd, Külüs və Keçili kəndlərinin elektrik sistemlərində görülən işlərlə maraqlanıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev məlumat verib ki, Külüs, Keçili, Şahbuzkənd kəndlərini və yeni tikilən nasos stansiyasını dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin etmək məqsədilə 12,2 kilometr uzunluğunda 35 kilovoltluq elektrik verilişi xətti çəkilib. Bu məqsədlə 35/10 kilovatlıq Şahbuz yarımstansiyasında lazımi genişləndirmə işləri aparılıb, Külüs kəndi ərazisində 2500 KVA gücündə 35/10 kilovoltluq və nasos stansiyasının yaxınlığında 1600 KVA gücündə 10/6 kilovoltluq transformator yarımstansiyası quraşdırılıb.

Bildirilib ki, elektrik xəttinin çəkilişi üçün 84 ədəd 35 kilovoltluq qalvanik metal dayaq, 36,6 kilometr uzunluğunda, 43,5 ton Piogen markalı polad-alüminium məftil, 1700 metr mühafizə trosu çəkilib. Həmçinin 1 ədəd 63 KVA gücündə 10/0,4 kilovoltluq xüsusi sərfiyyat transformatoru, 35, 10 və 6 kilovoltluq kommutasiya açarları quraşdırılıb.

Şahbuzkənd, Külüs və Keçili kəndlərində elektrik təsərrüfatlarının yenidən qurulması yaşayış məntəqələrində elektrik enerjisinin daha keyfiyyətlə ötürülməsinə imkan verəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov yarımstansiyanın qurulmasında əməyi olanlara təşəkkür edərək deyib: Bu ərazilərin elektrik enerjisi ilə təminatında həmişə problemlər olmuşdur. Ona görə də kəndlərin elektrik sistemlərinin yenidən qurulması və yeni xəttin çəkilməsinə qərar verildi. Yeni elektrik xətti həm 3 kəndin elektrik enerjisi ilə təminatını yaxşılaşdırdı, həm də uzun illər bu ərazidə əkilməyən 340 hektar torpağın su təminatını həyata keçirməyə imkan verdi.

Vaxtilə torpaq sürüşməsi zamanı Keçili kəndindən köçənlər üçün evlər tikiləndə qaynaq aparatını işlətmək üçün elektrik enerjisinin gücü çatmırdı, - deyən Ali Məclisin sədri artıq bu gün həmin problemlərin aradan qaldırıldığını, müasir xətlərin qurulub istifadəyə verildiyini, elektrik təminatının yaxşılaşdırılmasının isə burada insanların rahat yaşayışına xidmət etdiyini bildirib.

## Külüsdə yeni nasos stansiyası istifadəyə verilib

Aprelin 22-də Şahbuz rayonunun Külüs kəndində yeni nasos stansiyası istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Yəhya Allahverdiyev məlumat verərək deyib ki, yeni nasos stansiyası Şahbuzçaydan qidalanır və suyu 510 metr yüksəklikdə yerləşən sahəyə vurur. Nasos stansiyasında su sərfi saatda 300 kubmetr olan nasos və gücü 800 kilovat elektrik mühərrikindən ibarət nasos stansiyası tikilərək vakuum sistemi ilə təmin olunub. Suyun sahəyə verilməsi üçün 1850 metr təzyiqli boru xətti bərpa olunub, 290 metr yeni xətt çəkilib. 2140 metr boru xətti üzərində 64 bar təzyiqə davam gətirən 4 əks klapan, 1 tənzimləyici siyirtmə quraşdırılıb, boru xəttinin dayanıqlılığını artırmaq üçün 18 beton anker dayaq tikilib, boru xəttinin sonunda 2 hidrant, 2 paylayıcı hovuz quraşdırılıb.

Ali Məclisin sədri deyib: 40 il əvvəl bu nasos stansiyasının qurulmasına cəhd göstərilmiş, lakin iş başa çatdırılmamışdır. Çünki buraya çəkilən elektrik xəttinin gücü nəzərə alınmadığından nasos stansiyasını işlətmək mümkün olmamışdır. Yeni elektrik xəttinin çəkilməsi, yarımstansiyanın qurulmasından sonra artıq bu nasos stansiyasının işləməsi reallaşmış və bu gün istifadəyə verilir. Stansiya vasitəsilə 3 kəndin - Şahbuz rayonunun Külüs, Mahmudoba və Nursu kəndlərinə aid 340 hektara yaxın torpaq sahəsi suvarılan torpaqlar sırasına daxil olacaqdır. Şahbuz rayonunda elə bir yer yoxdur ki, orada 340 hektar suvarılan torpaq sahəsi bir yerdə olsun. Ona görə bu nasosun əhəmiyyəti çox böyükdür. 340 hektar dəmyə torpaq suvarılan torpaqlara çevrilir ki, bununla məhsuldarlıq xeyli artacaqdır.

Ali Məclisin sədri nasos stansiyasının qurulmasında əməyi olanlara təşəkkür edib və stansiyanı işə salıb.

## Əkin dövriyyəsinə qatılan yeni torpaqlar bol məhsula təminatdır

Həmin gün Ali Məclisin sədri əkin dövriyyəsinə qatılmış 340 hektar torpaq sahəsinə baxıb.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin rəisi Müslüm Cabbarzadə məlumat verib ki, sahəyə suyun paylanması üçün 5200 metr su arxı çəkilib və ərazi daşdan təmizlənib. Əkin dövriyyəsinə daxil edilən 340 hektar torpaq sahəsinin 211 hektarı bələdiyyə, 129 hektarı isə xüsusi mülkiyyətdə olan torpaq sahələridir. Bunun 288 hektarı Külüs, 37 hektarı Mahmudoba, 15 hektarı isə Nursu bələdiyyələrinə daxildir. Ərazi Mahmudoba bələdiyyəsindən 1850 metr hündürlükdən başlayaraq Külüs və Nursu bələdiyyələrinə doğru 2100 metr hündürlüyədək 6 kilometr boyunca davam edir. Bu ilin məhsulu üçün ötən ilin payızında 274 hektar sahədə arpa, buğda və xaşa əkilib ki, onun 121 hektarı xüsusi, 153 hektarı bələdiyyə mülkiyyətində olan torpaqlardır. Həmçinin 45 hektar sahədə Naxçıvan Aqrolizinq Açıq Səhmdar Cəmiyyəti əkin aparıb.

Əkin dövriyyəsinə qatılan torpaq sahələrinə sakinlərin və kənd təsərrüfatı texnikalarının rahat gediş-gəlişinin təmin olunması məqsədilə 7,6 kilometrlik yeni yol çəkilib.

Ali Məclisin sədri yeni əkin dövriyyəsinə qatılacaq 340 hektar sahədə qurulacaq qapalı suvarma şəbəkəsinin layihəsinə baxıb. Məlumat verilib ki, qapalı suvarma şəbəkəsinin qurulmasında 42 hidrant, 10 siyirtmə, 6 suboşaldıcı və 3 təzyiqqaldırıcıdan istifadə olunacaqdır. Diametri 250 və 200 millimetr olan boru xətlərindən istifadə olunmaqla, ümumilikdə 10 min 596 metr xətt çəkiləcəkdir.

Sonra kənd sakinləri ilə görüş olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov sakinləri təbrik edərək deyib: Bu gün Şahbuz rayonunun həyatında əlamətdar gündür. Rayonun əkin dövriyyəsinə suvarılan 340 hektar torpaq sahəsi əlavə olunur. Bu ərazilər əkin üçün tam yararlı, məhsuldar torpaqlardır. Suvarılandan sonra burada məhsuldarlıq da artacaq və rayon muxtar respublikanın iqtisadiyyatına öz töhfəsini verəcəkdir. Ölkəmizin iqtisadi inkişafı, torpaq sahələrinin suvarılmasının dayanıqlılığının artırılması sahəsində görülən tədbirlər, qəbul olunan dövlət proqramlarına uyğun olaraq bu ərazinin də əkin dövriyyəsinə daxil olunması üçün plan hazırlandı və həyata keçirildi. İlk növbədə, 11 kilometrə yaxın yeni elektrik xətti çəkildi və 2 yarımstansiya yaradıldı. Daha sonra nasos stansiyasının qurulması ilə yeni torpaqlar əkin dövriyyəsinə qatıldı. Əraziyə gələn yolun da əkinçilər üçün vacibliyi nəzərə alınaraq buraya tam yararlı yol çəkildi.

Ali Məclisin sədri deyib: Qısa müddətdə burada böyük işlər görülüb. Bu işlərin görülməsi üçün muxtar respublikanın büdcəsindən 1 milyon manata yaxın vəsait sərf olunub ki, torpaq mülkiyyətçiləri, bələdiyyə torpaqlarını icarəyə götürənlər torpaqlardan səmərəli istifadə edə, bol məhsul götürə bilsinlər. Dövlət dəstəyi ilə güzəştli şərtlərlə gübrələr verilir, əkinçilərə hər hektara görə vəsaitlər ödənilir. Bu ildən taxılın hər kiloqramı dövlət tərəfindən 42 qəpiyə alınacaqdır. Ona görə də torpaqlardan səmərəli istifadə olunmalı, bol məhsul əldə edilməlidir. Bu da həm əkinçilərin öz həyat şəraitini yaxşılaşdırmağa, həm də ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasına töhfə verəcəkdir.

Külüs kənd sakini Vahid Sadiqov minnətdarlıq edərək deyib: Ali Məclis sədrinin yüksək diqqət və qayğısı sayəsində muxtar respublikanın hər bir rayonu kimi, Şahbuz rayonu da tamamilə abadlaşıb. Kəndimizdə yeni məktəb, kənd və xidmət mərkəzləri üçün yeni binalar tikilib, təbii qaz, elektrik enerjisi təminatı yaradılıb, yolumuz abadlaşdırılıb. İnsanların rahat yaşaması üçün hər şərait vardır. Ali Məclis sədrinin Külüs kəndinə budəfəki səfəri xüsusilə fərqlənir. Ona görə ki, sovet imperiyasının 70 ildə həyata keçirə bilmədiyi işlər qısa müddət ərzində reallığa çevrilib. Artıq Düz massivində su var, yəni həyat var. Kəndimizdə yeni nasos stansiyası qurulub, buraya 12 kilometr məsafədən elektrik xətti çəkilib, geniş yol salınıb, ərazi daşdan təmizlənərək əkinə yararlı vəziyyətə gətirilib. Burada görülən işləri biz heç təsəvvürümüzə də gətirə bilməzdik. Əvvəllər bu düzə qalxmaq çox çətin idi. İndi isə istənilən texnika bura çox asanlıqla gəlib-gedə bilir. Mən bu ərazidə 2 hektar taxıl əkmişəm. Bu cür əkin sahələrinin artırılması bolluq deməkdir. Bolluq xoş güzərandır. Bizim üzərimizə düşən bir vəzifə var - əkib-becərmək, bolluq yaratmaq, gəlir əldə etmək.

Ali Məclisin sədri ərazidə qapalı suvarma şəbəkəsinin qurulmasına başlanılması, əkin zamanı məhsuldar və yerli şəraitə uyğunlaşdırılmış toxum sortlarından istifadə edilməsi, torpaq mülkiyyətçilərinin maarifləndirilməsi barədə müvafiq tapşırıqlar verib.

* * *

Nasos stansiyalarının tikilməsi üçün, ilk növbədə, dayanıqlı və keyfiyyətli elektrik enerjisi təminatı vacib şərtdir. Külüs kəndində yeni nasos stansiyasının tikilməsi layihəsi 40 il bundan əvvəl, hələ sovetlər birliyi dövründə nəzərdə tutulmuşdu. Lakin həmin dövrdə bu ərazidə enerji təsərrüfatının normalara uyğun olmaması layihənin icrasına imkan verməyib. Müstəqillik illərində muxtar respublikada enerji təhlükəsizliyi öncül istiqamət kimi götürülüb, yeni elektrik stansiyaları qurulub, bütün yaşayış məntəqələrində, xüsusilə kəndlərdə elektrik təsərrüfatı sistemləri yenilənib, yeni və dayanıqlı elektrik verilişi xətləri çəkilib, transformatorlar qurulub, yarımstansiyalar müasirləşdirilib, enerjinin tələbata uyğun verilməsinə nail olunub. Məhz bu işlərin davamı olaraq Şahbuzkənd, Külüs və Keçili kəndlərində elektrik sistemlərinin yenilənməsi, Şahbuz yarımstansiyasının gücünün artırılması nasos stansiyasının tikintisinə imkan verib, nəticədə yüz hektarlarla torpaq sahəsi əkin dövriyyəsinə qatılıb. Yeni torpaq sahələrinin əkilməsi isə həm muxtar respublikanın ərzaq təhlükəsizliyinə, həm də sakinlərin rifahına töhfə verəcəkdir.



# Tarixin ən qüdrətli Azərbaycanının və möhtəşəm Zəfərin müəllifi



## Qalib Sərkərdənin Zəngəzur diktəsi: Qayıdacağıq!

### İlham Əliyevin növbəti dəfə göstərdiyi qətiyyət və cəsarət Ermənistanda şok effekti yaradıb




*Əvvəli 1-ci səh.*

İlham Əliyevin Hacıqabuldakı bəyanatı bu gün geniş müzakirə mövzusuna çevrilib. Çünki Azərbaycanın Lideri qətiyyətli şəkildə bəyan etdi ki, əsas rəqibimiz zamandır. Ona görə ki, dəmir yolunun, avtomobil yolunun çəkilişi vaxt tələb edir. Bu səbəbdən də bütün güclər səfərbər olunub ki, bu layihə icra edilsin. Layihə başa çatdıqdan sonra Azərbaycan xalqı 101 il bundan əvvəl əlimizdən alınmış Zəngəzura qayıdacaq.

Bu ciddi, birmənalı bəyanatın arxasında, əlbəttə ki, siyasi iradə və qətiyyət dayanır. İlham Əliyevin indiyədək yürütdüyü tam müstəqil siyasət, prinsipiallıq, ədalətlilik, humanizm prinsiplərinə sadiqliyi hər kəsə bəllidir. Dünya İlham Əliyevi belə qəbul edir.

Azərbaycan Prezidentinin fikirlərində Ermənistanın ərazi bütövlüyünə heç bir təhdid əlaməti yoxdur. İlham Əliyev hər zaman olduğu kimi, fikirlərini kifayət qədər aydın və konkret şəkildə ifadə edib. Lakin Ermənistan XİN eşitdiklərini istədiyi şəkildə yozaraq bir daha öz mənfur niyyətini, erməni xislətini ortaya qoyub.

Onu da əlavə edək ki, Bakıda Hərbi Qənimətlər Parkının açılışı da Ermənistanda böyük hay-haraya səbəb olmuşdu. Hətta Ermənistanın BMT-dəki daimi nümayəndəsi Mher Margaryan bununla bağlı Antonio Quterreşə məktub da göndərmişdi. Guya parkda erməni hərbçilərin boş qalmış dəbilqələri və şəxsi əşyaları, maketləri qeyri-insani şəkildə təqdim edilib. Nə qədər həyasız olmalısan ki, bu ifadələri işlədə biləsən...

#### "Zəngəzur dəhlizi mütləq istifadəyə veriləcək"

İlham Əliyev yalnız 10 noyabr bəyanatında göstərilən müddəaların icra prosesini dəyərləndirərək Ermənistanın üzərinə götürdüyü öhdəliklərdən yayınma hallarının ola biləcəyi halda bu ölkə üçün baş verə biləcək nəticələrə diqqət çəkib. Yəni görülən işlər 10 noyabrda təsdiq olunmuş öhdəlikdir. Bu baxımdan öhdəliyin həyata keçirilməsində qalib dövlət kimi Azərbaycan israrlıdır.

Təbii ki, bu bəyanat Moskvada 3 ölkə arasında imzalandığı üçün Rusiya da Azərbaycanın mövqeyini dəstəkləməlidir. Belə olan halda Ermənistan da yaxşı bilir ki, istənilən bəhanə, hansısa öhdəlikdən boyun qaçırması özünə zərbə olacaq.

Hələ aprelin 13-də ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda çıxışında da İlham Əliyev Zəngəzur dəhlizi ilə bağlı məsələyə aydınlıq gətirmişdi.

ABŞ-ın Prinston Universitetinin dosenti Maykl Reynoldzın "Azərbaycan hazırkı Ermənistan ərazisinin bir hissəsinin tarixən Azərbaycana məxsus olması və həmin ərazilərin bir gün Azərbaycan tərəfindən geri qaytarıla biləcəyi ilə bağlı iddialardan çəkinəcəkmi?" sualına cavabında İlham Əliyev birmənalı şəkildə vurğulamışdır ki, Zəngəzur qədim Azərbaycan torpağıdır. Bu məkan 1920-ci ildə, 101 il əvvəl Ermənistana verilib. Yəni ondan əvvəl o torpaq Azərbaycana məxsus olub. Tarix sübut edir ki, ermənilərin bu gün Sevan adlandırdığı Göyçə gölünün ətrafında azərbaycanlılar yaşayıblar. XX əsrin əvvəlindəki xəritələrdə o göl Sevan deyil, Göyçə kimi göstərilib.

İlham Əliyev İrəvanla bağlı da məsələnin eyni olduğunu izah edərək vurğulamışdır ki, ermənilər İrəvanın tarixi hissəsini məhv edib özünküləşdirməyə çalışıblar. Ancaq tarixi faktlar var: "Azərbaycanlılar orada yaşamışlar, o cümlədən mənim ulu babalarım. Bunlar hamısı faktlardır, lakin bizim ərazi iddiasında olmağımız anlamına gəlməməlidir. Bilmirəm bunu eşitmisiniz, yoxsa yox, mən demişəm ki, biz oraya qayıdacağıq. Ancaq mən demədim ki, biz oraya tank üzərində qayıdacağıq. Biz Zəngəzur dəhlizinə qayıdıb orada yoldan istifadə edəcəyiksə, niyə biz İrəvana qayıtmayaq? Hesab edirəm ki, vaxtı gələndə biz bunu da edəcəyik".

Zəngəzur dəhlizi ilə bağlı aparılan danışıqlara, görülən işlərə gəlincə isə İlham Əliyev qətiyyəti şəkildə vurğulamışdır ki, bu dəhliz mütləq istifadəyə veriləcək. Çünki müharibənin nəticələrindən biri də bu gün müzakirə mövzusu olan Zəngəzur dəhlizidir. Zəngəzur dəhlizi tarixi nailiyyətdir. Üçtərəfli bəyanatda xüsusilə bu məsələnin əks olunması savaşdan qalib çıxan Azərbaycanın həm də böyük siyasi qələbəsidir.

#### Beynəlxalq məhkəmədə cavab verəcəklər

Hacıqabulda Azərbaycan Televiziyasına müsahibəsində Qarabağda aparılan ümumi abadlıq-quruculuq işlərindən söz açan İlham Əliyev əsas kimi yol infrastrukturunun yaradılması ilə bağlı bütün istiqamətlər üzrə işlər getdiyini söylədi. Bəlli oldu ki, yaxın günlərdə Füzuli-Şuşa yolu, yəni Zəfər yolundan başqa, Horadiz-Zəngilan avtomobil yolunun da təməli qoyulacaq. Füzuli-Hadrut, Füzuli-Cəbrayıl, Bərdə-Ağdam, Göygöl-Toğanalı-Kəlbəcər avtomobil yollarının tikintisi artıq başlayıb və bununla paralel olaraq Bərdə-Ağdam və Horadiz-Zəngilan-Ağbənd dəmir yolu infrastrukturu da yaradılmaqdadır. Prezident bu yolun Zəngəzur dəhlizinə gəlib çatacağını və artıq cədvəl üzrə işlərin getdiyini də vurğuladı.

Prezident həmçinin bu işlərlə paralel olaraq, vurulmuş ziyanın hesablanması prosesinin də davam etdirildiyini, bu işə xarici mütəxəssislərin cəlb olunduğunu diqqətə çatdırdı. Məqsəd bəllidir - təbii sərvətlərimizdən qanunsuz istifadə etmiş Ermənistan və onun xarici tərəfdaşları beynəlxalq məhkəmədə cavab verməlidirlər. Çünki qızıl yataqlarımızın, mis yataqlarımızın, digər təbii sərvətlərimizin ermənilər tərəfindən talanması, qanunsuz istismarı beynəlxalq cinayət hesab olunur və bu istiqamətdə də hüquqi prosedurlara start verilib.

Müharibəyə qədər istədiyi oyunlardan çıxan, həmsədr dövlətlərin, beynəlxalq təşkilatların yaratdıqları cəzasızlıq mühitindən lazımınca yararlanan Ermənistan indi dalana dirənib. Bütün bunlara rəğmən, yəni azərbaycanlılara qarşı dövlət səviyyəsində soyqırımı törətməsi, tarixi, dini abidələrimizi dağıtması fonunda belə İlham Əliyev Ermənistanla əməkdaşlıq məsələsinin də mümkünlüyünü vurğuladı. Təbii ki, Azərbaycan xalqı bu vəhşiliyi heç vaxt unutmayacaq və heç vaxt bağışlamayacaq. Amma bununla paralel olaraq, öz maraqlarımızı təmin etmək üçün lazımi addımların atılması labüddür. Bu da Azərbaycanın ilk növbədə milli maraqları naminə atılan addımlardır.

Bir sözlə, məğlub Ermənistan götürdüyü bütün öhdəliyi yerinə yetirmək məcburiyyətindədir. Ən azı ona görə ki, artıq qarşısında güclü və haqlı Azərbaycan dövləti var. Prezidentin söylədiyi kimi, nə qədər bunu tez qəbul etsələr, özləri üçün daha xeyirlidir. Etməsələr də, zorla həll edə bilərik.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



## Zamanın sınaqlarından çıxan münasibətlər

### Ölkəmizin Belarusla əlaqələri qarşılıqlı faydalı əməkdaşlığa və strateji tərəfdaşlığa əsaslanır

İkinci Qarabağ müharibəsini möhtəşəm Zəfərlə başa vuran xalqımız öz tarixinin ən şərəfli dövrünü yaşayır. Respublikamızın ərazi bütövlüyünün bərpası ilə nəticələnən bu müharibə möhtərəm Prezident İlham Əliyevin yenilməz qətiyyətini, Ordumuzun qüdrətini və milli birliyimizi dünyaya nümayiş etdirdi.

Bu Qələbəyə Azərbaycanın dostları da dərindən sevinir. Bakıda işgüzar səfərdə olan Belarus Prezidenti Aleksandr Lukaşenkonun Qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik etməsi, Azərbaycanın öz milli arzusuna çatmaq yolunda böyük addım atdığını deməsi göstərdi ki, dostlarımız bizim sevincimizi bölüşür, ona şərik olurlar.

#### Azərbaycanın yaxın dostu

Azərbaycan-Belarus münasibətləri hazırda özünün ən yüksək zirvəsinə çatıb. Bir-birindən kifayət qədər coğrafi uzaqlıqda yerləşmələrinə, ayrı-ayrı mədəniyyətlərin daşıyıcıları olmalarına baxmayaraq, bu iki dövlət bir-birinin etibarlı tərəfdaşı və yaxın dostudur. Əlaqələrin inkişaf dinamikasına nəzər saldıqda aydın olur ki, müxtəlif sahələri əhatə edən münasibətlər qarşılıqlı faydalı əməkdaşlığa və strateji tərəfdaşlığa əsaslanır. Ən əsas məqam isə ondan ibarətdir ki, iki dövlət arasında əlaqələrin bu səviyyəyə çatmasında dövlət başçılarının şəxsi dostluq münasibətləri əvəzsiz rol oynayır. İndiyədək dövlət başçıları dəfələrlə qarşılıqlı rəsmi və işgüzar səfərlər ediblər. Bu səfərlər ilk növbədə prezidentlər arasında olan dostluğun və strateji xarakter daşıyan Belarus-Azərbaycan əməkdaşlığının yüksək məzmun və mahiyyətinin təsdiqidir.

Belarus Azərbaycanın təmsil olunmadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür. Lakin rəsmi Minsk ölkəmizlə tərəfdaşlığa sadiq qalaraq Azərbaycanın iştirak etmədiyi bu təşkilatda rəsmi Bakının mövqelərini hər zaman qətiyyətlə müdafiə edib, nə KTMT-də, nə də Avrasiya İttifaqı çərçivəsində Ermənistanın Azərbaycana qarşı təxribatçı addımlar atmasına imkan verməyib.

Belarus Prezidenti cənab Aleksandr Lukaşenkonun bu günlərdə respublikamıza etdiyi son işgüzar səfər mövcud əlaqələrin mahiyyətinə yeni işıq saldı. Xüsusən qeyd etməliyik ki, koronavirus pandemiyasının davam etməsinə baxmayaraq Belarus Prezidentinin Azərbaycana gəlişi bir daha təsdiq etdi ki, münasibətlər möhkəm dostluğa, qarşılıqlı etimada və strateji tərəfdaşlığa əsaslanır. İki dövlətin prezidentlərinin səmimi dostluğu isə münasibətlərin məzmun və mahiyyətinin zənginliyinə impuls verir. Prezident İlham Əliyevin dediyi kimi: "Bizim münasibətlərimiz artıq zamanın sınağından çıxıb. Bu münasibətlərin çox yaxşı tarixi var. Biz qarşılıqlı əlaqələrimizin bütün dövründə həmişə münasibətlərimizin inkişafı ilə bağlı məsələləri həll etmişik. Bizim aramızda heç vaxt həll edilməmiş və ya hansısa operativ müdaxilə tələb edən məsələlər olmayıb. Biz hədəflərimizi çox dəqiq müəyyən etmişik, icraçılara konkret tapşırıqlar vermişik və qarşıya qoyulmuş məsələlərin reallaşdırılmasına nəzarət etmişik. Bundan ötrü müntəzəm görüşlər keçirmişik və keçiririk. Mən dəfələrlə Belarusa, Aleksandr Qriqoryeviç isə Azərbaycana səfər edib. Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır və yenə də belə olacaq".

Səfər zamanı dövlət başçılarının iştirakı ilə 3 sənəd imzalandı. Bu sənədlər iki dövlət arasında qida təhlükəsizliyi, turizm və energetika sahələrində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Beləliklə, Aleksandr Lukaşenkonun səfəri dövlətlərarası münasibətlərin hüquqi bazasının daha da güclənməsinə töhfə verdi.

#### Belarusun Qarabağın dirçəlişində iştirakı faydalı ola bilər

Azərbaycan dövlətinin elan etdiyi prioritetlərdən biri işğaldan azad edilmiş torpaqlarımızın bərpası və yenidən qurulmasıdır. Artıq bu istiqamətdə bir neçə aydır ki, infrastruktur layihələrinin icrasına başlanılıb. İşğaldan azad olunmuş rayonlarımızda yeni yollar çəkilir, enerji təminatı yaradılır. Prezident İlham Əliyevin indiyədək bir neçə dəfə Qarabağ bölgəsinə səfər etməsi göstərir ki, bütün bu məsələlər dövlət başçısının xüsusi nəzarətindədir.

İkinci Qarabağ müharibəsində Azərbaycanın Qələbəsi və işğal edilmiş ərazilərin geri qaytarılması sayəsində bir çox dövlətlərin ölkəmizə marağı daha da artıb. Onlar Ermənistan tərəfindən dağıdılmış ərazilərin yenidən qurulmasında iştirak etməyə çalışırlar. Lakin dövlətimiz dost və tərəfdaş ölkələrin Qarabağın bərpasında iştirak etməsində maraqlıdır. Belarus Prezidenti də ölkəsinin postmünaqişə dövründə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası prosesində iştirakının tərəfdarıdır. Təsadüfi deyil ki, Aleksandr Lukaşenkonun Azərbaycana səfəri zamanı Belarusun da azad olunmuş ərazilərimizin yenidən qurulmasında iştirakı məsələsi müzakirə olundu. "Biz Qarabağda işğaldan azad olunmuş ərazilərin bərpasında bir sıra istiqamətlər üzrə - həm şəhərsalma, həm infrastrukturun yaradılması, kənd təsərrüfatının inkişafı sahələrində Belarus şirkətlərinin gələcək iştirakı ilə bağlı məsələləri ətraflı müzakirə etdik. Biz dünən də, bu gün də Belarusun aqroşəhərciklər yaradılması sahəsində təcrübəsini geniş müzakirə etdik. Mən Aleksandr Qriqoryeviçə məlumat verdim ki, Qarabağ "yaşıl enerji" zonası elan edilib və birinci "ağıllı kənd" layihəsi praktiki olaraq həyata keçirilməyə hazırdır. Əlbəttə, bu sahədə Belarusun təcrübəsi nəzərə alınmaqla bu istiqamətdə işləmək çox maraqlı olardı. Mən daha sonra dedim ki, biz ərazilərin bərpası işlərinə yalnız dost ölkələrdən olan şirkətləri cəlb edəcəyik. Belarus da Azərbaycan üçün belə ölkədir. Qarabağın bərpası layihələrində üç dost ölkədən olan şirkətlər artıq işləyirlər. Ümidvarıq ki, dördüncü ölkə Belarus olacaq", - deyə cənab İlham Əliyev bildirdi.

Bəli, Belarus hər zaman Azərbaycana dost münasibəti göstərən dövlətdir. Təsadüfi deyil ki, 44 günlük müharibə dövründə də bu ölkədə Azərbaycanın maraqlarına zidd olan hər hansı hadisə baş vermədi. Prezident İlham Əliyev bunları görür və yüksək dəyərləndirir. Bu baxımdan Belarusun Qarabağın dirçəldilməsində iştirak etmək niyyətində olması tamamilə düzgündür. Nəzərə alsaq ki, işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının və sənayenin inkişafı, alternativ enerji mənbələrinin yaradılması üçün böyük imkanlar var, Belarus şirkətləri bu sahədə əhəmiyyətli rol oynaya bilərlər. Hesab edirik ki, belaruslu dostlarımızın Qarabağın dirçəlişinə cəlb olunması faydalı ola bilər.

#### Gəncə Avtomobil Zavodu Belarus-Azərbaycan əməkdaşlığının uğurlu nümunəsidir

Bu gün Azərbaycan-Belarus əlaqələrindən danışanda ilk yada düşən əsas əməkdaşlıq nümunələrindən biri Gəncə Avtomobil Zavodunda həyata keçirilən layihələrdir. Prezident İlham Əliyevin 2006-cı ilin oktyabrında Belarusa səfəri zamanı bu ölkənin traktor və avtomobil zavodları ilə Gəncə Avtomobil Zavodu İstehsalar Birliyi arasında əməkdaşlığın yaradılması barədə razılığa gəlindi və həmin müəssisələrlə uzunmüddətli əməkdaşlıq müqaviləsi bağlanıldı. Müqaviləyə uyğun olaraq 2007-ci ilin mart ayında Belarusdan daxil olan komplektləşdiricilərin əsasında "Belarus" traktorlarının müxtəlif modellərinin istehsalına başlanıldı. Həmin ilin aprel ayından isə MAZ avtomobillərinin yığımı təşkil olundu. 2018-ci ilin aprelində müəssisədə onmininci traktor istehsal edildi. Bütövlükdə 2007-ci ildən etibarən bu zavodun bazasında 11 mindən artıq traktor, eləcə də məşhur Belarus brendlərinə aid 3,5 minə qədər digər texnikalar yığılıb.

2019-cu ildən Gəncə Avtomobil Zavodunun fəaliyyətində yeni keyfiyyət dəyişiklikləri baş verdi. Həmin il Belarusun elektrik avtobuslarının və taxılyığan kombaynların Gəncədə birgə istehsal olunması barədə razılıq əldə olundu. Elektrobuslar həm ekoloji, həm də yanacağa qənaət baxımından çox sərfəlidir. 83 sərnişin üçün nəzərdə tutulan və 60 kilometr/saat sürətlə hərəkət edən elektrobusun akkumulyatoru enerjidoldurma stansiyası tərəfindən 6 dəqiqə ərzində tam doldurulur və enerji bərpa olunur.

Bu gün ölkəmizin bütün şəhər və rayonları dövlət başçısı İlham Əliyevin diqqət və qayğısı sayəsində gündən-günə inkişaf edir, gözəlləşir, müasirləşir. Təbii ki, hər gün yaşıllaşan və ekoloji baxımdan təmiz şəhərə çevirməyə çalışdığımız yaşayış yerlərində sərnişindaşımada elektrobuslardan istifadə edilməsi çox mühümdür. Elektrobuslar işğaldan azad edilən ərazilərimizdə bərpa olunan enerji mənbələrindən istifadəni, ekoloji təmiz texnologiyaların, o cümlədən nəqliyyat vasitələrinin tətbiqini nəzərdə tutan "yaşıl zona" konsepsiyasına da tam uyğundur.

Aleksandr Lukaşenkonun səfəri zamanı mətbuata bəyanatla çıxış edən Prezident İlham Əliyev bu barədə deyib: "Sənaye kooperasiyası bizim münasibətlərin çox böyük seqmentidir. Hökumətlərarası komissiyanın həmsədrləri layihələrin uğurla həyata keçirilməsi barədə bizə məruzə ediblər. Aleksandr Qriqoryeviç ilə biz bu layihəni Belarus traktorlarının yığılmasından başladıq, sonra başqa istehsalatlara - avtomobillər, yük maşınları, kombaynlar, avtobuslar və bizim "Yaşıl Qarabağ zonası" konsepsiyası çərçivəsində işimizə çox yarayacaq elektrobuslar istehsalını da nəzərdə tuturuq".

Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi sənaye sahəsində Belarus-Azərbaycan əməkdaşlığının real nümunəsidir və möhtərəm Prezident İlham Əliyevin uğurlu iqtisadi siyasətinin nəticəsidir ki, bu ölkə ilə sənaye sferasında faydalı və səmərəli əməkdaşlıq əlaqələri yaradılaraq inkişaf etdirilir. Belarus Prezidenti Aleksandr Lukaşenkonun sonuncu səfəri isə bütün sahələr üzrə ikitərəfli əlaqələrin inkişafına böyük töhfələr verəcək.

**Xanlar FƏTİYEV,**
***Gəncə Avtomobil Zavodu İstehsalat Birliyinin Müşahidə Şurasının sədri***

## Azərbaycan-İtaliya tərəfdaşlığı yeni layihələrlə davam edir

Cari ilin ilk üç ayında Azərbaycanın ən çox bitumlu süxurlardan alınmış xam neft və xam neft məhsulları ixrac etdiyi ölkə İtaliya olub. Belə ki, yanvar-mart aylarında həmin ixracın həcmi 3 milyon 630,3 min ton təşkil edib. Dövlət Gömrük Komitəsinin bu məlumatı bir daha təsdiq edir ki, Azərbaycan-İtaliya iqtisadi əlaqələri yüksək səviyyədə qalmaqdadır.

Ümumiyyətlə, iki ölkə arasında istər siyasi, istərsə də iqtisadi münasibətlər yüksələn xətlə inkişaf edir. Elə keçən il Azərbaycan-İtaliya münasibətləri çərçivəsində baş verən mühüm hadisələri xatırlatmaq kifayətdir. 2020-ci ilin fevral ayında Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri xüsusi önəm kəsb etdi. Belə ki, həmin səfər zamanı Çoxölçülü Strateji Tərəfdaşlıq haqqında sənəd imzalandı.

Ölkəmiz Vətən müharibəsində Qələbə qazandıqdan sonra İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərə gəlməsi əməkdaşlıq və tərəfdaşlığın uğurla davam etdiyini təsdiqlədi. Az sonra İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, ölkələrimiz arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Manlio Di Stefanonun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə oldu. Prezident İlham Əliyev hər iki nümayəndə heyətini qəbul etdi. Dövlət başçısı vurğuladı ki, onlar müharibədən sonra Azərbaycana səfər edən ilk Avropa nümayəndə heyətləridir. Əsl dostluq özünü çətin anlarda büruzə verir. Bizim üçün də bu müharibə eyni zamanda onu göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir, hansı ölkələrdir. Prezident eləcə də İtaliya-Azərbaycan əlaqələrinin həm siyasi, həm iqtisadi, həm bütün başqa sahələrdə çox uğurla inkişaf etdiyini, bu ölkənin birinci ticarət tərəfdaşımız olduğunu bildirdi.

Əlbəttə, əlaqələrin xeyli hissəsi enerji sektoruna aiddir. Xüsusilə Azərbaycandan İtaliyaya çatanadək 3500 kilometr yol keçən "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti - TAP (Trans-Adriatik Qaz Boru Kəməri) son illər iki ölkə arasında əlaqələri daha da möhkəmləndirib. Bu kəmərin tikintisi məhz keçən ilin sonunda uğurla yekunlaşdı. Bu da o deməkdir ki, Azərbaycan və İtaliya gələcək onilliklər ərzində enerji sahəsində daha yaxın tərəfdaş olacaqlar.

Lakin gələcək əməkdaşlıqda qeyri-neft sektorunun da xüsusi çəkiyə malik olacağına şübhə yoxdur. Cari il aprelin 13-də Bakıda, ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda səsləndirilmiş fikirlər də bunu təsdiqləyir. Prezident İlham Əliyev tədbirdə İtaliya araşdırmaçılarının suallarını cavablandıraraq bildirib ki, bu ölkənin şirkətləri Azərbaycanda indiyədək də böyük layihələr icra ediblər. Bunlara neft-kimya, neft emalı, tikinti və memarlıq layihələri daxildir. İndi biz italyan şirkətlərinin iştirakını daha da genişləndirmək arzusundayıq. Prezident bu barədə belə deyib: "Mən bildirmişdim ki, müharibədən sonra biz dost ölkələrdən olan şirkətləri dəvət edəcəyik. Bu, təbii haldır, çünki müharibə bizim üçün kimin kim olduğunun aydın göstəricisi idi. Əlbəttə, bizim bu və ya digər ölkənin mövqeyi ilə bağlı müəyyən ehtimallarımız var idi, ancaq 100 faiz əminlik yox idi və burada müharibə hər şeyi aydın göstərdi. İtalyan şirkətlərinin artıq dəvət edildiyi sahələrə gəldikdə, biz muzey və müharibə memoriallarının yaradılması işinə italyan şirkətini cəlb etmişik. Biz təkcə Bakıda deyil, digər şəhərlərdə, o cümlədən azad olunmuş ərazilərdə də Zəfər muzeyləri və müharibə memorialları yaradacağıq".

İtaliya şirkətlərinin iştirak edəcəyi digər sahələr də çoxdur. Onların dəvət edildiyi daha bir sahə enerji istehsalı sahəsidir. Azad olunmuş ərazilərdə enerji istehsalı üçün İtaliya şirkətləri ilə təmaslar qurulub, hətta ilkin sənədlər də imzalanıb. Məlumdur ki, həmin ərazilərdə enerji istehsalı üçün nəhəng potensial var. Xüsusilə də bərpaolunan enerji mənbələrindən - sudan, günəşdən və küləkdən istifadə etmək üçün geniş imkanlar mövcuddur. Dövlət başçısı həmçinin bildirib ki, azad olunmuş ərazilərdə İtaliyanın kənd təsərrüfatının inkişafı təcrübəsindən də faydalanmaq niyyətindəyik. Axı həmin ərazilər münbit torpağa malikdir və orada maksimum məhsuldarlıq əldə etmək olar.

Məlumdur ki, İtaliya dünya mədəniyyətinin mərkəzlərindən biridir. Qarabağda erməni vandallarının dağıdıb yerlə-yeksan etdiyi dini və tarixi abidələrimizin bərpası planlarını nəzərə alsaq, bu sahədə də İtaliya şirkətləri ilə geniş və çoxşaxəli əməkdaşlığa imkanlar olacaq.

Qeyd edək ki, hazırda Qarabağda öz təşkilat və müəssisələrimizlə yanaşı, Türkiyə, İtaliya və Böyük Britaniya şirkətləri də fəaliyyətə başlayıblar.

Təsadüfi deyil ki, ADA Universitetində keçirilən beynəlxalq konfransda Prezident İlham Əliyev İtaliyanın bizim yaxın dostumuz və tərəfdaşımız olduğunu bir daha vurğulayıb. Qarşı tərəfin də bu dostluq və tərəfdaşlığı yüksək dəyərləndirməsi olduqca təqdirəlayiq haldır. Son günlər İtaliyanın "İl Giornale", "Faro di Roma", "Agenzia Nova" və "MSN Notizie" mətbuat orqanlarının Azərbaycan Prezidentinin sözügedən konfransda söylədiyi fikirlər barədə geniş yazılar dərc etməsi qarşılıqlı hörmət, etimad, etibar və rəğbətin aydın təzahürüdür.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür

# Erməni miflərinin dağıldığı, həqiqət və ədalətin zəfər çaldığı tarixi dövr

Azərbaycan xalqı tarixi dövrünü yaşayır. Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandanın rəhbərliyi altında müzəffər Ordumuz Ermənistan qoşunları tərəfindən işğal edilmiş və faktiki olaraq Azərbaycan dövlətinin nəzarətindən kənarda qalan Qarabağ torpaqlarını azad etdi. İşğalçılar müasir silahın gücü, Azərbaycanın əsgər və zabitlərinin qəhrəmanlığı və cəsarəti, vətənpərvərliyi və motivasiyası qarşısında geri çəkildilər. Canlı qüvvəsi və texnikası tamamilə məhvolma təhlükəsi qarşısında qalan işğalçılar təslim olmağa və bu barədə kapitulyasiya bəyanatı imzalamağa məcbur oldular ki, həmin sənədə əsasən hərbi yolla götürülməyən işğal altındakı digər bölgələr də Azərbaycana qaytarıldı.

Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciətində dediyi kimi, "biz hal-hazırda xüsusi şanlı tariximizi yaşayırıq... biz tarixi ədaləti bərpa edirik...". Monoetnik dövlət quran işğalçı Ermənistanın əsgərləri torpaqlarımızdan qovulub və bununla da çoxsaylı köhnə və yeni hay-erməni mifləri dağılır, hətta yaratdıqları monoetnik dövlət quruculuğu belə onlara yardımçı ola bilmir.

Ermənilərin məkrli planlarının mahiyyəti onda idi ki, monoetnik mühitdə, yalnız hay-erməni əhli məkanında uydurma faktlara əsaslanaraq və digər xalqların siyasi tarixini və coğrafiyasını təhrif etməklə, hay-erməni millətinin sözdə rolunu şişirdərək, hay-erməni "müstəsnalığını", hayların "xüsusi missiyasını", "ilk bəşəriyyət ocağını", "böyük Ermənistanı" və s. mifologemləri əhali arasında yaymaq daha asan və əlverişli idi. Bu sırada "Dağlıq Qarabağın təhrif edilmiş tarixini" və son 30 ilə yaxın müddətdə beyinlərə yeridilən "yenilməz erməni ordusu" mifini xüsusi qeyd etməliyik.

Gözümüzün önündə rəşadətli ordumuz 44 gündə erməni ordusunun yenilməzliyi haqqında mifi şam kimi əritdi. Bu mifin arxasında duran işğal edilmiş torpaqlarımızın müdafiəsində hay-ermənilərin "inanılmaz", hətta "ekzistensional" motivasiyası və döyüş qabiliyyəti, üstəlik erməni müdafiəsinin dağlardakı büsbütün mina sahələri və möhkəm beton istehkamları kimi dəlilləri puç edildi. Belə də olmalıdır, çünki bizim işimiz haqq işidir, tarixi ədalətin bərpasıdır. Erməni düşüncəsindəki mümkünsüz olanı Azərbaycan dövləti bacardı və bununla dünya tarixi dərsliklərinə şanlı bir səhifə kimi düşəcək parlaq nümunə yaratdı.

Həqiqətən, yaşadığımız tarixi mərhələ miflərin dağıldığı, həqiqətin və ədalətin zəfər çaldığı dövrdür!

Qeyd edilməlidir ki, məkrli planlara görə, erməni dövlətində yeganə millət olaraq qalan və yaşayan etnosun şüuru millətçilik dumanına bürünərək, daha uğurla kök atmalı və bəhrələr gətirməli idi. Çünki saxta mifologemlərlə razılaşmayanların etiraz səsi çıxmır, digər etnosların irad edə biləcək fikirləri səslənmir, heç bir etiraz dalğası formalaşmır. Nəticədə siyasi mifologiya zəfər çalır, hay-erməni dünya etnik mənzərəsini müəyyən edir, erməni etnosunun zahiri reallıqları dərk etməsini və davranış mexanizmlərini formalaşdırır. Süni surətdə "müstəsnalıq" və "əzabkeşlik" haqqında miflər, digər xalqlara münasibətdə ambisiyalar və iddialar xalqın şüuruna yeridilərək, təbii adilik alternativinin qarşısına sipər çəkir, "xüsusi missiya" mifi isə beynəlxalq hüququ, yəni müasir dünya quruculuğunun təməl daşı olduğunu rədd edir. Bu növ mifologemləri dəstəkləyən, onlara yol açan hakimiyyət və ziyalı elita nəticədə özü də həmin uydurmaların qurbanına və dustağına çevrilir. Məsələ də bundadır ki, şüurlu şəkildə işlənilən ideologiya şüursuz yaranan və əhalidə kök salan dünya mənzərəsini əvəzləməkdə çətinlik çəkir. Nəticədə hamı siyasi folklorun qəfəsinə düşür.

Lakin siyasi folklor, uydurulmuş dünya mənzərəsi yalnız daxili istehlaka yönələrək işləsə də, kağızdakı uydurma nəzəri tezislərə, həqiqətdən uzaq, feyk növlü saxtalaşdırmalara, çoxlu sayda yalançı kitab və çıxışlara əsaslanaraq qurulsa da, real həyatla qarşılaşdığı halda acı nəticələrə gətirib çıxarır. Miflər dağılır, həqiqət üzə çıxır.

Bugünkü möhtəşəm tarixi zəfərimizin nəticəsi uydurmaların dağıdılmasıdır. Bunun bariz nümunəsi Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan əsgərləri və zabitləri tərəfindən "yenilməz erməni ordusu" mifinin puç edilməsidir. Bu miflə yanaşı, "erməni motivasiyası", yeni torpaqların qorunmasında müstəsna cəsarət göstərilməsi mifi də dağıldı. Və nəhayət, "əzabkeşliyə hazır olan, özünü fəda və qurban edən xalqın" mifi də puç oldu, çünki 10 mindən artıq fərarisi olan millət işğal olunmuş torpaqları qorumağa qadir deyildi.

Bu miflərin dağılması və dediklərimizin təsdiqi yalnız yenilməz sərkərdə, Ali Baş Komandan kimi deyil, ümumiyyətlə, Azərbaycanın lideri Prezident İlham Əliyevin məğlub olan ölkənin rəhbərləri ilə müqayisədə intellektual üstünlüyü, cəsurluğu və qətiyyətliliyi, xalqın əsl rəhbəri olmasındadır.

Təsadüfi deyil ki, görkəmli filosof-maarifçi J.J.Russonun dediyi kimi, "bacarıqsız əllərdə olan hakimiyyətdən təhlükəli şey yoxdur". Çünki belə hakimiyyət təcəssüm etdiyi ideyaya yox, yalnız öz maraqlarına qulluq etməklə, faydasız və dayanıqsız olur. Çünki həyatın göstərdiyi kimi, bu növ rəhbərlərin səhvlərinin acı nəticələrini millət çəkir və millət ödəməli olur. Tarix və gerçəkliyin göstərdiyi kimi, rəhbərin xüsusi məsuliyyət daşıyıcısı olması dövlətin taleyinin onun çiynində olmasından irəli gəlir. Çünki dövlət başçısı ölkəni irəli aparmaq üçün hər zaman düzgün qərar verməklə ölkəni idarə etməlidir və bu qabiliyyət isə seçmək qabiliyyətidir, gələcəyi görmək qabiliyyətidir. Bu qabiliyyət siyasət və hüququn kəsişməsindən irəli gəlir. Dövlət başçısı bizə qalib xalq düşüncələrini bəxş etdi, başucalığı gətirdi və xoşbəxt etdi.

Bunları paşinyanlar unutmamalıdırlar.

Nəhayət, qazanılmış zəfər Azərbaycan xalqının son hərbi hadisələrdə erməni milləti ilə toqquşmalarda bütövlüyünün, püxtələşməsinin, vətənpərvərliyinin və ruhən gücünün nümayişidir. Ölkəmizdə mövcud olan tolerant, multikultural mühitin Ermənistandakı millətçi əhvali-ruhiyyə ilə müqayisədə hədsiz üstünlüyünün nümayişidir.

Bu gün bölgədə yeni ictimai-siyasi vəziyyət yaranmış və Azərbaycan öz qüvvəsini barbar-işğalçıların bizə viran qoyub getdiyi əraziləri bərpa etməyə yönləndirmişdir. Biz faktiki olaraq bu ərazilərdə xalqımızın məhv edilmiş maddi mədəniyyət irsi, dağıdılmış, yaxud tamamilə Yer üzündən silinmiş müsəlman və türk mədəniyyətinin abidələri ilə qarşılaşırıq. Azad edilmiş torpaqlarda sakinləri azərbaycanlıların əcdadlarından biri olan və torpaqlarının hüquqi varisinin Azərbaycan dövləti olduğu Qafqaz Albaniyası irsinə aid edilən çoxlu abidə və xristian mədəniyyəti nümunələri - kilsələr, monastırlar və s. vardır.

Azərbaycan dövləti bütün zamanlarda öz müsəlman mədəniyyətinə və islama qədər olan, o cümlədən xristian keçmişinə aid mədəni irsinə Azərbaycan xalqının irsi kimi diqqət və hörmətlə yanaşmış, onu qorumuşdur. Və bu baxımdan torpaqlarımızdakı xristian abidələrinin guya dağıdılması barədə bəzi dairələrin riyakarcasına fəryad qoparmaları təəccüb doğurmaya bilməz. Üstəlik də hələ Sovet dövründən bəri, xüsusən də işğal dövründə xristian keçmişin əksər nümunələrinə erməniləşdirmə məqsədi ilə erməni saxtakarları tərəfindən yenidən "əl gəzdirilmiş" və onlar manipulyasiyaya məruz qalmışdır.

Alban xristian abidələrinə gəldikdə isə tarixi həqiqət azərbaycanlıların keçmiş abidələrini qorumaq istəməməsində deyil, əksinə, bu abidələrin ermənilər tərəfindən planlı şəkildə təhrif olunmasında, üzərindəki köhnə yazıların məhv edilməsi və abidələrin erməni mənsubiyyətinin "sübutlarına" çevrilməli olan yeni yazıların həkk edilməsindədir.

Çünki erməni alimləri və siyasətçiləri həmişə kimi alban ərazilərini özününküləşdirirlər, saxta erməniçilik "mənbələri" əsasında dünyaya yalan yayırlar.

Bunların iddialarına erməni müəllifi F.Ekozyantsın yazdıqları ilə cavab vermək yerinə düşərdi (Ф.П.Экозьянц. "Исраэль Ори. Ларец Пандоры". Книга 1). Kitabda müəllifin qeyd etdiyi kimi, "bir mistifikasiya tarixi haqqında" söhbət gedir və bu cəfəngiyyat avantürist İ.Ori başda olmaqla, erməni tədqiqatçıları tərəfindən Səfəvi və ondan sonrakı dövlətlərin müstəmləkəçilik və hökmranlığına qarşı aparılan milli azadlıq hərəkatı kimi təqdim edilir. Mistifikasiyanın mahiyyəti isə ondan ibarətdir ki, burada söhbət erməni xalqının azadlıq hərəkatından deyil, Qarabağ məliklərini öz planlarına cəlb etməkdən (İ.Ori məlik oğludur) gedir, eyni zamanda azadlıq hərəkatından danışıq ola bilməz, çünki "milli qəhrəmana" çevrilən İ.Ori öz məqsədləri naminə çalışan bir şəxsdir.

Həmin uydurmanın, Ekozyantsın yazdığı kimi, digər saxtakarlıqlar sırasında öz yeri vardır. Erməni müəllifindən sitat gətirək: "XVIII əsrin əvvəlinə qədər erməni xalqının yazılı tarixi heç də zənginliyə malik deyildi və Armeniya və ermənilər haqqında nadir qeydlərdən ibarət idi. Və bu, əsasən Armeniya və onların sakinlərindən uzaq olan Avropa müəlliflərinin yazdıqları idi. Lakin XVIII əsr birdən-birə tarixi "kəşflər" partlayışına çevrildi və "xəyali dünyadan" öncə heç kimə məlum olmayan çoxlu erməni çarlıqları canlandırıldı və bunlar üzündən köçürənlər ordusunun fəaliyyətinin nəticəsinə çevrilərək, hətta onların qələmləri ilə Nuh gəmisinin ətrafına, bəşər sivilizasiyasının mifik beşiyinə çatdırıldı".

Ekozyants xüsusi qeyd edirdi ki, "bütün bu "mənbələr"in əmələ gəlməsi, daha doğrusu, ecazkar vasitə ilə "aşkarlanması" XVIII əsrdən XX əsrə qədərki dövrdə peyda olur, halbuki heç XVIII əsrə qədər bunlar haqqında heç kəsin məlumat və biliyi olmamışdır...".

Bəs erməni tarixini ilkin "zənginləşdirənlər" kimlərdir və hansı zamandan başlayaraq, çoxlu mifologemlərlə dolmuş erməni tarixinin saxtakarlıq epoxası start götürüb?

Ekozyantsın cavabı bəllidir: "İsrael Orinin 1711-ci ildə ölümündən sonrakı növbəti 1712-ci ildə Venesiya yaxınlığında, Müqəddəs Lazar adasında mxitaristlər ordeni fəaliyyətinə başlamış və 100 il keçməmiş yalnız onların "çalışmaları" nəticəsində Armeniyanın və erməni xalqının tarixi on minlərlə "qədim" əlyazmalarla "varlandı", "təkmilləşdi" və "elmə çevrilməyə" hazır olduğunu nümayiş etdirdi". Deməli, ilkin addımda 12 qaçqın rahibdən ibarət olan bu toplum qısa müddətdə mətbəə və kitabxana ilə zənginləşərək, tam hüquqlu monastır kompleksinə çevrildi. Özləri ilə gətirdikləri ilkin bir neçə kitab və əlyazmalar əsasında bir neçə rahib 1857-ci ildə artıq minlərlə "qədim əlyazmalara" çevrilən, Ekozyantsın istehza ilə qeyd etdiyi kimi, "biliklərdə ecazkar yolla bütün antik və orta əsr alimlərini üstələdi".

Saxta əlyazmalarda mövcud olan uydurma və saxtalaşmalar erməniçilik və onların havadarları tərəfindən istifadə edilməyə başladı və ilkin yalan yayanlar sırasında tanınmış erməni publisisti və tərcüməçisi Q.Ezov idi, "hansı ki, Avropa və Rusiya arxivlərindən əksəriyyəti ondan əvvəl heç kim tərəfindən dərc edilməmiş, naməlum bir sıra "yeni" sənəd əldə edərək, özünün "Сношенийе Петра Великого с армянским народом" (Spb., 1898-ci il) kitabında avantürist İ.Orini müsəlmanlara qarşı çıxan erməni xalqının cəsur milli qəhrəmanına çevirmiş oldu".

Beləliklə, saxtakarlıqla dolu olan "erməni xalqının tarixi" ilkin, özü də ciddi redaktə və təftiş olunan bir neçə orijinal mətnlər istisna olmaqla, dünyaya məlum olmayan minlərlə saxta "tarixi əsərlər"ə çevrilərək yayılmağa başladı. Onu da xüsusi qeyd etməliyik ki, bu saxta əsərlərin orijinalları erməni dilində yox idi və ola da bilməzdi.

Bu yerdə biz Ekozyantsın maraq doğuran və həqiqətə uyğunlaşan fikirlərini qoyub, digər erməni mənşəli alimin yaradıcılığına istinad edəcəyik. Söhbət ən tanınmış Amerika ermənişünası, Miçiqan və Çikaqo universitetlərinin professoru Ronald Qriqor Syunidən gedir (Ronald Grigor Suny, "Looking Toward Ararat. Armenia in Modern History", Indian University Press, 1993). "Ararata baxış. Armeniya yeni tarixdə" adlanan əsərində mxitaristlərdən söhbət açaraq, alim klerikal elitanın erməni tarixinin formalaşdırılmasında xüsusi rolunu qeyd edir. O göstərib ki, (sitat) "mxitarist rahiblərin fəaliyyəti əslində erməni millətçiliyinin bünövrəsinin, əsasının yaranmasına səbəb olmuşdur..." və "sonrakı milli ənənənin inkişafında kilsəyə xidmət edənlərin yazılarına yeni aspektlər cəlb edilmişdi və yazarlar mətnlərdə olan mövzulara dönə-dönə qayıdaraq, bunların ətrafında əsərlər yaratmışdılar".



Söhbət hansı mövzulardan gedir?

Bu suala cavabı Syuni digər tanınmış Amerika alimi Robert Tompsona istinad edərək belə formalaşdırır: "...Armeniya kiçik ölkə olsa da, çox qədimdir və burada çoxlu tarixi işlər görülüb (M.Xorenli), bu xalqa xristianlıq digərlərindən öncə qəbul etdirilib və bu da tanrı hökmüdür (Aqafangel), bu xalq dininə, soy ənənələrinə sadiqdir və əzabkeşliyə özünü qurban verməyə hazırdır (Elişe)". Bu üç millətçi fikir qeyd etdiyimiz erməni uydurma tezislərindəndir.

Söylədiklərimin sonunda erməni tarixşünaslarının qərb tarixçilərinin ünvanına Ermənistan tarixinin saxtalaşdırılması ilə bağlı ittihamlarında və aldıqları cavablarda dayanmaq istəyirəm.

Erməni tarixşünası Armen Ayvazyan öz "Освещение истории Армении в Американской историографии (Критический обзор)" adlı əsərində bir sıra tanınmış qərb armenistlərini və qafqazşünasları, o cümlədən milliyyətcə erməni olanları, professorlar Ronald Qriqor Syuni, Robert Tompson, Ceyms Rassel, Riçard Ovanisyan və digərlərini Ermənistan tarixini düşünülmüş saxtakarlıqda ittiham edir. Əsas arqumenti isə "Erməni yaylasının erməni xalqının formalaşma mənbəyinin olmaması barədə müasir tarixi, elm tərəfindən əsaslandırılmış müddəanı şübhə altına almaq və əvəzində elm tərəfindən rədd edilmiş ermənilərin gəlmələr olması versiyasının təkidlə reanimasiyasıdır". Özü də Azərbaycan və Türkiyə alimlərinin təqdimatları əsasında. Qeyd olunur ki, "erməni mədəniyyəti həmin qərb alimlərinin əsərlərində yalnız İran, Bizans, Assiriya, ərəb və digər mədəniyyətlərdən götürmələr ardıcıllığı şəklində göstərilir. Tarixi Armeniya qeyri-mərkəzləşmiş, zəif ölkə qismində təqdim edilir, İran və Roma imperiyalarının əlindəki oyuncağa çevrilir". Bununla da 5 min illik erməni tarixi alçaldılır, "halbuki, Hayasa, Urartu və Ervanduni çarlıqları zamanında erməni ordusunun sayı bir neçə on minlərlə olmuş, Artaşesid, Arşakuni və Baqratuni (söhbət Pers mənşəli şəxslərdən gedir) dövrlərində isə 100 mindən 200 minə qədər döyüşçü sayı ilə ölçülmüşdür".

Bu müəlliflərin mövqeyi akademiklər Qraçik Simonyan, Manvel Zulalyan və digərləri tərəfindən dəstəklənmişdir. Buna cavab olaraq, 4-6 oktyabr 2003-cü ildə "Erməni tədqiqatlarının yenidən dərk edilməsi: keçmişi, bu günü və gələcəyi" adlı Harvard, Kembric, Massaçusets universitetlərindəki konfranslarda əksəriyyəti milliyyətcə qərbdən olan alimlər hay-erməni şovinist və millətçi elminə tutarlı cavablar söyləmişlər. Belə ki, professorlar Bardakçiyan, Rassel, Robert Xyuseni qeyd etmişlər ki, Ermənistan Respublikasının ermənişünaslığında "ksenofobiya, ultramillətçiliklə səciyyələnən "elm" hakim meyilə çevrilərək, özünü məhv etməyə yönəldib".

Professor Corc Burntyan isə qeyd etmişdi ki, "Qərb alimlərinə qarşı ittihamların kökündə "erməni-Amerika" alimləri Qarabağa, Kilikiyaya, Naxçıvana, Gəncəyə və Türkiyə Armeniyasına olan erməni iddialarına xələl gətirməklə, mədəni cəhətdən incə olan günləri sual altına qoymuşdur, o cümlədən Armeniya tərəfindən xristianlığı qəbuletmə tarixini". Robert Qriqor Syuninin fikrinə görə, "Erməni alimləri millətçilik təfəkkürü bataqlığındadırlar".

Bunların səbəbləri görkəmli alimin qeyd etdiyi kimi, "ermənilərin qabarıq şəkildə mövcud olan millətçiliyi köklərinin olmaması və tarixi biliklərin uydurmalarla əvəz edilməsindən irəli gəlir". "...Bu xalq öz tarixi keçmişi və irsi ilə adətən qürur duyduğu halda heç bir təsəvvürə malik deyildir".

Deyilənlərə nə isə əlavə etmək çətindir və bəlkə də ehtiyac duyulmur. Lakin bir fikri çatdırmaq istəyirik, hansı ki, "Regnum" İA-nın məlumatında vaxtilə dərc edilmişdir və həmin informasiya mənbəyində "istorioqrafiyadakı [erməni] elmi fikir intellektual təcavüzə məruz qalır və ABŞ-ın Dövlət Departamenti tərəfindən maliyyələşdirilərək, öz əksini erməni tarixinin qədim vaxtlardan başlayaraq, təhrif edilməsinə gətirib çıxarır". Bu məlumat qısaca olaraq, bir sıra erməni tarixşünaslarının Yerevanda keçirilən ermənişünasların beynəlxalq konqresində birgə elan edilmiş bəyanatından irəli gəlir.

Deməli, obyektiv mövqedə duran tanınmış Qərb alimlərinin yanaşması, o cümlədən erməni mənşəli olanlar millətçilik bataqlığında olan milli ermənişünaslıq elminə təsir göstərməyə qadir olmamışdır. Odur ki, həmin millətçilik bataqlığından bəhrələnən Paşinyanın təqdim etdiyi "Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası" Azərbaycan Respublikasının Prezidentinin köməkçisi Hikmət Hacıyevin tamamilə doğru olaraq qeyd etdiyi kimi, "sanki saxta tarix dərsliyidir" və bu növbəti uydurmalarla dolu sənəd erməni millətçiliyinin dəyirmanına su tökür, geniş ictimaiyyətə çatdırılır.

Albanları hay-erməni elan edən, albanların tarixi ərazisini özününküləşdirən, maddi və qeyri-maddi mədəni irsini erməniləşdirən, üstəlik erməni və Qərb alimlərinin səsini eşitməyən erməni alimləri və siyasətçiləri yaxşı olardı ki, uydurma və miflər əvəzinə bizim yerlimiz, məşhur Pavel Florenskinin yazdıqlarına diqqət yetirəydilər.

Azərbaycanın Yevlax şəhərinin sakini, anası Olqa (Solomiya) Saparova tərəfindən alban olan Pavel Florenskinin Albaniya haqqında çox dəyərli fikirlərinə istinad edək. Pavel Florenski, öz nəsil şəcərəsini tədqiq etmiş görkəmli ilahiyyatçı, keşiş və riyaziyyatçı idi və onun tədqiqatının nəticələri öz əksini "Mənim uşaqlarıma. Keçmiş günlərin xatirələri"ndə tapmışdır (M., "Moskva fəhləsi", 1992-ci il) ["Детям моим. Воспоминания прошлых дней". M., "Моск. раб.", 1992 г.].

Florenskidən gətirəcəyimiz sətirlər 1916-1925-ci illərə aiddir. Arayış üçün qeyd edək ki, P.Florenskinin atası Zaqafqaziya dəmir yolunun mühəndis-inşaatçısı olan Aleksandr Florenski pravoslav rus olmuşdur. Anası 1859-cu il təvəllüdlü O.Saparova tanınmış Qarabağ məliklərinin nəslindən idi (Alban kilsəsinin hiyləgərliklə mənimsənilməsi və onun erməni kilsəsinə birləşdirilməsindən sonrakı dövr).

P.Florenski öz alban soyunu "...müxtəlif və etnik cəhətdən pis qarışan Armeniya sakinlərinin bir neçə tayfası sırasına" aid edir, ermənilərin özləri bu tayfa budağını "albana" adlandırmışlar. Bu, Aralıq dənizi irqi adlandırılan Aralıq dənizi hövzəsinin ən qədim sakinlərinin bir qoludur. Etnik bir altlıq olaraq bu irqin tarixi Homer Yunanıstanına qədər uzanır. Onun qalıqları daha təmiz şəkildə Midiya və Friqiyalıların ən qədim tayfalarını vermişlər. Şimal-şərqin dərinliklərinə qədər gedib çıxmış bu nəsil ətrafdakı Ararat əhalisi ilə qismən qarışdılar və bir hissəsi isə burada etnik qrup sağ qaldılar".

Başqa bir yerdə o, fikrini birbaşa bildirir: "Anam tərəfdən məndə xetteylərin qanı axır". Qeyd etmək lazımdır ki, bu nəticə M.Kalankatukskinin albanların mənşəyi ("Albanların tarixi") barədə fikirləri və xetlərin/xatların Kipr və Qafqaza miqrasiyası haqqında məşhur tarixi dəlillərə tamamilə uyğun gəlir.

Alban salnaməçisi M.Kalankatukski qeyd etmişdir: "Onlardan, kittiylərdən - Yafətin oğullarından ayrılaraq kiprlilər bütpərəst adalara getdilər, şimal ölkələrində yaşayanlar isə kittiylərin həmtayfalarındandır, bunlardan Aluanlar törəmişlər" (M.Kalankatukski, I kitab, 2-ci fəsil) (Kittim (Xirokitiya) Kiprin qədim adıdır və onun qədim tarixinə görə eramızdan əvvəl IV minillikdə Xatilər tərəfindən istila edilmişdir).

P.Florenski daha sonrakı qeydlərində başlıca nəticəsini çıxarır: "Qarabağ erməniləri əslində ermənilər deyil, xüsusi bir tayfadır... Qədim dövrlərdə onları alban adlandırırdılar, ermənilər isə onlara axavan deyirdilər" (kursiv bizimdir). "Onlar əvvəlcə Göyçə gölü yaxınlığında yaşayırdılar. Cənubdan sıxışdırılaraq, əfsanəvi əcdadları Bəylərin soyadını daşıyan knyazları ilə birlikdə Qarabağa köçdülər".

Qeyd edək ki, Saparovlar ailəsi də Gürcüstanda məskunlaşan Bəylərovlardan törəmişlər. Florenski öz "Xatirələr"ində bunu vurğulayaraq yazır ki, Bəylər - Bəylərovların törəmələrindən müasir Gürcüstanda məskunlaşan və Qarabağa qayıtmayan bir neçə nəsil, o cümlədən Saparovlar nəsli çıxmışdır ki, onlar "son dərəcə mədəni və çox zəngin olmuşlar".

Daha sonra hələ 1915-ci ildə yazmağa başladığı "Anam haqqında qeydlər"də göstərir: "Məlik-Bəylərovların əsas şəcərəsi IX əsr Talış İncilinin ilk vərəqlərində qeyd edilmişdir. İncil Məlik-Bəylərovların nəsil kilsəsində, onların malikanəsinin xarabalıqlarının hələ də qaldığı Xorek dağında saxlanılırdı...", onlar kəndlilər tərəfindən oğurlanmışdı, "Erməni katolikosunun sərt əmrləri və hətta kilsədən qovulma təhlükəsi bunları [kəndli] kilsəyə qayıtarmağa məcbur edəcək qədər güclü deyildi...". Məlik-Bəylərovların tarixinə dair daha bir qeyd Bolnisi kəndinin kilsəsində qorunan Bolnisi İncilində vardır".

Və nəhayət, "P.Q.Saparovun tərcümeyi-halına dair qeydlər"də (təxminən 1923-cü il): "Ailənin tarixi yerli bölgənin müqəddəs Şulaver əlyazması İncilində qeyd edilmişdir. Bu İncil Pavel Gerasimoviç Saparov tərəfindən yenidən bağlanılmışdır..." [Florenskinin babası, anasının atası].

P.Florenskinin yuxarıda göstərilən sitatları eyni alban məliklərindən törəyən zadəgan alban ailəsi Saparovların yaşayış coğrafiyasını anlamaq baxımından çox vacibdir.

Birincisi, Göyçə gölü bölgəsindən köçürüldükdən sonra P.Florenskinin əcdadlarının Qarabağda yaşadığını görürük. Qarabağ isə mənbələrdən məlum olduğu kimi, Qafqaz Albaniyasının ərazisidir. IX əsrdə yazılmış nəsil şəcərəsi Talış Evangeliyasında (İncilində) hazırlanmışdır. Bəlli olduğu kimi, Talış Azərbaycanın Tərtər rayonunun yaşayış (kənd) məntəqəsidir (1921-1991-ci illərdə Mardakert rayonu). Bəylərov məliklərinin iqamətgahı 1716-1750-ci illərdə məhz burada yerləşmişdir və P.Florenskinin anası tərəfindən nəsli də onlardan törəmişdir. Qeyd edək ki, əvvəllər erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş həmin kənd 3 oktyabr 2020-ci ildə Azərbaycanın nəzarəti altına qaytarılmışdır.

İkincisi, XVI əsrdə P.Florenskinin əcdadları öz kəndliləri ilə birlikdə Gürcüstanın Kvemo-Kartli bölgəsindəki Marneuli ilə həmsərhəd olan (bütövlükdə Borçalı adlanan) Tiflis quberniyasının hazırda azərbaycanlıların yaşadığı Bolnisi yaşayış məskəninə köçdülər. P.Florenski həmçinin Şulaverdəki nəsil tarixinin yazıldığı İncili də qeyd edir. Şulaver tarixi addır və Gürcüstanın Kvemo-Kartli bölgəsinin (Borçalı) Marneuli rayonunda yerləşir.

Göstərilənlərdən belə nəticə çıxır ki, P.Florenskinin "Xatirələr"ində qeyd olunan coğrafi ərazi Qarabağ və Borçalını (indi Azərbaycan, Gürcüstan və Ermənistan sərhədindədir) əhatə edir.

Bunlar vaxtilə Qafqaz Albaniyasının tarixi torpaqları olmuşdur.

Növbəti erməni miflərini yaradanlar düşünməlidirlər, kimə inanmalı - onların müəllifi olduğu Albaniya və albanlarla bağlı uydurmalarına, yoxsa ana tərəfdən alban olan tanınmış rus alimi və ilahiyyatçısı Pavel Florenskinin yazdıqlarına.

***Kamran İMANOV,***
***Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri***

## Azərbaycanda ictimai yerlərdə su sızmaları ilə bağlı mobil tətbiq yaradılıb

Aprelin 22-də ictimai yerlərdə su sızıntıları barədə xəbər verilməsi üzrə mobil proqram təminatı olan Hydro Heroes (Hidro Qəhrəmanlar) tətbiqinin Ekologiya və Təbii Sərvətlər Nazirliyində təqdimatı keçirilib.

IDEA İctimai Birliyi və BMTİP-QEF Kür II layihəsi tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyi və "Azərsu" ASC ilə tərəfdaşlıq çərçivəsində hazırlanmış mobil tətbiqin ictimaiyyətə təqdimatı bütün dünyada qeyd edilən Yer Gününə təsadüf edib.

AZƏRTAC xəbər verir ki, Hydro Heroes mobil tətbiqi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və "AzInTelecom" MMC-nin dəstəyi ilə hazırlanıb.

Tədbirdə çıxış edən IDEA İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov xatırladıb ki, ictimaiyyətin su itkisinə qarşı fəaliyyətə cəlb edilməsinə yönəlmiş mobil tətbiqin yaradılması təşəbbüsü Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyeva tərəfindən 2018-ci ildə 5 İyun - Ümumdünya Ətraf Mühit Günündə keçirilən Gənclər Forumu zamanı irəli sürülüb: "Daha sonra IDEA ilə BMTİP-QEF Kür II layihəsi bu cür mobil tətbiqin birgə yaradılması qərarına gəlib. Əksər ölkələrdə su təchizatı sistemlərində olan itkilər 20-70 faiz arasındadır. Yəni supaylama şəbəkələrində yaranan qəza və nasazlıqlar səbəbindən küçələrə və ictimai yerlərə sızan təmizlənmiş, içməli suyun böyük hissəsi istifadəçilərə çatmamış itirilir. Bu isə suyun təmizlənməsinə sərf olunmuş vəsaitin itirilməsi və ictimai infrastruktura zərər vurulması ilə yanaşı, qlobal istiləşmə və dünya əhalisinin artması səbəbindən getdikcə məhdudlaşan şirin su resurslarının daha da azalması deməkdir".

BMTİP-QEF Kür II layihəsinin kommunikasiya üzrə regional meneceri Sona Quliyeva bildirib ki, suyun qənaətinə yönəlmiş Hydro Heroes tətbiqi Azərbaycan vətəndaşlarına geolokasiyadan istifadə edərək mobil telefonlarından su sızıntısı haqqında məlumatı və görüntüləri birbaşa aidiyyəti quruma göndərmək, problemin həlli ilə bağlı cavab əldə etmək imkanı verir: "Sözügedən tətbiq su şəbəkəsində sızmaların aradan qaldırılma müddətini və su itkisini əhəmiyyətli dərəcədə azaltmağa kömək edəcək.

Eyni zamanda tətbiqə su və suya qənaət ilə bağlı əyləncəli və maarifləndirici xüsusiyyətlər, o cümlədən su ilə bağlı test və oyun, Kür hövzəsinin Azərbaycandakı bir sıra sularının 360 dərəcəlik videoları, AR (Augmented Reality) funksiyası, su sərfiyyatı kalkulyatoru və s. daxildir. Tətbiq həm Android, həm də IOS platformalarında işləyəcək".

Öz növbəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Su ehtiyatlarının idarə edilməsi şöbəsinin müdiri Mütəllim Əbdülhəsənov bildirib ki, ötən il ölkədə bir az quraqlıq dövrü olub: "Bununla bağlı ötən il su idarəetməsi ilə bağlı fasilələr yaranmışdı. Bu il vəziyyət daha yaxşıdır. Bu il ötən illə müqayisədə Mingəçevir Su Anbarına kifayət qədər su yığılıb. Ölkəyə tranzit yollarla daxil olan sular da bizə imkan verə biləcək ki, daha çox su ehtiyatı yığa bilək. Hazırda gursululuq dövrüdür. Kürə də kifayət qədər su yığılıb".

Layihənin tərəfdaşları smartfon istifadəçisi olan bütün vətəndaşlarımızı Hydro Heroes tətbiqini yükləməyə, su itkilərinin aradan qaldırılması səylərinə öz vacib töhfələrini verməyə çağırır.

# 25 Aprel Azərbaycanda Sahibkarlar Günüdür

**Azərbaycan Respublikasının hazırkı dayanıqlı inkişafının və hərtərəfli tərəqqisinin əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş, gələcək inkişaf üçün möhkəm təməl yaradılmışdır. Ümummilli Lider tərəfindən həyata keçirilən sistemli tədbirlər nəticəsində ölkəmizdə siyasi və makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadi inkişafın lokomotivi olan sahibkarlar sinfinin formalaşması üçün real hüquqi baza yaradılmış, dövlət tərəfindən özəl sektora hərtərəfli dəstək göstərilməsi tədbirlərinin həyata keçirilməsinə başlanmışdı.**



## İqtisadi islahatlar sahibkarlığın sürətli inkişafına zəmin yaradıb

"Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur" deyən Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu vurğulayırdı.

Ümummilli Liderin sahibkarlarla keçirilən görüşləri, üzləşdikləri problemlərin nədən ibarət olduğunu bilavasitə onların öz dilindən eşitməsi və bunların qısa müddət ərzində həlli üçün konkret tapşırıqlar, fərman və sərəncamlar verməsi özəl sektorun təmsilçilərinə yüksək diqqətin təzahürü idi.

Belə görüşlərə nümunə kimi 2002-ci ilin 25 aprel tarixində yerli və may ayında xarici iş adamları ilə keçirilən görüşləri göstərmək olar. Bu görüşlərdə sahibkarlığın inkişafı yolları araşdırılmış, bu inkişafa mane olan əngəllərin aradan qaldırılması üçün konkret tədbirlər müəyyənləşdirilmiş, 2002-2005-ci illər üçün Azərbaycanda Sahibkarlığın inkişafı ilə bağlı Dövlət Proqramı təsdiq olunmuşdur.

Məhz bu görüşlərin Azərbaycan sahibkarlığının inkişafında mühüm tarixi əhəmiyyətini, habelə ölkənin iqtisadiyyatında sahibkarların artan rolunu, məşğulluğun təmin olunmasında sahibkarlığın inkişafının müstəsna əhəmiyyətini nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı 21 aprel 2016-cı il tarixli sərəncama əsasən hər il aprelin 25-i Azərbaycanda "Sahibkarlar günü" kimi təsis edilmişdir.

2003-cü ildən Heydər Əliyev siyasi və iqtisadi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev ötən 18 ildə milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək, ölkənin bütün potensialını intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir.

Bu gün hər bir sahibkar dərk edir ki, qüdrətli və müasir Azərbaycanın qurulması üçün Prezident İlham Əliyevin liderliyi altında bizi hələ bir sıra mühüm vəzifələr gözləyir. Azərbaycan biznes mühitinin əlverişliliyi, sahibkarların rahat işləməsi üçün ən çox islahatlar aparan ölkələrdən biridir.

Bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması üçün inkişaf prosesində orta təbəqənin - iqtisadi inkişafın və sabitliyin təminatçısı sayılan sahibkarlar sinfinin rolu müstəsna əhəmiyyət daşıyır. Bu reallığı nəzərə alan ölkə Prezidenti milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin gücləndirilməsinə çalışır.

Prezident İlham Əliyev çıxışlarında yerli sahibkarlara müraciət edərək bildirmişdir: "Mən çalışacağam ki, sizə maksimum dərəcədə sərbəstlik verilsin. Maksimum dərəcədə imkanlar yaradılsın ki, siz sərbəst, azad, rahat şəkildə öz fəaliyyətinizi davam etdirəsiniz". Sahibkarlığın inkişafına münasibətdə bu cür ardıcıl mövqe ölkəmizin iqtisadi potensialının hərəkətə gətirilməsi baxımından olduqca əhəmiyyətli olmuşdur.

Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş iqtisadi inkişaf strategiyası ölkəmizin inkişafında nəinki müstəsna rol oynayır, hətta bir model olaraq keçid iqtisadiyyatlı ölkələrin iqtisadi inkişafı baxımından nümunəyə çevrilməkdədir.

Məlum olduğu kimi, son bir ildən artıq müddətdə bütün bəşəriyyət görünməz bir düşmənə - koronavirus pandemiyasına qarşı mübarizə aparır. Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və təsirli qabaqlayıcı addımlar atılmış, bu istiqamətdə ölkəmiz qlobal həmrəylik nümayiş etdirərək dünyada öz fəal rolunu oynamışdır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ildə videokonfrans formatında keçirilən Türk Şurasının fövqəladə Zirvə görüşü dövlət başçıları səviyyəsində koronavirus pandemiyasına həsr olunmuş ilk beynəlxalq tədbir kimi tarixə düşmüş və Azərbaycan pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir.

Bu dövrdə İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirilib.

Prezidentin təşəbbüsü ilə təsis edilmiş Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələrin köçürülməsi və işçilərin ixtisar olunmaması ilə bağlı çağırışa sahibkarlar da qoşularaq cəmiyyətdə yüksək həmrəylik nümayiş etdirdilər.

2020-ci il Azərbaycan xalqı üçün çox əlamətdar olmuşdur. Bu gün nəinki milyonlarla azərbaycanlının, eləcə də bütün türk dünyasının görkəmli siyasi xadimi olan İlham Əliyev ötən 200 illik tariximizdə Azərbaycan torpaqlarını işğaldan azad edən ilk fateh dövlət başçısıdır. 44 günlük Vətən müharibəsində Prezident-Ordu-Xalq birliyi nəticəsində torpaqlarımız işğaldan azad olundu və Azərbaycanın ərazi bütövlüyü bərpa edildi.

Əminik ki, birgə səylərimiz nəticəsində tez bir zamanda Qarabağ yenidən dirçəldiləcək, insanların öz doğma yurdlarına dönməsinə nail olunacaqdır. Bu sahədə dövlətlə özəl sektor arasında dialoqun, əməkdaşlığın olması da xüsusi əhəmiyyət daşıyır.

İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, işğaldan azad edilmiş ərazilərimizdə reallaşdırılacaq layihələrin dəstəklənməsi məqsədilə İqtisadiyyat Nazirliyinə 470-ə yaxın müraciət daxil olmuşdur.

Azərbaycan Sahibkarlar Konfederasiyasının Rəyasət Heyətinin qərarı ilə Qarabağda iş qurmaq istəyən sahibkarların təkliflərini toplamaq məqsədilə işçi qrupu yaradılmış və sahibkarların təqdim etdiyi 68 təklif hökumətə təqdim edilmişdir. Bununla bağlı artıq bir çox layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Bunlar "Yeni memarlıq", "Ağıllı şəhər", "Ağıllı kənd", "Yeni iqtisadiyyat" və digər layihələrdir.

Qeyd olunanlar nəzərə alınaraq, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi, Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə ölkə Prezidentinin müvafiq fərmanları ilə "YAŞAT" Fondu və "Qarabağ Dirçəliş Fondu" yaradılmışdır.

Ölkə ictimaiyyətinin böyük rəğbətlə qarşıladığı bu fərmanlardan sonra həmin fondlara ianələrin köçürülməsində Azərbaycan sahibkarları da fəallıq göstərirlər.

Cari il yanvarın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçən müşavirədə dövlət başçısı bildirib ki, son 30 ilin əsas yekunu torpaqlarımızın işğaldan azad olunmasıdır. Azərbaycan 44 gün ərzində tarixi Qələbə qazanaraq öz torpaqlarını azad etdi, düşmənə sarsıdıcı zərbələr endirdi, Ermənistanı məğlub etdi. Ermənistanın 30 il ərzində etdiyi işğalçılıq siyasətinə son qoyuldu və tarixi ədalət bərpa edildi. Azərbaycan yeni ilə digər ölkələrə nisbətən daha az itkilərlə çıxmışdır. Bu dövrdə qeyri-neft sənayemizin 12 faizə yaxın artması real iqtisadiyyatın, qeyri-neft iqtisadiyyatının inkişafı deməkdir. Ölkə rəhbəri müşavirədə bildirdi ki, "kənd təsərrüfatı 2 faiz artıbdır və daha da çox artacaq. Çünki mən göstəriş vermişəm, azad edilmiş torpaqlarda indi payızlıq əkini aparılır".

Prezident İlham Əliyevin yeni iqtisadi konsepsiyasına uyğun olaraq həyata keçirilən siyasət ölkədə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirdi. Dövlət başçısının söylədiyi kimi, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir.

Sərbəst bazar münasibətlərinə, özünütənzimləməyə əsaslanan iqtisadi sistemdə insanların sosial müdafiəsinə və rifahına hesablanmış müxtəlif layihələrin icrası, ən başlıcası, mənəvi-etik dəyərlərin yad təsirlərdən qorunması xüsusilə aktualdır. Elmi-texniki inqilabın məhsulu olan müasir informasiya texnologiyaları müsbət təsirləri ilə yanaşı, insanlar arasında olan mənəvi idealları ifrat maddiləşmənin mənfi təsirlərinə məruz qoyur. Bu təsirləri zərərsizləşdirmək isə yalnız yüksək mənəviyyatlı şəxsiyyətlərin üzərinə düşür.

Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək şərəflə, əzmlə həyata keçirən insanlar arasında Birinci vitse-prezident Mehriban xanım Əliyeva ön sırada dayanır. İnamla deyə bilərik ki, Ulu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Birinci vitse-prezident milli mədəniyyətin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri var.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti olduğu qısa müddətdə Mehriban Əliyeva öz zəngin fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, bütün dünyada yüksək nüfuz, dərin ehtiram qazanmışdır. O, Azərbaycanın inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırılmasının qarşısında duran ən başlıca məqsəd olduğunu bəyan etmişdir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkə iqtisadiyyatının aktual problemlərinə olan həssas münasibəti Azərbaycan sahibkarları tərəfindən də yüksək qiymətləndirilir.

Davamlı olaraq həyata keçirilən kompleks islahatlar, inzibati prosedurların sadələşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması tədbirləri və institusional dəstək mexanizmlərinin tətbiqi sahibkarlığın inkişafını daha da sürətləndirmişdir. Həyata keçirilən genişmiqyaslı dəstək tədbirlərinin nəticəsidir ki, ölkəmizdə sahibkarlıq fəaliyyəti genişlənir, bütün regionları əhatə etməklə yeni istehsal və xidmət sahələri yaradılır, ölkəmizin rəqabətqabiliyyətli məhsul istehsalı imkanları genişlənir, özəl bölmənin ümumi daxili məhsulda və məşğulluqda xüsusi çəkisi artır.

Sahibkarlığın inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlər nəticəsində 2020-ci ildə də nüfuzlu beynəlxalq qurumların reytinqlərində Azərbaycan iqtisadi göstəricilərinə görə ön sıralarda yer almışdır. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdə qərarlaşmışdır.

Dünya Bankı tərəfindən Azərbaycan 10 ən islahatçı ölkə sırasına daxil edilmişdir. Davos Ümumdünya İqtisadi Forumunun hesabatlarında da ölkəmiz bir sıra göstəricilər üzrə ən qabaqcıl yerlərdədir. Bundan əlavə Heritic Fondunun 2020-ci ilin nəticələrinə əsasən elan etdiyi İqtisadi Azadlıq İndeksinə görə Azərbaycan 38-ci pilləyə yüksəlmişdir.

Azərbaycan biznes mühitinin əlverişliliyi, sahibkarların rahat işləməsi üçün ən çox islahatlar aparan ölkələrdən biridir. Postneft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabət qabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökumət sahibkarlar üçün böyük imkanlar yaradıb. Ölkədə qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülür.

Modernləşmə kursunu həyata keçirən Azərbaycan Respublikasında iqtisadi və sosial tərəqqiyə yönəlmiş dövlət siyasəti öz bəhrəsini verməkdədir. Təsadüfi deyil ki, koronavirus pandemiyasının təsirindən yaranmış dərin maliyyə böhranı bir sıra ölkələrdə iqtisadiyyatın tənəzzülə uğramasına və sosial gərginliyin artmasına gətirib çıxardığı bir vaxtda ölkəmiz qlobal böhranın təsirindən maksimum qorunmuş, sosial-iqtisadi inkişaf, vətəndaşlarımızın rifah halının yüksəldilməsi tədbirləri ardıcıl davam etdirilmişdir. Belə ki, keçən dövr ərzində dövlət fondları və digər maliyyə resursları səfərbər edilərək ümumi maliyyə dəstək paketi 3,5 milyard manatdan artıq olmuşdur.

Belə bir çətin şəraitdə Azərbaycan hökuməti ölkə sahibkarları üçün dəstək mexanizmlərini işə salmış, pandemiyadan zərər çəkən iqtisadi fəaliyyət sahələrinə Vergi Məcəlləsində güzəştlər nəzərdə tutulmuşdur. Buna əsasən pandemiyadan zərər çəkən sahibkarlıq subyektləri 2020-ci il üzrə əmlak və torpaq vergisindən azad edilmişlər.

Mikrosahibkarlar xüsusi həssas kateqoriyaya aid olduğu üçün hansı sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq, onlar üçün Vergi Məcəlləsində mövcud olan 2 faizlik sadələşdirilmiş verginin dərəcəsi 1 faizə endirilmişdir.

Sadələşdirilmiş verginin xüsusi növləri olan, məsələn, ictimai iaşə obyektləri üzrə sadələşdirilmiş vergi 8 faizdən 4 faizə, sərnişindaşıma sahəsində fəaliyyət göstərən sahibkar üçün isə nəqliyyat vasitəsində oturacaqların sayına görə müəyyən olunan sadələşdirilmiş verginin dərəcəsi 50 faiz aşağı salınmışdır. Bütün sahibkarlıq subyektlərində fiziki şəxslərdən icarəyə götürülən daşınmaz əmlaka görə mənbədən tutulan 14 faizlik vergi 7 faizə endirilmişdir.

Artıq sahibkarlığın inkişafı regional iqtisadi siyasətin ən mühüm elementlərindən birinə çevrilməkdədir. Belə ki, son illər regionların sosial-iqtisadi problemlərinin həllində özəl sektora üstünlük verilir.

Azərbaycan Respublikasında 2004-cü ildən uğurla icra olunan regionların sosial-iqtisadi inkişafı dövlət proqramları rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına səbəb olur. Bu həm də ölkənin strateji inkişaf hədəflərinə, müəyyən edilmiş məqsədlərə nail olunmasına əhəmiyyətli töhfəsini verir.

Bütün iqtisadi göstəricilər onu deməyə əsas verir ki, Azərbaycan son illər ərzində çox uğurla inkişaf edib. Artan iqtisadi imkanlar dövlətin sosial məsələlərə də böyük diqqət yetirməsinə real imkanlar yaradıb.

Regionların davamlı inkişafında və əhalinin məşğulluğunda olduqca əhəmiyyətli rol oynayan sahibkarlığın inkişafı üzrə tədbirlər davam etdirilir. Azərbaycanda regionların tarazlı inkişafını təmin etmək üçün digər sahələrlə yanaşı, bölgələrdə aqrar-sənaye kompleksinin sürətli inkişafına nail olunmuşdur. Nəzərə almalıyıq ki, kənd təsərrüfatında ölkə üzrə ümumi daxili məhsulun 6 faizi istehsal edilir. Əhalinin 47 faizi kənd yerlərində yaşayır və məşğul əhalinin 36 faizi kənd təsərrüfatında çalışır. Kənd təsərrüfatının inkişaf etdirilməsi regionlardakı problemlərin aradan qaldırılmasına şərait yaratmışdır.

Dövlət proqramlarının icrası nəticəsində bölgələrin siması bütünlükdə dəyişdi. Regionlarda sənayenin, aqrar sektorun inkişafına təkan verildi. Sənaye parkları, aqroparklar, fabrik və zavodların açılışı vaxtilə işsizlik səbəbindən paytaxta üz tutan insanları yenidən regionlara qaytardı və hazırda həmin müəssisələrdə yüzlərlə insan çalışır.

Aparılan islahatlar, müxtəlif sahələri əhatə edən dövlət proqramlarının və genişmiqyaslı infrastruktur layihələrinin uğurla icra olunması Azərbaycanı dünyada güclü və demokratik dövlət, nüfuzlu və etibarlı tərəfdaş kimi tanıtmışdır.

Biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunda sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən tədbirlərin nəticəsində son 17 ildə sahibkarlıq subyektlərinin sayı 4,2 dəfə, hüquqi şəxslərin sayı 2 dəfə, kiçik müəssisələrin sayı 2 dəfə, fərdi sahibkarların sayı 5 dəfə artmışdır.

Biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunda sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən tədbirlər nəticəsində 2004-2021-ci illərdə ölkəmizin qeyri-neft ixracı 4 dəfə artmışdır. Müstəqillik qazandıqdan sonra ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulmuşdur.

Həyata keçirilən məqsədyönlü siyasət və struktur islahatları sayəsində 2020-ci ildə ölkəmizdə makroiqtisadi sabitlik təmin edilib, iqtisadi artım prosesləri sürətlənib və iqtisadiyyatın dayanıqlı inkişafı yeni mərhələyə daxil olub.

2021-ci ilin birinci rübündə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyərin 7,3 faiz azalması və əvəzində qeyri neft-qaz sektorunda əlavə dəyərin 2,1 faiz artması qeyri-neft sektorunda sahibkarlığın inkişafının real göstəricisidir.

Statistik məlumatlara görə, 2020-ci il ərzində Azərbaycanın ümumi ixracı 13,7 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə isə 1, 9 milyard ABŞ dolları dəyərində olmuşdur. 2021-ci ilin yanvar-fevral aylarında isə Azərbaycan Respublikasında fəaliyyət göstərən sahibkarlar dünyanın 142 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir.

Sahibkarlığın inkişafına dövlət dəstəyi göstərilməsi sayəsində Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kreditlərin verilməsi işləri davam etdirilir. Bu prosesin dövlət büdcəsinə əlavə yük yaratmadan həyata keçirilməsi üçün kreditləşdirmədən geri qaytarılan vəsaitlərdən istifadə edilir.

İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu tərəfindən iqtisadiyyata güzəştli kredit dəstəyi çərçivəsində 2020-ci il ərzində 908 sahibkara 127 milyon manatadək güzəştli kredit verilib. Bu kreditlər hesabına 2700-dən çox yeni iş yerinin açılması imkanı yaranmışdır.

Son illərdə Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilmiş güzəştli kreditlərin 72 faizi aqrar sektorun, 28 faizi sənaye və digər sahələrin inkişafına yönəldilib. Bu kreditlərin 75 faizi regionların, 25 faizi Bakı qəsəbələrinin payına düşür.

Kənd təsərrüfatının subsidiyalaşdırılması və vergilərdən azad edilməsi, texnika və gübrələrin güzəştli şərtlərlə verilməsi, investisiyalar və ixracın təşviqi, digər dövlət dəstəyi mexanizmləri regional inkişafın sürətləndirilməsində mühüm rol oynayır. Bu inkişafın daha bir göstəricisi regionlar üzrə vergi daxilolmalarının artmasıdır.

2005-ci illə müqayisədə 2020-ci ildə regionların qeyri-neft sektoru üzrə ümumi vergi daxilolmalarının xüsusi çəkisi 2 dəfə artaraq 15 faizə çatıb. Əmək bazarının leqallaşması və yeni iş yerlərinin yaradılması hesabına ötən il məcburi dövlət sosial sığorta haqqı üzrə regionlardan daxilolmalar 28 faiz artıb, o cümlədən qeyri-dövlət sektorunda artım 50 faiz olub. İşsizlikdən sığorta haqqı üzrə regionların daxilolmaları 39 faiz, o cümlədən qeyri-dövlət bölməsində 70 faiz artıb.

Əldə edilmiş uğurların davamlılığının təmin olunması sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini, sahibkarlara, xüsusilə də kiçik və orta sahibkarlara göstərilən texniki, maliyyə, hüquqi, metodiki və sair xidmətlərin əhatə dairəsinin genişləndirilməsini, keyfiyyət səviyyəsinin daha da artırılmasını zəruri edir, bu sahədə institusional yanaşmanı şərtləndirir.

Bütün bunları nəzərə alaraq Azərbaycan Prezidentinin müvafiq fərmanına əsasən İqtisadiyyat Nazirliyinin tabeliyində yaradılmış Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin qarşısında qoyulan əsas vəzifə ölkədə kiçik və orta sahibkarlığın iqtisadiyyatda rolunun və əhəmiyyətinin, rəqabətqabiliyyətliliyinin artırılması, inkişafının dəstəklənməsi, dövlət orqanları və təşkilatlarının bu sahədə fəaliyyətinin əlaqələndirilməsi, dövlət dəstəyi sahəsində qabaqcıl beynəlxalq təcrübənin tətbiq edilməsidir.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, hazırda qarşıda duran ən başlıca məqsəd Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır. Bu baxımdan ölkənin inkişafının hazırkı mərhələsində qarşıya qoyulmuş əsas hədəflər çoxşaxəli, innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılması, əhalinin rifahının davamlı olaraq yaxşılaşdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamının icrası olaraq ölkəmiz 2021-2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olmuşdur. Bu sərəncamın icrası üçün dövlət-özəl dialoqunun dərinləşməsi istiqamətində mühüm addımlar atılır. Bu istiqamətdə Azərbaycan Sahibkarlar Konfederasiyasına daxil olan bütün müraciətlər aidiyyəti üzrə İqtisadiyyat Nazirliyi ilə koordinasiya edilir.

Son illər ölkəmizdə sahibkarlığın inkişafı ilə bağlı həyata keçirilən islahatları və görülən işləri saymaqla bitməz. Məhz bu islahatların uğurla aparılması bütün dövlət orqanlarının, xüsusilə İqtisadiyyat Nazirliyinin gərgin əməyi nəticəsində mümkün olmuşdur.

Sahibkarlıq sahəsində yoxlamalar dayandırılmış, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 59-dan 37-yə, icazələrin sayı təqribən 4 dəfə azaldılaraq 86-ya endirilmiş, lisenziyanın verilməsinə görə dövlət rüsumları Bakıda 2 dəfə, regionlar üzrə 4 dəfə azaldılmışdır. Sərmayə qoyuluşunun stimullaşdırılması məqsədilə sahibkarlara investisiya təşviqi sənədləri verilmişdir.

Azərbaycanın möhtəşəm uğurlarına, təbii ki, sahibkarlar da özünəməxsus töhfələr verir. Bu, dövlət başçısının iş adamlarına etimadının bir təcəssümü olaraq mühüm vəzifə kimi qəbul edilir.

Özündə minlərlə sahibkarlıq subyektini, o cümlədən 50-yə qədər assosiasiya və birlikləri birləşdirən Azərbaycan Sahibkarlar Konfederasiyası bu tədbirlərin uğurla həyata keçirilməsi istiqamətində öz qüvvə və imkanlarını səfərbər etmişdir. Konfederasiya 15 daimi komissiya, 41 rayonda olan nümayəndə və 20-yə yaxın xarici ölkədə nümayəndələri ilə təmsil olunur.

Bütün bunlarla yanaşı, konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir, müvafiq dövlət qurumları, həmkarlar ittifaqları ilə əməkdaşlıq çərçivəsində ölkədə əmək münasibətlərinin tənzimlənməsində fəal iştirak edir. Belə ki, əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik Azərbaycan Hökuməti ilə əməkdaşlığın prioritet istiqamətlərindəndir.

Azərbaycan Hökuməti, Azərbaycan Həmkarlar Konfederasiyası və Azərbaycan Sahibkarlar Konfederasiyası sosial dialoqun bərabərhüquqlu subyektləri kimi kollektiv müqavilə və sazişlərin bağlanması, onlara əlavə və dəyişikliklərin edilməsi və icrasının təmini, bir sıra əmək və sosial iqtisadi məsələlərin həlli istiqamətində birgə iş aparır.

2020-ci ilin mart ayında Azərbaycan Respublikası Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında 2020-2022-ci illər üçün sosial əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyətlərini müəyyən edən Baş Kollektiv Saziş imzalanmışdır. Eyni zamanda əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik Azərbaycan Hökuməti ilə əməkdaşlığın prioritet istiqamətlərindəndir.

Sahibkarların qarşılaşdığı məsələrin operativ şəkildə həllinə nail olmaq üçün yaradılan əlverişli mexanizmlərdən biri də əməkdaşlıq şuralarıdır. Hazırda konfederasiyanın Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Azərbaycan Mərkəzi Bankı, Dövlət Gömrük Komitəsi ilə əməkdaşlıq şuraları fəaliyyət göstərir. Bu şuralar sahibkarların qaldırdıqları məsələlərin həllində müstəsna rola malikdir və dövlət-özəl dialoqunun ən işlək mexanizmlərindən biridir.

Bütün bunlarla yanaşı, Azərbaycan Sahibkarlar Konfederasiyası mütəmadi olaraq beynəlxalq əlaqələr sahəsində işini təkmilləşdirir və müxtəlif beynəlxalq təşkilatlarla əlaqələr yaratmaq imkanlarından istifadə edir.

Azərbaycan Sahibkarlar Konfederasiyası sahibkarlar, dövlət orqanları, yerli qurumlarla birgə fəaliyyəti ilə yanaşı, beynəlxalq qurumlarla, o cümlədən 2009-cu ildən Beynəlxalq İşəgötürənlər Təşkilatında, 1999-cu ildən Sənayeçilərin və Sahibkarların Beynəlxalq Konqresində üzvlüyünü davam etdirməklə, bir çox dövlətlərin və Azərbaycanın xaricdəki səfirlikləri ilə, beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da genişləndirmək istiqamətində iş aparır.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkələrin sahibkarlıq təşkilatları, xarici dövlətlərin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda və investisiya qoyulmasında kömək göstərir.

Ölkəmizin rəqabətqabiliyyətli məhsullarının ixracının təşviq edilməsi məqsədilə xarici ölkələrdə 5 Azərbaycan Ticarət Evi açılmışdır. Ticarət evlərində daimi fəaliyyət göstərən sərgilərdə Azərbaycan şirkətlərinin istehsal etdiyi məhsullar nümayiş olunur.

Konfederasiya Beynəlxalq Əmək Təşkilatı, Türk Ticarət və Sənaye Palatası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Sənayeçilərin və Sahibkarların Beynəlxalq Konqresi və digər təşkilatlarda ölkəmizi yüksək səviyyədə təmsil edir.

Konfederasiya hazırda qeyri-neft sektorunun inkişafı istiqamətində ölkənin özəl sektorunda sağlam qüvvələrin birləşməsi əsasında öz işini qurur, sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirir, günün tələblərinə cavab verən mövzular üzrə treninqlər, seminarlar, konfranslar keçirir, sahibkarların hüquq və vəzifələrinin qorunması istiqamətində mütəmadi olaraq iş aparır.

Dövlət və özəl sektorda şəffaflığın, uçot və hesabatlılığın müasir tələblərə uyğun təşkil olunması məqsədilə hər il İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin dəstəyi ilə sahibkarlıq subyektlərində çalışan mühasiblər üçün birgə tədbirlər keçirilir. Ümumiyyətlə, sahibkar-vergi münasibətlərində elə bir forma seçilməlidir ki, vergi ödəyicisi vergi ödəməkdən qürur hissi keçirsin.

Azərbaycan Sahibkarlar Konfederasiyası Kənd Təsərrüfatı Nazirliyi və Qida Təhlükəsizliyi Agentliyi ilə əməkdaşlığı davam etdirərək birgə tədbirlərin həyata keçirilməsində yaxından iştirak edir.

Son illər respublikamızda qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində ayrı-ayrı regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının, iri infrastruktur layihələrinin həyata keçirilməsi əhalinin yoxsulluq səviyyəsinin minimuma endirilməsinə, kiçik və orta sahibkarlığın, xüsusən fermer təsərrüfatlarının daha da inkişaf etməsinə şərait yaratmışdır. Əldə olunmuş dinamik iqtisadi artımın nəticəsidir ki, Azərbaycanın "yuxarı orta gəlirli" ölkələr sırasında mövqeyi daha da möhkəmlənmişdir.

Ölkədə həyata keçirilən qeyri-neft sektorunun inkişaf konsepsiyasında ilk növbədə hüquqi və fiziki şəxslərin qismində sahibkarların fəal iştirakına geniş meydan verilməsi, sahibkarlıq subyektlərinə dövlət tərəfindən güzəştli kreditlər şəklində verilən maddi dəstəyin ilbəil artırılması və çoxsaylı digər tədbirlər Prezident İlham Əliyevin bu sahəyə diqqətini təsdiqləyən faktların yalnız az bir hissəsidir.

Sahibkarlarımız da öz müəssisələrini müasir tələblərə uyğun qurmalı, ixrac bazarlarında rəqabətqabiliyyətli məhsullar istehsal etməli, xarici bazarlarda mövcud olan geniş imkanlardan faydalanmaq məqsədilə peşəkarlıqlarını artırmalı, ixrac menecerləri cəlb etməlidirlər.

Azərbaycan Sahibkarlar Konfederasiyası ölkə sahibkarlarını təmsil edən bir təşkilat olaraq həm əldə etdiyimiz uğurları dəyərləndirir, həm də müasir çağırışları dərindən təhlil edir, bununla bağlı silsilə və ardıcıl tədbirlər həyata keçirir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır. Konfederasiya Azərbaycan iqtisadiyyatının inkşafında sahibkarlığın rolunun qorunub saxlanmasında və inkişaf etdirilməsində genişmiqyaslı işlər aparır.

Bu gün hər bir sahibkar anlayır ki, Azərbaycanın tərəqqisi və gələcək inkişafı üçün ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı tədbirlər davam etdirilməli və onlar bir sahibkar olaraq bu işdə yaxından yardımçı olmalıdırlar.

Müharibə dövründə dövlət başçısının ətrafında sıx birləşərək "Dəmir yumruğ"un bir parçası olmağı bacarmış Azərbaycan sahibkarları Qarabağın yenidən firavanlığına qovuşması, işğaldan azad olunmuş torpaqların iqtisadi cəhətdən dirçəlməsi naminə səylərini daha da gücləndirirlər.

Arzu edirik ki, məcburi köçkünlərimiz tezliklə doğma yurd-yuvalarına dönsünlər və sökülüb viran qoyulmuş və iqtisadi infrastrukturu dağılmış Qarabağın hər bir guşəsini bu gün birlikdə quraq.

Sahibkarlar Konfederasiyası olaraq Azərbaycanda fəaliyyət göstərən bütün iş adamlarını sahibkarları bu əlamətdar gün - "Sahibkarlar günü" münasibəti ilə təbrik edir, onlara fəaliyyətlərində uğurlar arzu edirik. İnanıram ki, ölkə sahibkarları dövlətimizin yaratdığı bu imkanlardan istifadə edərək xalqımızın rifah halının daha da yüksəlməsi, rəqabətədavamlı istehsal potensialının artırılması üçün öhdələrinə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirəcək, yaradılan əlverişli şəraitdən səmərəli şəkildə və düzgün istifadə edərək ölkəmizin iqtisadi qüdrətinin artması üçün bütün qüvvələrini səfərbər edəcəklər.

**Məmməd MUSAYEV,**
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***

# "Yeni klinika" tibb müəssisəsinin direktorunun qanunsuz əməlləri ifşa edilib

Koronavirus pandemiyasının qlobal problem olaraq davam etdiyi hazırkı dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən çevik və sistemli tədbirlər nəticəsində əhalinin bu infeksiyanın törətdiyi fəsadlardan qorunması ən yuxarı səviyyədə təmin olunmaqla, qısa zaman kəsiyində çoxsaylı ixtisaslaşmış səhiyyə ocaqları, laboratoriya və tibbi istehsal müəssisələri istifadəyə verilib, əksər dünya ölkələrindən fərqli olaraq müxtəlif növ effektiv vaksinasiya vasitələri idxal edilərək əhalinin vaksinasiya prosesinin uğurla tətbiqinə başlanılıb, habelə insan sağlamlığının qorunmasına xidmət edən digər bu kimi proqram xarakterli addımlar atılıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, eyni zamanda, yoluxucu xəstəliyin geniş yayıldığı dövrdə yaranmış təbii narahatlıq və çaşqınlıqdan sui-istifadə edərək vətəndaşların haqlı narazılığına səbəb olan, bununla da dövlətin pandemiyaya qarşı geniş mübarizə siyasətinə kölgə salan bəzi vəzifəli şəxslərə, habelə onların yaratdıqları korrupsiya şəbəkələrinə də rast gəlinir ki, bu cür neqativ hallara qarşı da prokurorluq orqanları tərəfindən kompleks mübarizə tədbirləri görülməkdədir.

Belə ki, Baş Prokuror Yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş məlumat əsasında həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri ilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Yeni klinika Publik Hüquqi Şəxsin direktoru Abbasov Pərviz Akif oğlunun qurumun digər vəzifəli şəxsləri ilə qabaqcadan əlbir olub koronavirus xəstələrinin özünün rəhbəri olduğu tibb müəssisəsində yerləşdirilməsi müqabilində onların yaxınlarından müxtəlif məbləğlərdə pul vəsaitinin rüşvət qismində yığılaraq sonradan öz aralarında bölünməsinə dair əvvəlcədən ümumi razılaşma əldə etməsinə, həmin razılaşmaya uyğun olaraq öz tanışları olan Hüseynov Əvəz Ənvər oğlu, Mirzəyev Samir Qənaət oğlu və Əliyeva Vüsalə Firidun qızı vasitəsilə ayrı-ayrı koronavirus xəstələrinin "Yeni klinika" tibb müəssisəsində stasionar müalicə alması üçün yerləşdirilməsi müqabilində onların yaxınlarından hər xəstənin yerləşdirilməsi üçün 3000-3500 manat məbləğində pul vəsaitini alaraq aralarında bölüb şəxsi ehtiyaclarına sərf etməsinə, pul vəsaitlərini aldıqdan sonra verdiyi göstərişlə xəstələrin sözügedən tibb müəssisəsinə qəbul edilməsini təmin etməsinə əsaslı şübhələr müəyyən olunub.

Cinayət işi üzrə toplanmış sübutlarla Pərviz Abbasova Cinayət Məcəlləsinin 311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma) və 311.3.2-ci (təkrar rüşvət alma) maddələri ilə ittiham elan olunub, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Habelə qeyd edilən qanunsuz əməllərin törədilməsində Pərviz Abbasova köməklik etmələrinə əsaslı şübhələr müəyyən olunmuş Əvəz Hüseynov və Vüsalə Əliyeva həmin məcəllənin 32.5, 311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət almada köməkçilik) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə, barələrində həbslə bağlı olmayan başqa qətimkan tədbiri seçilib, Samir Mirzəyev isə eyni qanunsuz əməllərin törədilməsinə görə şübhəli şəxs qismində tutulub.

Hazırda cinayət işi üzrə qeyd olunan eyni xarakterli digər qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən olan pozuntularla üzləşən vətəndaşlara Baş Prokurorluğun 961 nömrəli "Çağrı mərkəzi"nə və Baş Prokuror Yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "161-Qaynar xətt" əlaqə mərkəzinə məlumat vermələrini tövsiyə edir.

# Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin Modul Tipli Hospitalının baş həkiminin qanunsuz əməlləri ifşa edilib

Dünyada və ölkəmizdə koronavirus xəstəliyinin geniş yayıldığı dövrdə pandemiyaya qarşı mübarizə istiqamətində həyata keçirilən müfəssəl dövlət siyasətinə və bu sahədə mövcud olan qanunvericiliyə zidd olaraq öz qanunsuz əməlləri ilə əhalinin sağlamlığını təhdid altına alan vəzifəli şəxslərə, habelə onların yaratdıqları korrupsiya şəbəkələrinə qarşı prokurorluq orqanları tərəfindən təxirəsalınmaz hüquqi tədbirlərin görülməsi davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş məlumat əsasında həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri ilə Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin Modul Tipli Hospitalının baş həkimi Ağayev İmran Əli Ağa oğlunun qeyri-rəsmi köməkçiləri olan həmin müəssisənin qeydiyyatçıları Orucov Qulu İlqar oğlu və İmanlı Taleh Mövlamerdi oğlu ilə qabaqcadan əlbir olub koronavirus xəstələrinin rəhbəri olduğu tibb müəssisəsində yerləşdirilməsi, eləcə də müalicə alan xəstələrin daha yüksəksəviyyəli tibbi və sair təminatla təchiz edilmələri müqabilində müxtəlif məbləğlərdə pul vəsaitinin rüşvət qismində yığılaraq sonradan öz aralarında bölünməsinə dair əvvəlcədən qarşılıqlı şəkildə ümumi razılıq əldə etməsinə, həmin razılaşmaya uyğun olaraq xəstələrin həmin hospitala salınması, hospitalın "VİP korpus"u hesab edilən 15-ci korpusunda qəbul edilməklə yerləşdirilməsi və digər bu kimi üstünlüklər əldə etmələrinə görə hər xəstədən sonuncular vasitəsilə müxtəlif məbləğlərdə pul vəsaitini rüşvət qismində alıb aralarında bölməsinə əsaslı şübhələr müəyyən edilib.

Həmin faktlarla əlaqədar başlanmış cinayət işi üzrə toplanmış sübutlarla İmran Ağayev və Taleh İmanlıya Cinayət Məcəlləsinin 311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma) və digər maddələri ilə ittiham elan edilməklə, barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib, Qulu Orucov isə eyni qanunsuz əməllərin törədilməsinə görə şübhəli şəxs qismində tutulub.

Hazırda cinayət işi üzrə qeyd olunan eyni xarakterli digər qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu pandemiyanın davam etdiyi bu mürəkkəb şəraitdə yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə və profilaktika tədbirlərində iştirak edən tibb işçilərinin gərgin və fədakar əməyini yüksək qiymətləndirməklə, xidməti səlahiyyətlərinin icrası zamanı ölkə rəhbərliyi və aidiyyəti qurumlar tərəfindən bu sahədə həyata keçirilən tədbirlərə kölgə salmamağa və qanunsuz əməllərə yol verməməyə çağırır.

# *Baş Prokurorluq:* "7 nömrəli Tibbi Sosial Ekspert Komissiyasının sədri həbs edilib"

Xəbər verildiyi kimi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 7 nömrəli Tibbi Sosial Ekspert Komissiyasının sədri Oruc Məmmədovun qanunsuz olaraq əlillik dərəcəsinin təyin edilməsi üçün vətəndaşdan 2500 manat məbləğində pul vəsaitini rüşvət qismində alması faktı ilə bağlı Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cinayət işi üzrə aparılmış intensiv istintaq-əməliyyat tədbirləri ilə Oruc Məmmədovun digər qanunsuz hərəkətlərə yol verməsi faktları da müəyyən olunub.

Belə ki, Oruc Məmmədovun koronavirus infeksiyasına (COVID-19) yoluxmaqla stasionar şəraitdə müalicəyə ehtiyacı olan şəxsin Fövqəladə Hallar Nazirliyinin Zığ qəsəbəsində yerləşən Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalına yerləşdirilməsinə öz həqiqi təsir imkanlarından istifadə edərək kömək göstərilməsi müqabilində vətəndaşdan 4 min manat məbləğində pul vəsaitini almasına əsaslı şübhələr yaranıb.

Qeyd olunanlarla bağlı Oruc Məmmədova Cinayət Məcəlləsinin 311.2-ci (vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə (hərəkətsizliyə) görə rüşvət alma) və 312-1.1-ci (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri) maddələri ilə ittiham elan edilib, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Hazırda həmin cinayət işi üzrə cinayətlərin törədilməsində hər hansı formada iştirak etmiş digər şəxslərin müəyyənləşdirilməsi istiqamətində zəruri tədbirlər davam etdirilir.

# Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və TƏBİB-in birgə məlumatı

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) birgə məlumat yayıb.

AZƏRTAC-a daxil olan məlumatda deyilir: "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq, ölkə ərazisində peyvəndləmə prosesi dövlət hesabına könüllü şəkildə davam edir.

Qeyd edək ki, vaksinasiya prosesində yol verilən neqativ halların qarşısını almaq məqsədilə aidiyyəti qurumlar tərəfindən araşdırmalar davam etdirilib. Araşdırmaların nəticəsi olaraq Bakı şəhəri üzrə 14 nömrəli Birləşmiş Şəhər Xəstəxanasında çalışan 2 nəfər işdən kənarlaşdırılıb və onların əmək müqavilələrinə xitam verilib. Faktla bağlı hüquq mühafizə orqanlarına müraciət edilib.

Xatırladaq ki, bundan əvvəl vaksinasiya prosesini pozan ümumilikdə 12 nəfər işdən kənarlaşdırılmış və onların əmək müqavilələrinə xitam verilib. Bir daha nəzərinizə çatdırırıq ki, göstərilmiş halların qarşısını almaq məqsədilə araşdırmalar davam edir və hüquq pozuntusuna yol verən tibb işçiləri haqqında müvafiq tədbirlər görüləcək".

**Jurnalist araşdırması**

# Əyrini deyil, əyri göstərən ayna

## Televiziya "silahımız" özümüzə, gələcəyimizə tuşlanıb

Azərbaycanda mətbuat azadlığı var. Jurnalistlər azad düşünür, düşündüklərini də rahat şəkildə izhar edə bilərlər. Bunu qanun deyir.
Ancaq deyəsən qanunun da diktə etdiyi bu azadlığı bizim bəzi peşə sahibləri düzgün qavramır...



### Evimizə qədər soxulan mənəviyyatsızlıq

Jurnalistə ona görə azadlıq verilir ki, cəmiyyətdəki "pisi pis, əyrini əyri, düzü hamar" görüb olduğu kimi də ictimaiyyətə çatdırsın. Daha bu o demək deyil ki, pis bir az da pis gündə, əyrini olduğundan betər görəsən, düzü isə görməzdən gələsən...

Jurnalist deyirik, amma əslində bu gün televiziyada və internet portallarda, yəni birbaşa evimizə daxil olan "hörmətli qonaqlar" axı heç jurnalistlər də deyil. Artıq uzun illərdir ki, şou-əyləncənin primitiv versiyası ənənəvi jurnalistikanı üstələyib. Daha doğrusu, hansısa qüvvələr üstünlüyü yüngül şou yaradanlara verməklə jurnalistikanı küncə sıxıb.

Jurnalistika yalnız xəbər proqramlarında qalır, təəssüf ki, onlar da kütləvi şəkildə şoulaşmış formaya keçirlər. Bu gün xəbər tamaşaçıya xəbər kimi deyil, şou kimi təqdim edilir. Məsələn, "Filankəs filankəsi (ər arvadını, yaxud əksinə, ata qızını, qardaş bacısını və sair) xüsusi amansızlıqla qətlə yetirdi". Fikrimizi hələ çox yumşaldılmış formada ifadə etdik ki, irad tutduqlarımızdan olmayaq...

Yaxud hər hansı yol qəzasından məlumatı hökmən ən dəhşətli formada ifadə edirlər. Lap məşhur "Uşaqlığın son gecəsi" filmində olduğu kimi:

*- "Bu andıra qalmış pilləkənlərdən uşaqlar yıxılıb ölürlər.*

*- Bəlkə, pilləkənlərdən yıxılıb əzilirlər - yazaq?*

*- Yox-ölürlər yaxşıdır".*

### "Bozbaş" şoular mənəviyyatımızda "qastrid" yaradır

Gün ərzində insan nə qədər bəd xəbər eşidər. Cəmiyyət psixoz olub artıq, intihar, qətl, qəza, bıçaqlanma, ölüm xəbərləri eşitməkdən... Həm də hər biri üfürülüb şişirdilmiş formada. Bəd xəbər elə bil xüsusi zövqlə təqdim olunan çay-şirniyyatmış kimi sinidə "süfrəyə verilir".

Bədxəbərlərdən sonra efirə gedən hər hansı şou-əyləncəli proqram bayaqdan verilən xəbərlərdən daha betər əsəb və gərginlik yaradır.

Bəs əyləncə, şou necə olmalıdır?

Əyləndirici və düşündürücü.

Yəni normal cəmiyyətlər belə əyləncələrə meyil göstərər. Əyləncə, şou, komediya insanın öz əyər-əskiyini ona göstərib özünə nizam verməsini tənzimləyən amildir. Əyləncə, şou mənasız və məzmunsuz, şit gülüş yaratmaq deyil.

Mətbəximizdən bozbaşı sağlamlıq naminə azaltdığımız bir vaxtda telekanallarımız "Bozbaş-pikçers" yaradır. Əti, kartofu bir yerdə yağlı suda yemək orqanizmə nə qədər zərərdirsə, şit "bozbaş" verilişlər də mənəviyyatımıza o dərəcədə ziyandır.

### Bu gün qazana tökdüklərimiz sabah qaşığımıza çıxacaq

Efirlərimizdə əyləncəli intellektual oyunlar da var. Onların da sualları öyrətməyə deyil, öyrətməkdən çəkindirməyə xidmət edir.

Elə bil kimsə televiziyalarımıza tapşırıq verib ki, nə badə bu millətə nə isə səviyyəli veriliş, mənalı, məzmunlu əyləncə təqdim edəsiniz...

Birdən millət düşünər, öyrənər - qəti olmaz...

Bu cür əyləncəli verilişlər yalnız onlardan qazanan kəsləri "əyləndirir". Onlardan itirən isə millətimiz olur! Daha burda qazancla itkinin miqyası nə qədərdir və hara qədərdir, qalır televiziya rəhbərlərinin vicdanına və milli düşüncələrinə...

Doğrudanmı biz cibimizdən o yananı düşünə bilmirik? Düşünə bilmirik ki, bu cür səviyyəsiz şoularla tərbiyə etdiyimiz gənclik bizm sabahımızdır.

O sabah ki orda bizim övladlarımız yaşayacaq. Bu gün qazana tökdüklərimiz sabah qaşığımıza çıxacaq. Dünən tökdüklərimizi bu gün "yediyimiz" kimi...

Çox bəsit bazar düşüncəsi var - bu gün müştərini nə qədər bacarıram aldadım, cibimi doldurum. O məqsədlə 3 manatlıq əşyanı 5 manata satıb qımışan sahibkar, yaxud alverçi daha dərindən düşünə bilmir ki, anlasın, bu gün aldatdığı alıcı sabah səndən heç nə almayacaq. Sən bu gün ola bilər qazandın, amma o, bugünlük oldu, sabahı itirdin. Düzgün qiymətə və keyfiyyətə satsaydın, sabah da müştərin və qazancın olardı.

Televiziyalarda da vəziyyət təxmini belədir. Hər gün tamaşaçı itirə-itirə hara qədər bu gedişlə gedəcəksiniz?..

### Babalı niyə həmişə tamaşaçının boynuna?!

Söhbət düşəndə "tamaşaçının istədiyini veririk", "şouya baxırlar" deyə babalı atırlar tamaşaçının boynuna. Ola bilər 10 il bundan əvvəl elə idi, amma bugünün tamaşaçısı artıq dünənki deyil axı...

Tibbə aid verilişlər hər efirimizn "yaraşığıdır". Bir standart var: həkim dəvət olunur, aparıcı sual verir, o, cavablandırır. Təbii ki, efirdən müalicə etməyəcək (amma əksinə olur, xəstələndirir). Məqsəd yalnız pasiyent yığmaqdır. Bu cür verilişlər reklam xarakterlidir.

O cümlədən müğənnilərin oxuduqları, qonaq olduqları şou-əyləncə proqramları onların "toy tutmaları" üçündür. Ordan qazanıb televiziyaya da görüm-baxım edəcəklər. Reklam üçün aparıcı da öz payına düşəni alacaq.

Bir sözlə, qazanan qazananındır. Hər şey onun üçün düşünülüb. Bircə milləti düşünən olmayıb...

Ketrin Kollison "Televiziyanın prodüser işi" kitabında yazır: "Teletamaşaçı yaxşını pisdən ayıran və daimi olmayan publikadır. Onların maraqları hər mövsümdə dəyişir. Bu gün kafedə belə qızğın söhbəti danışılan verilişi ola bilər ki, sabah heç kim xatırlamasın və yenisini müzakirə etsinlər."

Bu o deməkdir ki, televiziya verilişləri tez-tez dəyişilməli, yenilənməli, zamanla ayaqlaşmalı və inkişaf etməlidir. Bizim telekanallar inkişaf barədə deyil, yalnız qazanc haqda düşünürlər.

Hər halda efir siyasətləri bundan xəbər verir. Düzgün proqram siyasəti olsa, əsl qazanc da olar - hər iki mənada...

Həm televizya qazanar, həm də Azərbaycan cəmiyyəti...

### Yaxşı məhsul intellektli beyinlərdən ixrac olunur

Bu cür şou və əyləncə, tibbi və kütləvi proqramlar tamaşaçıya heç nə vəd etmir, vaxt itkisindən qeyri. Bəzən əksinə, gəncləri və yeniyetmələri yanlış istiqamətləndirir. Gənclər yalnız ölüm, qan xəbərləri eşidir, görür, oxuyur. Şüuraltı bunu qavrayır, adiləşir onlar üçün... Öz üzərində işləməyən televiziya aparıcılarının küçə, bazar səviyyəsində danışığını və göstərisini eşidib görür, elə düşünür ki, yaxşısı da budur.

Olmazmı hər kanal gündə beş dəfə xəbərlərdə kiminsə intiharını bəyan edəndə, ardınca 2 dəqiqəlik intiharları pisləyən, şüuraltıya "bunu etmə" deyən sosial çarx təqdim etsin. Əlbəttə, olar.

Yaxud erkən nigahlarla, zərərli vərdişlərlə bağlı... Qəhrəmanlığı, vətənpərvərliyi təbliğ edən qısa süjetlər, filmlər, sosial çarxlar üstünlük təşkil etsə, bu, kimə ziyan gətirər. Onların arasında yenə reklam, şou olsun, amma şou da tamaşaçının zövqünü oxşayan, mənəviyyatının və intellektinin inkişafına xidmət edən olsun.

Demək asandır, amma onu yaradıb təqdim etmək hər kəsin beyninin məhsulu deyil! Hə, demək o zaman beyni yaxşı məhsul ixrac edənləri işə dəvət etmək lazımdır...

Efirdə aparıcı dəvət etdiyi qonağı aşağılamağa, "qaşıdığı yerdən qan çıxartmağa" çalışır. Yazıq qonaq da özünü müdafiəyə keçir. Efir çevrilir rinqə!

Çünki aparıcının qabındakı odur, bacardığı, yaxşı bildiyi nədirsə, onu büruzə verir...

### "Tutuquşuların" söhbəti

Hansı televiziya aparıcısının klassik ədəbiyyatdan, satiriklərdən sitat gətirib tamaşaçını güldürməsini gördünüz? Elə vaxtlar vardı. O zamanlar efirləri peşəkarlar, intellektli kəslər idarə edirdi.

Dövran dəyişib, indi mənəviyyatı da biznes təfəkkürü olan iş adamları formalaşdırır...

Əslində, biznesin də qaydalarında əvvəlcə mənəviyyatdır, o olarsa, maddiyyat da olur...

Yanlış istiqamətdəyik, hansı yolla olursa olsun, təki maddiyyat olsun. Mənəviyyatı keçirmişik hansısa arxa cərgələrə, büzüşdürüb oturtmuşuq...

Niyə efirlərimizdə daha çox sənətkarlar, ziyalılar, elm adamları deyil, müğənnilər, meyxanaçılar, ya da eyni fikirləri əzbərləyib deyən "politoloqlar"dır?..

Bir bəlamız da budur. İstənilən mövzuda eyni - "seçilmiş" adamlar fikir söyləyir. Bir adam necə hərşeyşünas olar...

Niyə Qarabağı azad edən qazilərdən, onların qəhrəmanlıqlarından deyil, kriminal avtoritetlərdən verilişlər hazırlanıb yayımlanır?

Bütün bunlar yalnız baş qatmağa xidmət edir. Bu, dünənin reallığı ola bilərdi. Dünən medianı kurasiya edənlər belə istəmişdi (tamaşaçı yox). Bugünün reallığı isə başqadır. Bugünün qəhrəmanları fərqlidir. Bugünün tamaşaçısı da dünənki deyil...

### Televiziyaların birinci problemi bəlkə də elə rəhbərləridir...

Sovet dönəminin bizə zidd olan xüsusiyyətlərini bilirik, amma bəzən onların da yaxşı cəhətlərindən bəhrələnmək olar. Ənənəvi jurnalistikada yalnız dürüst və ictimai yükü olan xəbər vardı. Jurnalistlər öz inkişafları üçün daha çox oxuyur, öyrənir və təcrübə qazanırdılar. Bu gün o jurnalistikaya böyük ehtiyac var ki, zaman-zaman onun kökünü baltalayıb bugünkü vəziyyəti "qazandıq"...

Peşəkarlar sıradan çıxarıldı, media qurumlarının rəhbərliyinə idarə etməyi bacaranlar deyil, idarəolunanlar gətirildi!

Onlar da özləri kimi idarəolunanları götürdülər işə, "otur desəm otursun, dur desəm dursun" prinsipi ilə...

"Jurnalist peşəkarlığı, azad düşüncəsi, bacarığı olmasın, yoxsa dönüb "sən deyən düzgün deyil" - deyə bilər...

Bu da acı nəticə...

Bu gün öz silahımızla özümüzü vururuq...

Öyrədici, maarifləndirici heç bir layihə yoxdur! Kimsə deyə bilər ki, "televiziyanın missiyası maarifləndirmək, öyrətmək deyil", - tam yanılır!

Televiziya kütləvi informasiya vasitəsidir və birbaşa missiyası yönləndirməkdir, maarifləndirməkdir!

Televiziya bir kəlməsi ilə kütləni arxasınca apara bilən qüvvədir!

Televiziya sosial çarxlarla insanların şüuruna əsaslı şəkildə təsir göstərə bilər. Televiziya sənədli televiziya filmləri ilə tamaşaçını maarifləndirə, oxuyub öyrənə bilmədiklərini aşılaya bilər.

Televiziya bir millətə özünü - tarixini, ədəbiyyatını, keçmişini öyrədib gələcəyinə işıqlı yol aça bilər. Əgər istəyərsə, təpəri çatarsa...

Bunun üçün ona rəhbərlik edən kəslərin pulu sevdiklərinin yarısı qədər Azərbaycanı sevmələri yetər...

### Reytinq azarı

Hər şey reytinqlə ölçülür. Niyəsi bir başqa sualdır...

Bəs görəsən o reytinqi kim və necə müəyyən edir? Heç düşünən olubmu ki, bu reytinq aşiqliyi düzəlməsi çətin olan hansı problemlərə yol açır?

Reytinq müəyyən edən mexanizm necə qurulub?

Düzgün qurulubmu?

Hansı televiziya rəhbəri yaxın xarici ölkələrdə təcrübə keçməklə dünya təcrübəsini öyrənmək üçün cəhd göstərib? Heç biri! Hələ işçiləri...

Dünya televiziyalarındakı yeniliklərin Azərbaycana gətirilməsi, xarici həmkarları ilə iş təcrübələrinin bölüşdürülməsi məsələsi bizim telekanalların gündəmində deyil. Biz yalnız başımızı aşağı salıb işləyirik. Söhbət başqa ölkələrin telelayihələrinin plagiatını hazırlamaqdan getmir ha, təcrübədən yararlanmaqdan və inkişaf etməkdən gedir...

Televiziyalarda reklam bəlası isə bir başqa söhbətin mövzusudur.

### MTRŞ - cəsarətli ol, heç olmasa bir az...

Milli Televiziya və Radio Şurası televiziyaların azadlığı və müstəqilliyini əlində bayraq edib yalnız tövsiyə verməklə kifayətlənir...

2020-ci ilin hesabatında da o cür tövsiyələr verib. Reklam haqqında qanunu xatırladıb: "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 13.2-ci maddəsi (televiziya və radioda verilən sponsor reklamında bu məlumatların ümumi həcmi hər bir proqramda (verilişdə) 2 dəqiqədən çox olmamalıdır); Ümumilikdə, aparılmış monitorinqlər göstərmişdir ki, şura tərəfindən həyata keçirilmiş müvafiq tədbirlər nəticəsində 2020-ci ilin ikinci yarısında televiziya və radio yayımı haqqında qanunvericiliyin tələblərinə yayımçılar tərəfindən riayət olunması istiqamətində müsbət dinamika müşahidə edilmişdir. Dövlət büdcəsindən maliyyələşən yayımçıların efirlərinin izlənilməsi zamanı bəzi çatışmazlıqlar da aşkarlanmışdır. Belə ki, "Televiziya və radio yayımı haqqında" qanunun 32.0.10-cu maddəsinə görə, dövlət və ictimai teleradio yayımçıları tərəfindən insanın immun çatışmazlığı virusu infeksiyasının profilaktikası barədə maarifləndirici verilişlərin, sosial reklam çarxlarının nümayişi üçün ayda 20 dəqiqədən az olmayan efir vaxtı ayrılmalı və həmin verilişlərin daha əlverişli vaxtda yayımı təmin edilməlidir. Monitorinqlər zamanı yayımçıların qanunun bu tələbinə tam şəkildə riayət etdikləri müşahidə edilmir".

Göründüyü kimi, televiziyada istər şou, əyləncə proqramlarının, istər tibbi proqramların, reklam xarakterli çarxların və s. ümumilikdə proqram siyasətində köklü dəyişikliyə - yeniliyə ehtiyac var. Həm də o yeniliklər Azərbaycana, milli və siyasi, dövlət maraqlarına xidmət etməlidir.

*Mətbuat, söz və yayım azadlığından millətin gələcəyi üçün yararlanaq...*

*Cibimizi yox, mənəviyyatımızı düşünək...*

*Bir millətin varlığının sütunu olan dəyərlərdən yapışaq...*

*O zaman qazanc daha böyük olar...*

**Ramilə QURBANLI,**
**"Azərbaycan"**

Biz birlikdə güclüyük!

# Peyvəndləmə: dinamika müsbətə doğrudur

## Dünyanın bütün həkimləri koronavirusa qarşı ən effektiv üsul kimi vaksinasiyanı seçiblər

*Əvvəli 1-ci səh.*

Dünyada koronavirusa yoluxanların sayı narahatlıq yaratsa da, vaksinin artıq tapılması və əlyetən olması, peyvəndləmə prosesinə qoşulanların durmadan artması, ümumi qaydalara ciddi əməl edilməsi imkan verir deyək ki, vəziyyət heç də təhlükəli həddi aşmayıb. Qarşılanan profilaktik tədbirlər koronavirusun ömrünü qısaltmaq baxımından mühüm kampaniya halını almaqdadır.



### Mütəxəssisləri narahat edən ən vacib problemlərdən biri

Ümumdünya Səhiyyə Təşkilatının yaydığı məlumatda deyilir ki, Antarktidadan başqa, bütün qitələrə yayılmış virusdan xilas yolları hələ də araşdırılmaqdadır. Nəticə əldə olunmasına baxmayaraq, onun mutasiyaya uğrayaraq yaratdığı yeni ştammları ilə "hücuma keçməsi" nəzarətdən kənarda qalmamasını tələb edir.

Koronavirus infeksiyasının müxtəlif yeni ştammlarının yoluxduruculuq dərəcəsi də bu sahənin mütəxəssislərini ciddi narahat edən vacib problemlərdən biridir. Belə ki, virusa qarşı peyvəndlənmənin daha geniş əraziləri, belə deyək, coğrafi məkanları əhatə etdiyi bir vaxtda yoluxma şkalasındakı rəqəmlərin həyəcan təbili çalması diqqətdən yayınmır. Buna görə də virusun müxtəlif ştammlarının peyda olması ilə bağlı aparılan tədqiqatlara daha çox fikir verilməyə başlanıb.



Tədqiqatların müəlliflərindən biri Təl-Əviv Universitetinin Sakler adına Tibb fakültəsinin kliniki mikrobiologiya və immunologiya kafedrasının professoru A.Munitsdir. O, bu barədə fikirlərini açıqlayarkən xüsusi vurğulayıb ki, onlar üç müxtəlif virus genini testləşdirən dəstdən istifadə edirlər. Britaniya variantında həmçinin "B1.1.7" kimi tanınan ştammda S geni mutasiya nəticəsində pozulub. Buna görə də hətta genetik ardıcıllıq olmadan belə variantın yayılmasını izləməyi bacarıblar. Laboratoriya məlumatları Britaniya variantının çox sürətlə yayılmasını göstərir: "2020-ci il dekabrın 24-də müsbət nəticələrin yalnız 5 faizi Britaniya variantına aid edilib. Cəmi 6 həftədən sonra, daha dəqiq desək, bu ilin yanvarında həmin variant İsraildə COVID-19 yoluxmalarının 90 faizinə səbəb olub. Hazırkı göstərici təxminən 99,5 faizdir. Bu kəskin artımı izah etmək üçün biz SARS-CoV-2 virusunun R ədədini Britaniya variantının R ədədi ilə müqayisə etdik. Başqa sözlə, hansısa varianta sahib hər bir insandan orta hesabla neçə nəfər yoluxa bilər sualına cavab axtardıq. Məlum oldu ki, Britaniya variantı 45 faiz, yəni təxminən 1,5 dəfə daha çox yoluxucudur".

Bunlarla yanaşı, vaksinasiya prosesində də müəyyən məsələlərin ortaya çıxması koronavirusun vaxtında cilovlanmasına əngəl törədir, yaxud yoluxmanın qarşısının alınmasında problemlər yaradır. Elə xəstəlik daşıyıcıları var ki, onlar vaksinasiya prosesindən kənarda qalırlar. Belə xəstəliklərdən biri xroniki allergiyadır. Allergiyanın kəskinləşməsi zamanı xəstə koronavirusa qarşı peyvənd oluna bilməz. Rusiyalı immunoloq Nadejda Loqinina da məhz bu barədə fikirlərini bölüşərkən qeyd edib ki, peyvənd yalnız sabit remissiya dövründə, bədəndə patoloji proseslər olmadığı zaman edilə bilər: "Allergiya halında ödem istənilən orqanda və istənilən toxumada lokallaşdırıla bilər. Mədə-bağırsaq traktının, yuxarı tənəffüs yollarının, ağciyər və beyin toxumasının ödemi ola bilər. Allergik reaksiyalara laqeyd yanaşmaq olmaz. Bunlar peyvənd üçün ciddi əks-göstəriş olan xroniki xəstəliklərdir.

### İmmun pozğunluğu və COVID-19 zamanı hamiləlik riskləri

"Zvezda" TV-yə açıqlamasında həkim onu da bildirib ki, koronavirusa qarşı peyvənddən sonra bir çox insanlarda suallar yaranır: "...Məsələn, vaksinasiyadan sonra karantin qaydalarına yenə də ciddi surətdə riayət etmək lazımdırmı, peyvənd almamış insanlarla ünsiyyətdə olmaq təhlükəlidirmi, vaksinasiyadan sonra insan bu virusa yoluxa bilərmi? Bilmək lazımdır ki, vaksin insanı infeksiyadan 100 faiz qorumasa da, hələlik bütün dünya həkimləri koronavirusa qarşı ən effektiv üsul kimi onu seçib".

Səudiyyə Ərəbistanının Dammam şəhərində fəaliyyət göstərən "Ana və Uşaq" ("Maternity and Children") klinikasının mama-ginekoloq həkimi Xatirə Həsənova isə anaların və uşaqların bu virusa yoluxmasının qarşısının alınması ilə bağlı tövsiyələrini belə bölüşür: "Əslində, geniş mövzudur, lakin immun pozğunluğu və COVID-19 zamanı hamiləlik riskləri haqqında bəzi məlumatları bilmək çox önəmlidir. Hamilə qadının orqanizmində, xüsusilə ürək-damar, tənəffüs və immun sistemində baş verən fizioloji dəyişikliklər virus infeksiyasının daha bir gedişatına şərait yaradır. Yüksək risk qrupuna daxildir: hamilənin yaşının 35-dən, BCİ-nin 25-dən cox, eləcə də hamiləlikdən öncə somatik xəstəliklərin olması, arterial hipertenziya, şəkərli diabet, iş şəraiti, səhiyyə sistemində calışma, digər sosial məşğuliyyətlər, transmissiya yolları...

COVID-19 hamilələrin 74, doğuşa qəbul olunub və testi pozitiv olanların isə 86 faizi asimptomatikdir. Əsas simptomları isə bunlardır: öskürək-41, qızdırma-40, dispnoye-23, mialgiya-19, qoxunun itməsi-14, diareya-8 faiz. Hamiləliyin postnatal vəziyyətin inkişafına təsiri hələ aydın deyil, müalicəsi individualdır, xəstəliyin dərəcəsindən asılı olaraq aparılır.

### Risklər: peyvəndli biri viruslu xəstə ilə ünsiyyətdə olarsa...

Həkim onu da qeyd edir ki, ümumiyyətlə, peyvənd almış insanlar özlərini necə qorumalı, hansı qaydalara riayət etməlidir sualı bu gün əksəriyyəti ciddi düşündürür. "Həmin insanlar da virusa yoluxa bilər, lakin xəstəliyi ağırlaşmalar olmadan, fəsadsız keçirirlər. Mütəxəssislərin fikirləri biz həkimlərin marağına daha çox səbəb olur. Bildirilir ki, peyvənd almış insan bir ay ərzində viruslu xəstə ilə ünsiyyətdə olarsa, yoluxa bilər, ancaq bu zaman o, xəstəliyi daha yüngül keçirəcək, lakin ağırlaşmalar və ölüm istisna olunur. Koronavirus infeksiyasına qarşı vaksin vurulduqdan sonra mütləq profilaktik tədbirlərə riayət olunmalıdır. COVID-19-a yoluxmamaq üçün kütləvi tədbirlərdən uzaq olmaq lazımdır. Gigiyenik qaydalara ciddi riayət etmək unudulmamalıdır. Bunlarla yanaşı, maska taxmağı və əllərin tez-tez yuyulmasını gündəlik həyat tərzi kimi qəbul etmək, sosial məsafə saxlamaq çox vacibdir.

Peyvənd olunduqdan sonra 3 gün ərzində hamam və saunalardan imtina etmək lazımdır. Həmçinin fiziki yüklənmələrdən, psixoloji gərginlikdən, eyni zamanda alkoqollu içkilərdən uzaq olmaq mütləqdir. Əlbəttə, peyvənddən sonra bir qədər dincəlmək hər kəs üçün mühümdür".

Həkimin fikrincə, vaksinasiyadan sonra qida rasionuna da diqqət etmək zəruridir: "Çalışmaq lazımdır ki, orqanizmdə D vitamini səviyyəsi kifayət qədər olsun. Buna görə də zülal tərkibli məhsullar qəbul edilməlidir. Bura daha çox ət, balıq və yumurta aiddir. Fikir verilməlidir ki, qida rasionunda bu qidalar və digər vitaminlə zəngin məhsullar olsun.

Həmçinin soyuqlamaq, çox istidə olmaq, stress yaşamaq da koronanın fəsadlara gətirib çıxara biləcəyi hallardan hesab edilir. Həmçinin allergiyanız olan məhsulları qəbul etməyin".

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*







Azərbaycan Prezidentinin bəyanatından sonra ermənilər ciddi qorxu içərisindədirlər:

# "İlham Əliyev Mehridə bayrağını ucaltmağa hazırlaşır"

## Soros Fondu Ermənistanda itirilən mövqelərini bərpa etmək üçün ölkəmizə qarşı kampaniyasına başlayıb

*Əvvəli 1-ci səh.*

Ermənistanın keçmiş baş naziri Qrant Baqratyan isə bildirib ki, İlham Əliyev Zəngəzur deyəndə Vayk və Yeğeqnadzoru da nəzərdə tutur. Baqratyanın sözlərinə görə, dünya İlham Əliyevi qınamır və belə bir təəssürat var ki, dünya "Zəngəzuru da verin, qoy sakitləşsin" deyir: "Burada ədalət yoxdur. Zəif tərəf ermənilərdir, qoy məsələ ermənilərin hesabına həll edilsin. Azərbaycan bir il əvvəlkindən iki dəfə daha böyük templərlə silah idxal edir". Baqratyan vurğulayıb ki, Ermənistan prezidentinin və baş nazirinin Süniki verməsini və vəzifədə qalmasını mümkün hesab edir.

### "Bu gedişlə İlham Əliyev bütöv Ermənistanı alacaq"

Manvel Qasparyan adlı "Instagram" istifadəçisi İlham Əliyevin Zəngəzurla bağlı bəyanatının yer aldığı paylaşıma belə şərh verib: "Ermənistan ölüb, ağlayanı yoxdur. Əliyevi izlədim, dəhşətə gəldim. Xəbəriniz varmı ki, İlham Əliyev yavaş-yavaş Zəngəzura, Mehriyə, Qafana doğru irəliləyir. Övladlarıma, mənə müharibə lazım deyildi. Boş yerə gənclərimiz həlak oldular. Paşinyan xalqını, dövlətini yeni müharibəyə, ölüm-itimli günlərə sürükləyir".

"Vkontakte" sosial şəbəkəsində "İlham Əliyev: Zəngəzura qayıdacağıq" ilə bağlı paylaşılan şəklə münasibət bildirən Zori Livonisyanın səhifəsi isə əyləncə məkanlarında çəkilmiş fotolarla dolu idi. Ukraynada ticarətlə məşğul olan Zori gülüş işarəsi ilə paylaşılan şəklə belə rəy bildirib: "Yazıq Ermənistandakı həmvətənlərimin halına. Bu gedişlə İlham Əliyev bütöv Ermənistanı alacaq. Paşinyanın yalanları ölkəmi uçuruma yuvarlayıb. Azərbaycan isə varlanmaqda davam edir. Əslində İlham Əliyev beynəlxalq təşkilatları özündən asılı vəziyyətə salmaqla, Ermənistanı məhv etməklə məşğuldur. Dünən Yerevanı istədi, bu gün də Zəngəzuru. Regionun açarı İlham Əliyevin cibindədir, dostlar".

### "Belə davam etsə, Əliyev növbəti bəyanatını Zəngəzurdan verəcək"

Qaqik Baqdasaryan adlı riyaziyyat müəllimi "Odnoklassniki" sosial şəbəkəsində İlham Əliyevin Zəngəzurla bağlı çıxışının əks olunduğu videomateriala münasibət bildirib: "Ermənistan Paşinyanın Sünikə səfərindən yox, İlham Əliyevin son bəyanatından danışır. Görəsən bizim nə vaxt normal bir rəhbərimiz olacaq? İlham Əliyev indiyəcən sülhdən danışa-danışa Qarabağı bizdən geri aldı. İndi isə açıq şəkildə Zəngəzurdan danışırsa, demək, onun hədəfi Yerevandır. Bu gedişlə İlham Əliyevin Yerevanda, Zəngəzurda qarşısına çıxacaq bir adam tapılmayacaq".

Serj Vazgenyan adlı birisi isə "Twitter"də yazıb: "Müharibədən sonrakı qorxu hələ də canımızdadır. İlham Əliyev Azərbaycan üçün lazımi addımlar atır, ərazilərin qaytarılması ilə bağlı işlər görür. Onun Zəngəzurla bağlı dediklərini rus saytlarından oxumaq kifayətdir ki, bizi nələrin gözləyəcəyini təsəvvür edəsən. Bəli, İlham Əliyev Mehridə bayrağını ucaltmağa hazırlaşır".

Edvard Karapetyan "Instagram"da Zəngəzurdan şəkil paylaşaraq qeyd edib: "Acı olsa da, reallığı ikinci Qarabağ müharibəsində gördük. Belə davam etsə, Əliyev növbəti bəyanatını Zəngəzurdan verəcək".

### "Sən Qarabağı satmısan, indi Zəngəzuru satmağa gəlmisən"

Nikol Paşinyanın Zəngəzur vilayətinə səfəri ciddi qalmaqalla müşayiət edilib. Paşinyan Qafandan Mehri şəhərinə baş çəkib və burada onu qəzəbli sakinlər fitlə və təhqirlərlə qarşılayıb. Paşinyanın mühafizəçilərin, xüsusi təyinatlı polislərin və təhlükəsizlik xidməti əməkdaşlarının əhatəsində şəhərin mərkəzindəki meydana çıxmaq cəhdi baş tutmayıb. İzdiham onu "Nikol satqın", "Kapitulyant", "Sən Qarabağı satmısan, indi Zəngəzuru satmağa gəlmisən", "Zəngəzur bizim vətənimizdir, onu heç kəsə verməriк" çağırışları ilə qarşılayıblar.

Paşinyanın tərəfdarları ilə onu həqarətlə qarşılayanlar arasında toqquşma baş verib, hüquq mühafizə əməkdaşları onları aralayıb. Bundan sonra Paşinyan şəhəri tərk edib. Şəhəri tərk edərkən etirazçılar Paşinyanı müşayiət edənlərə və baş nazirin avtomobilinə hücum ediblər. Paşinyanın təhlükəsizliyini təmin edən mühafizə xidməti və polisin 500 nəfər xüsusi təyinatlısı müqavimət göstərməyərək avtomobillərə miniblər və baş nazirlə birlikdə şəhəri tərk ediblər.

### "Gecə vaxtı niyə gəlib? Azərbaycanlılar onu görməsinlər deyə?"

Baş nazir buradan Qafana yollanıb. Lakin yol üstündə sərhədyanı Şurnux kəndinin sakinləri Paşinyanın hərəkətinə maneə yaratmağa cəhd ediblər. Nikol Paşinyanın onlara məhəl qoymadan yoluna davam etməsi kənddə qalmaqala səbəb olub. Qəzəblənən şurnuxlular onun kortejini yumurta atəşinə tutublar. Şurnux kəndinin rəhbəri Akop Arşakyan deyib ki, sakinlər onları narahat edən məsələləri çatdırmaq üçün Qafan-Gorus yolunda Paşinyanı gözləyiblər: "O, Gorusa getdi, sakinlərlə görüşmədi. İnsanlar onun gizlicə gəlib-getməyinə görə özlərini təhqir olunmuş hesab etdilər".

Akop Arşakyan təəssüflənib ki, Paşinyana təhlükəsizliklə bağlı verəcəyi mühüm suallar vardı: "Gecə vaxtı niyə gəlib? Azərbaycanlılar onu görməsinlər deyə, yoxsa o, azərbaycanlıları görməsin deyə? Bizim sakinlər hələ də gözləyirlər. Deyirlər, qoy baş nazir gəlsin, hər şeyi onun üzünə deyək".

Nikol Paşinyanın mətbuat katibi Mane Gevorkyan isə bildirir: "Qafanda sakinlər baş naziri hərarətlə salamlayırlar. Amma Şurnux və Mehridə baş verənlər bu yerlərin sakinləri ilə heç bir bağlılığı olmayan məlum dairələr tərəfindən təşkil edilib".

Bu arada Mehri bələdiyyə başçısı Mxitar Zakaryan hüquq mühafizə orqanlarının əməkdaşları tərəfindən polis bölməsinə aparılıb. Bu barədə Zakaryanın vəkili Qayane Papoyan "Facebok" səhifəsində məlumat verib. Vəkil qeyd edib ki, Mehri bələdiyyə başçısının hansı polis bölməsinə aparıldığı barədə dəqiq məlumat yoxdur. "Əvvəlcə onun Mehri polis bölməsinə, daha sonra Qafana aparıldığını dedilər. İndi də bir neçə polis avtobusunun müşayiəti ilə Yerevana aparıldığı barədə məlumatlar var", - deyə Papoyan qeyd edib.

### Siyasi qalmaqal və yeni qarşıdurma

"Dejavü" teleqram kanalı bildirir ki, Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan Ermənistan Milli Təhlükəsizlik Xidmətinin rəhbəri Armen Abazyana zəng edərək, aqressiv şəkildə ondan Paşinyanın Zəngəzur səfəri zamanı vətəndaşları etiraz etməyə çağıranların həbsini tələb edib. O, Abazyanı MTX-nın səssiz şəkildə olanları izləməsinə görə tənqid edib. Akopyan həmçinin Abazyanı təhdid edərək, əmri icra etməyəcəyi təqdirdə işdən qovulacağını bildirib. Ermənistanın birinci xanımı belə davam edəcəyi halda bölgələrdə seçkiqabağı kampaniyanın aparılmasının mümkünsüz olacağını və narazılığın hər yerə yayılacağını bildirib. Kanal Abazyanın artıq əmrin icrasına başladığını və Zəngəzurda geniş həbslər olacağını vurğulayıb.

Onu da qeyd edək ki, bu, Paşinyanın müharibədən sonra Zəngəzura ikinci səfər cəhdidir, birinci cəhdi ötən ilin dekabrında etmişdi. Onda Paşinyan Sisiandan o yana keçə bilməmişdi. Sisian kilsəsində keşiş baş nazirin salam vermək üçün uzanan əlini tutmaqdan imtina etmişdi. Zəngəzurlular isə Gorusa gedən yolu bağlamışdılar. Paşinyan Yerevana qayıtmağa məcbur olmuşdu.

Yeni səfərindən sonra Paşinyan Zəngəzurda etirazların təşkilatçılarına qarşı sərt tədbirlər görülməsinə göstəriş verib. Bu da siyasi qalmaqal və yeni siyasi qarşıdurma yaranacağından xəbər verir. Artıq Zəngəzurda baş vermiş insidentlə bağlı xuliqanlıq və hakimiyyət nümayəndəsinə qarşı zorakılıq maddələri üzrə cinayət işlərinə başlanıb. Bu maddələr üzrə pul cərimələri ilə yanaşı, 5 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.

### Soros Fondu anti-Azərbaycan təbliğatını qızışdırır

Zəngəzur dəhlizi ilə bağlı Ermənistanda Azərbaycana qarşı başlanan kampaniyanın arxasında Soros Fonduna bağlı qüvvələrin mövcudluğu sirr deyil. Bu gün Soros Fondu Ermənistanda itirilən mövqelərini bərpa etmək üçün Azərbaycana qarşı qlobal böhtan kampaniyasına başlayıb. Fonda bağlı insanlar Ermənistanda anti-Azərbaycan əhvali-ruhiyyəsini qızışdırmağa çalışırlar.

Nikol Paşinyanın parlamentdə təmsil olunan tərəfdarlarının arasında uzun illər boyu birbaşa Soros Fondunun maliyyəsi ilə yaşayan, fəaliyyət göstərən 14 deputat var. Fondla dolayısı əlaqəsi olan deputatların sayı isə 50-yə yaxındır. Fond tərəfindən Ermənistanda fəaliyyət göstərən 200-dən çox təşkilata 1997-ci ildən 2018-ci ilədək 48 milyon dollardan artıq vəsait ayrılıb. Sorosun maliyyələşdirdiyi bu təşkilatların çoxsaylı nümayəndələri hazırda Ermənistanda yüksək dövlət vəzifələrində təmsil olunurlar.

Beləliklə, hazırda Ermənistan hakimiyyətində də bir çox şəxslər, eləcə də Paşinyana qarşı çıxan bəzi müxaliflər məhz Soros Fondunun dəstəklədikləri insanlardır. Sorosun ictimai vətəndaş cəmiyyətlərinin əsas məqsədi burada hakimiyyəti öz nəzarəti altına almaqdır. Fond fəaliyyətini xeyriyyəçilik adı ilə pərdələsə də, artıq onun əsl mahiyyəti üzə çıxıb. Ermənilərin iş ortağı hesab edilən Açıq Cəmiyyət İnstitutu bu dəfə məqsədinə çatmaq üçün anti-Azərbaycan kampaniyasına daha çox diqqət edir.

Bu kampaniya cəhdində diqqət çəkən əsas məqamlardan biri də AŞ PA-nın Azərbaycana qarşı erməni təxribatının platforması olmasıdır. Təsadüfi deyil, çünki bu qurumda özündə erməni lobbisini də birləşdirən Soros şəbəkəsi mövcuddur və bu şəbəkənin indiyə qədər AŞ PA-nı Azərbaycana qarşı hücum meydançasına çevirmək, maliyyələşdirdiyi deputatlar vasitəsilə ölkəmizi hədəfə almaq cəhdlərinin dəfələrlə şahidi olmuşuq. AŞ PA-da erməni terrorçularla bağlı Azərbaycana qarşı növbəti hücum cəhdinin də arxasında Soros Fondu və qurumda bu fonda bağlı olan şəbəkə dayanır. Kampaniya iflasa uğradı, hərçənd, AŞ PA-nın çıxaracağı hansısa qərarın heç bir əhəmiyyətinin olmadığı da məlumdur. Qurum artıq əhəmiyyətsiz müzakirələr aparması, yalnız kağız üzərində qalan qərarların çıxarılması ilə tanınır. AŞ PA-nın sessiyalarında azsaylı deputatın iştirak etməsi də qurumun əhəmiyyətsizliyini göstərir.

Bütün baş verənlərə baxmayaraq, Azərbaycan istənilən halda Zəngəzur dəhlizinin işə düşməsinə nail olacaq. Bu, kimsənin müqavimət göstərə bilməyəcəyi qarşısıalınmaz prosesdir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Azərbaycan-Ermənistan dövlət sərhədində təxribatlar törədilib

Ermənistanın baş naziri Nikol Paşinyanın aprelin 21-də Zəngəzur vilayətinə məlum səfərindən sonra Ermənistan tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədində təxribatlar törədilib.

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, həmin gün axşam saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan rayonunun Seyidlər kəndində yerləşən Dövlət Sərhəd Xidmətinin bölmələri, eləcə də bu istiqamətdə Ermənistan tərəfdə xidmət aparan Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin bölmələrinin yerləşdiyi mövqelər Ermənistan hərbi qulluqçuları tərəfindən atəşə tutulub.

Hadisə ilə əlaqədar Rusiya sərhədçiləri azərbaycanlı həmkarlarına müraciət edərək təxribat törədən şəxslərin içkili vəziyyətdə olduqlarını bildirib və hadisəyə reaksiya verilməməsini xahiş ediblər.

Rusiya tərəfinin müraciətini nəzərə alaraq, Azərbaycan sərhədçiləri tərəfindən təmkinlilik nümayiş etdirilib və cavab atəşi açılmayıb. Hadisədən sonra təxribat törədən Ermənistan hərbi qulluqçularının ərazidən uzaqlaşdırılması barədə Azərbaycan tərəfinə məlumat verilib.

Eyni zamanda həmin gün Qubadlı rayonunun Şurnuxu kəndi istiqamətində 30-40 avtomobildə dövlət sərhədinə doğru hərəkət edən bir qrup şəxs erməni dilində Azərbaycan əleyhinə şüarlar səsləndiriblər.

Dövlət Sərhəd Xidməti rəsmi olaraq bildirir ki, bu cür təxribat halları gələcəkdə bir daha təkrarlanarsa, tərəfimizdən ən kəskin cavab tədbirləri görüləcək.

# Lerikdə şəhid zabitin doğum günü rayon səviyyəsində qeyd olunmuşdur





Lerikdəki Heydər Əliyev Mərkəzində Azərbaycan Ordusunun zabiti - Xüsusi Təyinatlı Qüvvələrin baş leytenantı, Vətən müharibəsinin 40-cı günündə Şuşa uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmış Əliqismət Yaqublunun anadan olmasının 29-cu ildönümü qeyd edilmişdir. Tədbirdə rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri və gənclər iştirak etmişlər.

Öncə torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş igidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunmuş, sonra şəhid Əliqismət Yaqublunun ömür yoluna həsr edilən guşəyə və videoçarxa baxış keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan Gənclərin İnkişaf və Karyera Mərkəzinin Lerik nümayəndəliyinin rəhbəri Ayfər Şakirli qeyd etdi ki, Əliqismət Yaqublu 1992-ci il aprelin 18-də rayonun Kələxan kəndində anadan olmuş, 2007-ci ildə Lerik şəhər M.Bağışov adına 3 saylı tam orta məktəbin 9-cu sinfini bitirmiş və elə həmin il Cəmşid Naxçıvanski adına Bakı Hərbi Kollecinə daxil olmuşdur. 2010-2014-cü illərdə Heydər Əliyev adına Bakı Ali Hərbi Məktəbində təhsil alan Ə.Yaqublu daha 1 il Təlim Tədris Mərkəzində hərbi biliklərə yiyələnmişdir. O, 2016-cı ilin Aprel döyüşlərində şücaət və qəhrəmanlıq göstərmişdir. 2018-ci ildən isə Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrində baş leytenant kimi xidmət rəisi vəzifəsini daşımışdır.

Vətən müharibəsinin ilk günündən döyüşlərə atılan baş leytenant Murovdağın, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının düşməndən azad edilməsində qəhrəmanlıq göstərmişdir. Noyabrın 5-də Şuşa şəhəri uğrunda gedən ağır döyüşlərdə şəhidlik zirvəsinə ucalmışdır.

Prezidentin sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilən şəhid zabitin özündən sonra 2 azyaşlı övladı - Əliəsgər və Məhəmməd yadigar qalmışdır.

Mərasimdə çıxış edən rayon icra hakimiyyətinin başçısı R.Bağırov bildirdi ki, Azərbaycan özünün Əliqismət kimi oğulları sayəsində Zəfər tarixini yazmışdır: "44 günlük Vətən müharibəsində yüzlərlə lerikli gənc könüllü olaraq erməni caynağında olan torpaqlarımızın azadlığı uğrunda savaşa atıldı. Əzəli və əbədi torpaqlarımız uğrunda şəhidlər verdik, yaralı qazilərimiz doğma el-obaya qalib ordunun döyüşçüləri kimi qürur hissilə qayıtdılar. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti və iradəsi, böyük sərkərdəlik qabiliyyəti sayəsində müzəffər ordumuz 30 illik Qarabağ həsrətinə son qoydu".

Sonra şəhid Əliqismət Yaqublunun sinif müəllimi Firuzə Adıyeva, Arif Nuriyev adına şəhər 1 saylı texniki təmayüllü liseyin direktoru Gültəkin Şıxəliyeva, Malik Bağışov adına şəhər 3 saylı tam orta məktəbin direktoru Validə Mədətova, Heydər Əliyev Mərkəzinin direktoru Hüsaməddin Abbasov, mərkəzin əməkdaşı Bahar Mürsəliyeva çıxış edərək qəhrəman eloğlumuz haqqında xatirələrini bölüşdülər.

Şəhidin atası, rayonumuzun dəyərli ziyalısı Mükafat Yaqubov oğlu haqqında xatirə və düşüncələrini dilə gətirdi. O, qəhrəman övladına verilən yüksək qiymətə görə Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını bildirdi.

Tədbirin sonunda şagirdlər Fatimə Babayevanın və Aysel Nəzərovanın ifalarında Əliqismət Yaqubluya həsr edilmiş şeirlər səsləndirdilər.

***Hüsaməddin ABBASOV,***
***Lerik***

Nəsillərə nümunə

# Tarladan səngərə, səngərdən quruculuq işlərinə

Belə bir deyim var: hər dövr öz qəhrəmanlarını yetişdirir. Lakin zaman dəyişsə də vətənpərvərlik, qəhrəmanlıq dəyişmir. Bu keyfiyyətlər nəsildən-nəslə keçir, oğullara, nəvələrə ata-babalarından ərməğan qalır. Bunları göstərmək üçün isə həyatda həmişə meydan var. Gənclərimiz bunu 30 il işğal altında olan torpaqlarımızı yağı tapdağından qanları-canları bahasına azad edərkən bir daha təsdiqlədilər. Çünki onların damarlarında mərd, vətənini sevən, xalqı üçün yaşayan babaların qanı axırdı.

Mənalı ömrü, xalqının, vətəninin yüksəlişinə həsr etdiyi həyatı nəsillərə nümunə kimi göstərilən mərd kişilərdən biri də Soltan Əzizov olub. 1920-ci il dekabrın 18-də Şəkidə anadan olmuş Soltan Əzizov Kənd Təsərrüfatı Texnikumunu bitirdikdən sonra rayonun Böyük Dəhnə kolxozunda və maşın-traktor stansiyasında sahə aqronomu işləmiş, 1939-cu ildə hərbi xidmətə yollanmışdı. Hadisələr Soltanın xidmət dövrünün xeyli uzanmasına səbəb olmuş və o, əsgər paltarını yalnız İkinci Dünya müharibəsi bitəndən sonra dəyişmişdi.

Müharibənin əvvəlindən hərbi hissədə diviziya komandirinin müavini kimi ön cəbhədə vuruşmuş S.Əzizov Brest, Kursk, Oryol və başqa ərazilərin faşistlərdən azad edilməsində əsl Azərbaycan oğluna yaraşan igidlik göstərmişdi. O, məşhur "Baqration" əməliyyatının həyata keçirilməsinin fəal iştirakçılarından olmuş, Berlin də daxil olmaqla Avropanın bir cox əraziləri uğrunda döyüşlərdə qəhrəmanlıq nümayiş etdirmişdi. Döyüş meydanında göstərdiyi şücaətə görə iki dəfə "Qırmızı Ulduz" ordeninə, Kensberqin, Berlinin və başqa şəhərlərin alınmasına görə medallarla təltif olunmuşdu.

Müharibədən sonra doğma vətəninə qayıdan Soltan Əzizov gənc aqronom kimi quruculuq işlərinə qoşulur. Ona artıq müharibənin ağır sınaqlarından çıxmış, özünü doğrultmuş bir insan kimi etimad göstərilir. 1946-cı ildən 1953-cü ilədək Şəki Rayon Partiya Komitəsində əvvəl şöbə müdiri, sonra birinci katib vəzifələrində işləyən



S.Əzizov 1953-1956-cı illərdə Moskvada Ali Partiya Məktəbində təhsil almışdı. Onun uğurlu karyerası bundan sonra da davam etmişdi. S.Əzizov Azərbaycan KP MK-da məsul vəzifələrə irəli çəkilmişdi.

Soltan Əzizov həm bilikli mütəxəssis, həm səriştəli təşkilatçı, həm də rəhbərlik etməyi bacaran insan idi. 1962-1966-cı illərdə Ağdam və Sabirabad rayonlarına rəhbərlik edərkən məhz bu amillər ona dəstəkçi olmuşdu. Sonrakı 16 il hökumətdə məsul vəzifələrdə çalışmış Soltan Əzizov cavabdeh olduğu sahələrin və bununla Azərbaycan iqtisadiyyatının inkişafına böyük əmək sərf etmişdi. Təsadüfi deyil ki, onun xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Onun əməyi Lenin, 3 dəfə "Qırmızı Əmək Bayrağı", "Şərəf Nişanı" ordenləri və bir çox medallarla dəyərləndirilmişdi. Azərbaycan KP MK-nın üzvü olmuş S.Əzizov Respublika Ali Sovetinin deputatı seçilmişdi.

Soltan müəllim yaşının ahıllığına və 1-ci qrup müharibə əlili olmasına baxmayaraq, pensiyaya çıxdıqdan sonra da ictimai həyatdan kənarda qalmamışdı. Respublika Ağsaqqallar Şurasının üzvü kimi ictimai işlərdə fəal iştirak etmiş Soltan Əzizov müstəqil Azərbaycanın, o cümlədən doğulub böyüdüyü Şəkinin gündən-günə artan nailiyyətlərindən qürur duyurdu.

2009-cu ildə vəfat etmiş S.Əzizovun xatirəsini əbədiləşdirmək üçün anadan olduğu və yaşadığı evə xüsusi lövhə vurulmuş, Şəki şəhərinin küçələrindən birinə onun adı verilmişdir. Biz veteranlar isə Soltan Əzizov kimi insanların həyatını həmişə gənclərimizə nümunə göstəririk.

***Vaqif ƏHMƏDOV,***
***Şəki rayon Müharibə, Əmək, Hüquq Mühafizə və Silahlı Qüvvələr Veteranları təşkilatının sədr müavini***

# İsrail səfirliyinin müvəqqəti işlər vəkili Quba Soyqırımı Memorial Kompleksini ziyarət edib

İsrailin Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Doron Peer Quba Soyqırımı Memorial Kompleksini ziyarət edib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Doron Peer 1918-ci ildə Qubada cinayətkar erməni hərbi dəstələri tərəfindən törədilmiş soyqırımı qurbanlarının dəfn olunduğu yerdə ucaldılmış abidəni ziyarət edib, erməni-bolşevik birləşmələrinin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıb.

Diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksi 2013-cü il sentyabrın 18-də açılıb.



Kompleksdə XX əsrin əvvəllərində Quba şəhərinin müxtəlif ərazilərinin görüntüləri, o zaman burada aparılan tikinti-quruculuq işləri, əhalinin həyat tərzi haqqında fotolar var. Burada quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı respublikamızın müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımı aktları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür.

Bildirilib ki, Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkarlanıb. Bundan sonra Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işləri aparılıb. Tədqiqatlar nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı ilə bağlı olduğu müəyyən edilib.

Doron Peer Quba Soyqırımı Memorial Kompleksinin xatirə kitabına ürək sözlərini yazıb.

# FHN müharibə nəticəsində psixoloji problemlər yaşayan vətəndaşlarımıza psixoloji yardım işini davam etdirir

Qırx dörd günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu işğalçı düşmən qüvvələrini məğlub edərək ərazi bütövlüyümüzü bərpa etdi. Birinci Qarabağ müharibəsində olduğu kimi, İkinci Qarabağ müharibəsi ilə əlaqədar şəhid ailələri, qazilər, müharibədən fiziki-mənəvi əziyyət çəkən insanlar da dövlətimizin diqqətindən kənarda qalmadı. Hər zaman ölkə başçısının qayğısı ilə əhatə olunan bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli, zəruri tibbi, o cümlədən psixoloji yardım təminatı daim diqqət mərkəzində saxlanıldı və bu proses bu gün də davam edir.

AZƏRTAC xəbər verir ki, Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən Türkiyədən



dəvət olunmuş peşəkar klinik-psixoloq və psixoterapevtlər FHN-in mütəxəssisləri ilə birlikdə Vətən müharibəsi nəticəsində mənəvi-psixoloji problemlər yaşayan vətəndaşlarımızın, o cümlədən uşaq və yeniyetmələrin psixoloji reabilitasiyasını davam etdirirlər. Belə ki, Bakı şəhəri ilə yanaşı, aprel ayının 5-dən etibarən respublikanın cənub bölgəsini əhatə etməklə Lənkəran şəhərində, aprel ayının 12-dən etibarən isə şimal-qərb bölgəsini əhatə etməklə Qəbələ şəhərində türkiyəli psixoloq mütəxəssislərin iştirakı ilə müharibədən və erməni terrorundan fiziki və mənəvi zərər görmüş vətəndaşlarımızın psixoloji reabilitasiyasına başlanılıb. Bundan əvvəl Gəncə və Bərdə şəhərlərində də FHN tərəfindən psixoloji yardım işi həyata keçirilib.

Ötən müddət ərzində ümumilikdə, 1600 nəfərə yaxın, o cümlədən 130-a yaxın uşaq və yeniyetməyə 3300-dən artıq seans psixoloji yardım göstərilib. Bu günədək şimal-qərb bölgəsi üzrə 80 vətəndaş, o cümlədən 2 uşağa 130-dan artıq seans keçirilib. Hazırda psixoloji yardım işi Bakı şəhəri, cənub bölgəsini əhatə etməklə Lənkəran şəhəri və şimal-qərb bölgəsini əhatə etməklə Qəbələ şəhərində davam etdirilir.

Ödənişsiz həyata keçirilən seanslarda iştirak etmək üçün FHN-in "112" qaynar telefon xətti ilə əlaqə saxlamaq lazımdır.

# Tovuzda həssas qrupdan olan qadınların məşğulluğuna diqqət artırılıb

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, "Sağlam Həyat Naminə" İctimai Birliyinin birgə əməkdaşlığı və "British Petroleum" Şirkətinin maliyyə dəstəyi ilə 2020-ci ildən başlayaraq Tovuz rayonunda "Qadınların məşğulluğuna və mikro sahibkarlıq fəaliyyətinə dəstək məqsədilə İcmada Ailəyə Dəstək Klubunun yaradılması" adlı layihə həyata keçirilir.

Layihə çərçivəsində ötən il Tovuz rayonunda 22 qadına biznes fəaliyyətinə başlaması və mövcud bizneslərini gücləndirmək üçün qeyri-pul şəklində maddi dəstək göstərilmiş, biznes planına uyğun olaraq avadanlıqlarla təmin olunmuşdur.

2021-ci ildən başlayaraq layihənin həssas qrupdan (şəhid, qazi və müharibə iştirakçılarının ailələrindən) olan qadınların məşğulluğuna və mikro sahibkarlıq fəaliyyətinə də dəstək göstərilməsinə başlanılmışdır. Həmin məqsədlə yanvar ayında məşğulluğuna dəstək göstərilməsi məqsədilə seçilmiş qadınlar üçün "Özünü təqdimetmə bacarıqları", "Liderlik bacarıqlarının inkişaf etdirilməsi", "Gender bərabərliyi və insan hüquqları", "Erkən nikah və məişət zorakılığı" "Maliyyə savadlılığı", "Ailə büdcəsinin idarə olunması", "Biznesin təşkili və idarə olunması" mövzularında təlimlər keçirilmişdir. Təlimlərdə 35 nəfər iştirak etmişdir. Bundan əlavə, layihənin icrası çərçivəsində 21 qadın biznes planına uyğun avadanlıqlarla təmin olunmuşdur.



***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Zenit-raket bölmələrinin döyüş atışlı taktiki təlimləri keçirilir

Müdafiə nazirinin təsdiq etdiyi 2021-ci il üçün döyüş hazırlığı planına əsasən Azərbaycan Ordusunda zenit-raket bölmələrinin döyüş atışlı taktiki təlimləri keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərdə müxtəlif çaplı zenit qurğularından və zenit-raket komplekslərindən nümunəvi döyüş atışları icra olunur. Real döyüş vəziyyətinə uyğun şəraitdə keçirilən təlimlərdə şərti hava hədəfləri dəqiq atəşlə məhv edilir.

Təlimlərdə əsas diqqət Vətən müharibəsində əldə edilən təcrübə nəzərə alınmaqla bölmələrin operativ idarəedilməsi, onların digər qoşun növləri ilə qarşılıqlı əlaqədə döyüş fəaliyyətinin təşkili üzrə vərdişlərinin təkmilləşdirilməsi və şəxsi heyətin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsinə yönəldilir.











# Mədəniyyət





● Ustad xanəndə

# Muğam sənətinin bülbülü

**Əsl adı Əbdülbaqi olub. Gözəl səsi, mahir ifası ona Bülbülcan adını qazandırıb. 1841-ci ildə Azərbaycanın ən gözəl yerlərindən birində - Şuşa şəhərində dünyaya gələn Əbdülbaqi Kərbəlayi Əli oğlu Zülalovun da həyat yolunu "Qafqaz konservatoriyası" adlanan bu şəhərin musiqi mühiti müəyyənləşdirib. İlk musiqi təhsilini Xarrat Qulunun məktəbində alıb. Məktəbi bitirdikdən sonra tarzən Sadıqcanla birlikdə Qarabağ, Şəki, Şirvan və Gəncə məclislərində, el şənliklərində çıxış edib.**

**Xan qızı Natəvanın bağında qurulan məclislərdə, 1873-cü il 18 avqustda onun Şuşaya su çəkdirməsi münasibətilə təşkil olunan şənlikdə Əbdülbaqi də iştirak edib.**



Bu gözəl səsli, yaraşıqlı xanəndə cavan yaşından Qafqazda və İranda bir çox məclislərdə iştirak edib. Musiqişünas Mahmud ağanın dəvətilə dəfələrlə Şamaxı şəhərinə gedərək orada təşkil olunan musiqi müsabiqələrində birincilik qazanıb.

1875-ci ilin əvvəllərində Əbdülbaqi Tiflis şəhərinə köçüb. Otuz il orada yaşayıb, fəaliyyət göstərib. Tiflisdə elə ilk dəfə böyük tarzən Sadıqcanın müşayiəti ilə çıxışı Əbdülbaqini tanıdıb, bütün Gürcüstanda məşhurlaşıb. Az vaxtda elə məşhurlaşıb ki, ona "Bülbülcan" deyiblər.

Gürcü dilini öyrənib. Azərbaycan muğamlarını həm də bu dildə ifa edib. Gürcü dilindən başqa ləzgi, kumık dillərini də bilib, bu dillərdə də mahnılar oxuyub.

O illərdə Zaqafqaziyanın mədəniyyət mərkəzi sayılan Tiflisdə xeyriyyə məqsədilə tez-tez konsertlər verilirdi. Həmin konsertlərdə yerli xanəndələrlə birlikdə məşhur rus, italyan müğənniləri və musiqiçiləri də çıxış ediblər. Bülbülcan da bu konsertlərdə oxuyub. O, tarzən Sadıq ilə birlikdə Tiflisdə yaşayan yoxsul müsəlmanların xeyrinə təşkil olunan konsertlərdə də iştirak edib.

Tiflisdə əksər yüksəksəviyyəli məclisə Bülbülcan və onun altı nəfərdən ibarət dəstəsi dəvət olunub. Tiflisdə teatr tamaşaları fasilələrində və konsertlərdə, müxtəlif məclislərdə oxuyub.

O dövrdə çıxan gürcü və rus dilindəki qəzetlər Bülbülcan haqqında maraqlı məqalələr dərc ediblər. Tiflisdə nəşr olunan "Ziya" qəzeti belə elan verib: "Bu yaxın vaxtda füqəra və misginlərdən ötrü Tiflisdə bina olunan İran xəstəxanasının sərmayəsinə qüvvət və mənfəət vermək qəsdilə həmin ayın 8-də Tiflisin teatr imarətində ibrətnüma və fərəh-əfza, növbənöv görməli və eşitməli tamaşalar olacaqdır. Avropa və Şərq nəğmələrində xoşavaz xanəndələr vasitəsilə muğamat musiqi icra olunacaqdır və Tiflis əhlinin dildadəsi olan xanəndə və sazəndələrdən Əbdülbaqi və Sadıq dəxi hazır olacaqdır. Əvvəliminci dəfədir ki, Tiflis və İran müsəlmanları bu gün (bunun kimi) baisifəxr (fəxr eləməli) və tərəqqi olan payəyə (pilləyə) qədəm qoyacaqlar".

"Qafqaz" qəzetində yazmışdı: "Bu gün 22 iyun 1886-cı ildə Arsurini teatrının binasında həvəskarlar tərəfindən tatar dilində M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" komediyası oynanılacaq. Tamaşanın fasilələrində Əbdülbaqinin sazəndə dəstəsi çalacaqdır".

1888-ci ildə III Aleksandrın Qafqaz səfəri zamanı Tiflisin Müctəhid bağında şərəfinə qurulan məclisdə Bülbülcan da çıxış edib. Xanəndənin ifasından vəcdə gələn III Aleksandr çar canişininə tapşırıb ki, xanəndənin at üstündə Kovalenski prospekti ilə (indiki Rustaveli prospekti) keçib getməsinə icazə verilsin.

1904-cü ildə I Nikolayın qardaşı Knyaz Mixail Romanov Tiflisə səfər edib. "Edem" bağında təşkil olunan ziyafətdə Bülbülcanın gözəl ifasından heyrətlənən knyaz barmağındakı 4 karatlıq brilyant üzüyü çıxarıb xanəndənin barmağına taxıb.

Müzəffərəddin şah 1900-cü ilin mayında Avropaya səfər edərkən bir neçə gün Tiflisdə qonaq olub. Şahın şərəfinə saray bağında təşkil edilən böyük məclisdə çıxış edən adlı-sanlı xanəndələrdən biri də Əbdülbağı olub. Onun ifasına heyran qalan Müzəffərəddin şah Bülbülcanı "Şiri-xurşid" ordeni ilə təltif edib.

1905-ci ildə Bülbülcan Şuşaya dönüb. Yetim qalan qardaşı uşaqları Əli və Qəmbəri böyüdüb.

1920-ci ildə o, Bakıya köçüb. Dahi Üzeyir bəy Hacıbəyli Bülbülcanı muğam ustası kimi dərs verməyə dəvət edib. O, qısa müddət "Şərq musiqisi kursları"nda ("Şərq konservatoriyası"), 1923-cü ildən isə Azərbaycan Dövlət Türk Misiqi Məktəbində muğamatdan dərs deyib. Qocaman xanəndə müğənnilik fəaliyyətini davam etdirməklə yanaşı, gənc xanəndələr yetişdirib.

İfası, sənətkarlıq məharəti ilə çoxlarına örnək olub. Ondan sənət öyrəniblər. Bülbülcanın yaradıcılığı Cabbar Qaryağdı oğlu, Musa Şuşinski, Məşədi Məmməd Fərzəliyev, Şəkili Ələsgər, Vahab bəy, Molla Abbas, Seyid Şuşinski kimi istedadlı xanəndələrə təsir göstərib. Cabbar Qaryağdı oğlu zəngulə vurmağı Bülbülcandan öyrəndiyini söyləyib.

Bülbülcan tarzən Qurban Pirimovla birlikdə 1921-ci ildə Azərbaycan artistlərinin bir qrup təşviqat briqadası ilə respublikanın rayonlarına göndərilib.

Yetmiş illik xanəndəlik fəaliyyətinə və Azərbaycan musiqisinin inkişafı tarixindəki xidmətlərinə görə sənətkar Əmək qəhrəmanı adına layiq görülüb.

Məşhur musiqişünaslar ustad xanəndə Bülbülcanın barəsində xoş sözlər yazıblar. Üzeyir bəy Hacıbəyli məqalələrinin birində Qafqaz millətləri arasında tanınmış və beynəlmiləl truppa düzəltmiş musiqiçilərdən bəhs edərkən onun da adını çəkib: "Tarzən Sadıqların, xanəndə Əbdülbaqilərin adları və sədaları Qafqazın hər bir yerində məşhur olub beynəlmiləl bir mahiyyətdə ad qazanmışlar".

Cabbar Qaryağdı oğlu "Keçmiş Azərbaycan musiqisi" adlı xatirələrində yazıb: "Xarrat Qulunun şagirdi, bütün Qafqazda məşhur olan xanəndələrdən Əbdülbaqi Zülalov "Zabul" dəstgahını çox təmtəraqla oxuyardı. "Hasar"a keçəndə elə bir səda ilə oxuyardı ki, heç bir kəs bunu bacarmazdı. Çünki "hasar" zəngulə istəyən nəğmədir, Əbdülbaqi isə gözəl zənguləli səsə malik olduğundan bu muğamı layiqincə ifa edərdi".

Azərbaycan xanəndəlik məktəbinin görkəmli nümayəndəsi Əbdülbaqi Zülalov (Bülbülcan) 1927-ci ilin avqustunda Bakıda səksən altı yaşında dünyasını dəyişib.

Bənzərsiz səsi, heyranedici ifası ilə Azərbaycan musiqi sənətinə uzun illər xidmət etmiş, dərindən, bütün incəliklərini bildiyi muğamlarımızı çoxlarına öyrətmiş Bülbülcanın sənət yolu varislərinin yaradıcılığı ilə davam edib. Davamçıları sırasında böyük sənətkarın qızı, nəvəsi və qardaşı uşaqları da olub.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Daş yaddaşımız

# Kəlbəcərin tarixi yadigarları

## Bu yerlərdəki qalalar minilliklərdən, ilk insan məskəni olduqlarından soraq verir




**Zamanın sərt dönəmlərindən keçib günümüzə qədər qorunub saxlanan, sözün həqiqi mənasında, tariximizə iz salan maddi mədəniyyət nümunələri arasında qalaların xüsusi yeri var. Onların folklor nümunələrində öz əksini tapması heç də təsadüfi deyil. Etnoqraflar da tarixin daş yadigarları kimi qalaların əhəmiyyətini yüksək qiymətləndiriblər. Yadellilərin hücumlarının qarşısının alınmasında onların əvəzsiz rolu barədə əfsanəyə bənzər həqiqətləri bu günə çatdıran hekayətlər və rəvayətlər də az deyil.**

Ərazisində qalaların çox və əksəriyyətinin də alban dövlətinin yadigarı olmasına görə Kəlbəcər və İsmayıllı rayonları daha çox diqqət çəkib.

Kəlbəcər qalalarını tədqiq edənlərin fikrincə, onlar əsasən karvan yollarının üstündə tikilirmiş. Bunun da səbəbi həmin yollara nəzarət olunması idi. Rayonun ərazisindəki ən məşhur qalalardan biri "Löh"dür. Qalanın içərisində qayadan yonulmuş, dərinliyi 3-5 metrə çatan quyular var. Bu quyularda ya ərzaq, ya da su saxlanılırmış. Həmin quyuların içərisində nəhəng palıd ağacları bitmişdi ki, hər birinin diametri bir metrə qədər idi. Qalanın Lev çayı istiqamətində iki mağarası da aşkar olunmuşdur. Bura ən qədim insan məskənlərindən hesab edilir. Yay aylarında sərin, qışda isə isti olan bu mağarada istənilən ərzaq məhsulunu bir ay saxlamaq mümkün imiş.

Tarixin sərt sınaq və imtahanına məruz qalmış bu yadigarlar (abidələr, qalalar) təbii ki, insan əli ilə tikilmişdi. Təəssüf ki, onlar elə "insan əli" ilə də tamamilə məhv olmaq təhlükəsinə qədər dağıdılmış, hətta bəziləri yerlə yeksan olunmuşdur. Amma möcüzədir ki, tarixin yaddaşı olan qalalar, mağaralar bəzən özü-özünü hifz etmiş və əsrimizə qədər bir neçə minillik ömür yaşamışlar. Kəlbəcər qalalarının içərisində ən yüksəklikdə yerləşəni "Comərd"dir. Məşhur Tutquçay ərazisinin "giriş qapısı" hesab edilən, ötən əsrin əllinci illərində açılan tuneldən keçdikdən sonra qarşılaşdığın Comərd kəndindən xeyli yuxarıda, meşənin içərisində, qayalıqda tikildiyi üçün belə adlanıb. "Qaraçanlı" və ya "Uluxan" qalası isə Qaraçanlı kəndinin yaxınlığında, Kəlbəcərdən İstisuya gedən yolun solunda, Tərtər çayının sahilindədir.

Daha çox dağıdılmış və məhv edilmiş qalalardan biri də "Qalaboynu" idi. Qalanın içərisində 200-dən çox binanın xarabalıqları - kalafa yerləri var idi. Bura vaxtilə dağlardan yeraltı su xətti çəkilibmiş.

Kəlbəcərdəki qala və abidələrin sırasına daxil olanlardan biri də "Laçınqaya"sıdır. Qala monqollar tərəfindən dağıdılmış, əhali qılıncdan elə keçirilmişdir ki, tarixçilərin məlumatına görə, insan qanı qayaların arasından sel kimi axıb Tərtər çayını boyamışdır...

Rayonda Qaçaq Nəbinin adı ilə də qala vardı. Qaçaq Nəbi kəndlilərin ərizəsinə burada baxdığı üçün adı "Ərizə" qalası kimi yaddaşlarda qalmışdır.

Azərbaycan Albaniyası memarlığının möhtəşəm nümunələrindən biri də "Xudavəng" məbədi kompleksidir. Ağdərə-Kəlbəcər magistral yolunun üstündəki Bağlıpəyə kəndindən aşağı, Kəlbəcər şəhərinin 29 kilometrliyində yerləşən bu qədim Alban məbəd kompleksi VI-VII əsrlərdə inşa olunub. Məbədin ilkin tikintisinin məhz həmin dövrə aid olması buradakı qazıntılar zamanı tapılan saxsı məmulatların öyrənilməsi nəticəsində aşkarlanıb. Sonrakı dönəmlərdə məbəd bir neçə dəfə təmir edilərək ona əlavələr olunub, nəhayət, Xaçın knyazı Həsən Cəlal (1215-1261-cı illər) tərəfindən məbəddə əsaslı bərpa işləri həyata keçirilib. Bəzi məlumatlara görə, Həsən Cəlalın həyat yoldaşı Minə Xatun burada dəfn olunub.

Ümumilikdə kompleksə bu tikililər daxildir: Qədim kilsə, kiçik birnefli Müqəddəs Məryəm ana bazilikası, Arzu Xatun, Həsən Cəlal məbədləri, Arzu Xatun məbədinə əlavə edilmiş zal, Zəng qülləsi, məktəb binası, qalereya.

Bu tikililərdən beşi əsas, digərləri köməkçi xarakteri daşıyır. Məbəd kompleksinə daxil olan bu abidələrin heç də hamısı dövrümüzədək yaxşı vəziyyətdə çatmamış, daha qədim olanları nisbətən uçub-dağıdılmış haldadır.

Binaların inşası zamanı əsasən yerli qara bazalt daşdan, bişmiş kərpicdən və əhəng məhlulundan istifadə edilib, damları isə kirəmit və səliqə ilə kəsilmiş daşlarla örtülüb. Maraqlıdır ki, üstü günbəz kimi inşa edilmiş binaların tikintisində ağac materiallarından istifadə olunmayıb. Binalarda kiçik pəncərə oyuqları da mövcuddur. Həmin oyuqların yuxarı hissəsi nalşəkilli formada düzəldilib.

Məbədə daxil olan tikililərin divarlarında yağlı boya ilə çoxlu şəkillər və yazılar həkk edilib. Kompleksin ətrafı digər alban məbədlərində olduğu kimi, möhkəm divarlarla əhatələnib.

Kompleksə daxil olan Arzu Xatun kilsəsi isə öz monumentallığı ilə seçilir. Bu məbəd 1214-cü ildə Alban knyazı Vaxtanqın xanımı Arzu Xatun Arcruni tərəfindən ərinin və iki oğlunun xatirəsinə inşa etdirilib.

Torpaqlarımız işğal edildikdən sonra "Xudavəng" məbədi də dəfələrlə ermənilərin təcavüzünə məruz qaldı. Düşmən abidədəki Alban kilsəsinə aid xaç və yazıları balta ilə çaparaq yox edib, tarixi saxtalaşdırmağa çalışıb. Ermənilər öz təbliğatlarında məbədi erməni kilsəsi kimi təqdim edir, xalqımızın maddi-mədəni irsini özününküləşdirirdilər.

Ermənistan işğal etdiyi ərazilərdəki bütün tarixi, dini və mədəniyyət abidələrini beləcə darmadağın edib, onları saxtalaşdıraraq özlərinə məxsus olmasına çalışıblar. Lakin saxtakarlıq uzunömürlü ola bilməzdi. Dünya artıq erməni vandallığının şahidinə çevrilib. Beynəlxalq KİV-in nümayəndələri də 44 günlük Vətən müharibəsi ilə işğaldan azad edilən ərazilərə səfərlərində bunu gözləri ilə görüblər.

*Ümumiyyətlə, Azərbaycanın son illər dünya xalqlarının nəzərlərində daha möhtəşəm görünməsi onun bugünkü inkişafı, Avropaya inteqrasiyası ilə yanaşı, tarixi və mədəniyyətini özündə qoruyub saxlayan maddi mədəniyyət nümunələri ilə zənginliyidir. Bunların isə ölkəmizdə turizmin inkişaf etdirilməsində mühüm əhəmiyyəti var. Təkcə təbiətimizin deyil, tariximizin daşlaşmış yadigarlarından səmərəli istifadə və onların gələcək nəsillərə çatdırılması isə bizim vətəndaşlıq borcumuzdur. Bu baxımdan qalalar və tarixi yadigarlar məskəni olan Kəlbəcər həm də zəngin təbiət muzeyi kimi qorunub saxlanmalı və inkişaf etdirilməlidir.*

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

● Tarix yazan qəhrəmanlar

**Cəmiyyətin inkişafında mühüm rol oynayan amillərdən biri gənc nəsildə yüksək vətənpərvərlik hisslərinin formalaşdırılmasıdır. Şübhəsiz ki, hələ körpə yaşlarından bu ruhda köklənən nəsildə vətənpərvərlik duyğusu yüksək olur. Artıq bunun ən bariz nümunəsinin 44 günlük Vətən müharibəsində şahidi olduq. Qarabağı görməyən minlərlə qəhrəman oğullarımız Vətən sevdası ilə tərəddüd etmədən özünü ölümün üzərinə atdı.**





# Vətən müharibəsi qəhrəmanlarının muzeyləşən ömürləri

## Milli Azərbaycan Tarixi Muzeyində yaradılan yeni fondda Zəfər qaliblərinin şəxsi əşyaları toplanır

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qəhrəman oğullarımız düşməni diz çökdürərək torpaqlarımızı işğalçılardan təmizləyib, ərazi bütövlüyümüzü bərpa etdilər. Bir sözlə, ölkəmiz bu zəfəri xalqla dövlətin sarsılmaz birliyi, "Dəmir yumruq" olaraq birləşməsi sayəsində qazandı.

Öz əməlləri ilə bu dövlətin şərəfli tarixini xalqın qan yaddaşına qızıl hərflərlə həkk etmiş qəhrəmanlarımız heç vaxt unudulmayacaq. Milli Azərbaycan Tarixi Muzeyində könüllü tələbələrdən ibarət "Gənc muzeyşünaslar və muzeysevərlər klubu"nun rəhbəri və bir neçə üzvü " Tarix yazan qəhrəmanlar" layihəsi çərçivəsində, torpaqlarımızın azad edilməsində, qələbənin qazanılmasında böyük sücaətlər göstərərək canını Vətən yolunda qurban verən igidlərimizin ailəsi ilə görüşlərə başlayıblar.

Layihə çərçivəsində "Tarix yazan qəhrəmanlar"dan biri - şəhid polkovnik-leytenant Rəşad Sadıqovun haqqında muzeyin yeni yaradılan fonda təhvil verilən sənədlər barədə qısaca məlumat verməkdə məqsəd şəhid, qəhrəman igidlərimizin örnək ömürlərini xalqımıza əbədiyyətəcən tanıtmaqdır.

Sənədlərdən, eləcə də söhbətlərdən məlum olur ki, Rəşad Xanlar oğlu Sadıqov 1978-ci il oktyabrın 11-də Laçın şəhərində anadan olub. 1992-ci il mayın 18-də Laçın rayonu düşmən işğalına məruz qaldığı üçün valideyinləri ilə birgə şəhəri məcburən tərk edib. Həmin il ailə Şəmkir şəhərində məskunlaşdığı üçün o, Əhməd Cavad adına orta məktəbdə təhsilini başa vurub...

Məktəbi bitirdikdən sonra həkim olmaq istəyib. Lakin Xocalı qətliamından sonra fikrini dəyişərək hərbçi olmaq qərarına gəlib. 1992-ci ildən başlayaraq doğma və tarixi Azərbaycan torpaqlarımız, kənd və qəsəbələrimiz, firavan həyatlı şəhərlərimiz dalbadal işğala məruz qaldığından, o, fikrini qətiləşdirib. 1995-ci ildə Bakı Birləşmiş Ali Komandirlər Məktəbinə daxil olub. 1999-cu ildə məktəbi bitirib leytenant rütbəsi ilə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda xidməti vəzifə üzrə təyinat alıb. 2004-cü ildən isə Naxçıvan şəhərində Heydər Əliyev adına Hərbi Liseydə fəaliyyət göstərməyə başlayıb. Sonra Naxçıvan şəhəri hərbi səfərbərlk və daha sonra Naxçıvan şəhəri hərbi hospitalında çalışıb, müəyyən vaxtlarda "N" saylı hərbi hissədə xidmət edib. Xidmət müddətində bir çox orden və medallar qazanan Rəşad Sadıqov 2019-cu ilin mart ayında Goranboy rayon "N" saylı hərbi hissəyə təlim-tərbiyə üzrə komandir müavini vəzifəsinə təyin edilib. Ön cəbhədə düşmənlə üz-üzə dayanan R.Sadıqov, eyni zamanda ən çətin məqamlarda yerli əhalinin də yanında olub. 2019-cu ilin aprelində Goranboy rayonu Yuxarı Ballıqaya fərdi yaşayış evində baş verən yanğın zamanı fədakarlıq göstərərək köməksiz qalmış uşağı yanğından xilas edən Rəşad onu ailəsinə sağ-salamat qaytarıb.

Ən böyük arzusu doğma yurdu olan Laçının düşmən tapdağından azad edilməsi idi. Axır ki, 28 ildən sonra 27 sentyabr 2020-ci il tarixdə onun gözlədiyi döyüş əmri gəldi. Bu əmri səbirsizliklə qarşılayan R.Sadıqov sevincini doğmaları ilə bölüşərək, deyir: "Əgər müharibə dayanmasa, biz davam etsək Laçına qədər gedəcəyik..."

Çoxdan arzuladığı fürsəti qazanan R. Sadıqov Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Laçın rayonları, eləcə də doğma kəndləri uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşdü. Sonuncu dəfə "Laçının Güləbird kəndi uğrunda gedən döyüşlərdə iştirak etdi. Kəndin düşməndən azad edilməsində böyük rəşadət göstərdi. Hətta atasına zəng edərək "Ata, Həkəri çayında əlimi yudum, bundan böyük qələbəmi olar?!" - dedi.

O, doğulduğu Laçın şəhərinə, orada yarımçıq qalmış uşaqlıq illərinə qovuşmağa çox tələsirdi. Laçın şəhərinə çatmaq üçün cəmi 25 km məsafə qalmışdı. Təəssüf ki, o, bu məsafəni qət edə bilmədi. Doğma yurduna az qalmış, qələbənin astanasında, amansız düşmənin atdığı minamyotun partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid oldu. Dostları və yaxınları ona "general" olmağı arzulayan zaman, " daha uca zirvələr var", - deyərdi. 30 oktyabr 2020-ci il tarixində Rəşad Sadıqov məhz o ucalığa - Səhidlik zirvəsinə ucaldı. Bir qız və bir oğul övladı yadigar qaldı...

Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, Rəşad Sadıqov ölümündən sonra " Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.

Şəhidliyindən 13 gün sonra Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş atası Xanlar Sadıqov 28 il yurd həsrətinə dözsə də, qələbə ərəfəsində oğlunun cismani yoxluğuna tab gətirə bilmədi...

Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Milli Azərbaycan Tarixi Muzeyində yaradılmış Vətən müharibəsi fondunda toplanmış I və II Qarabağ müharibəsində şəhid olan zabit və əsgərlərə məxsus, döyüşdən qalan xatirə əşyaları içərisində şəhid polkovnik-leytenant Rəşad Sadıqovun hərbi geyim dəstləri, ailəsinə yazdığı son məktub, hərbi təlim gündəliyi, fənəri, telefonu, saatı, ölümündən bir neçə gün öncə yanlarına düşmüş kasetli raketin qəlpələri uzərində olan pullar, filəş-kartı, "Bakubas" kartı, telefonun plastik yaddaş kartı da var.

Bu əşyalar şəhidin ailəsi tərəfindən muzeyə təqdim edilib. Sözsüz ki, muzey xalqın tarixi yaddaş salnaməsi, eyni zamanda vətənpərvərlik təliminin, dövlətçilik ənənələrinin daşıyıcısı olan mədəniyyət mərkəzidir. Etiraf etməliyik ki, gənclərin düzgün istiqamətə yönəldilməsində, tərbiyəsində təhsil müəssisələri ilə yanaşı, mədəniyyət müəssisələrinin, xüsusilə də muzeylərin özünəməxsus rolu var.

Xalqımızın mübarizə və qəhrəmanlıq tarixini göstərmək və bunu gənc nəslə bir nümunə olaraq təqdim etmək muzeylərin qarşısında duran əsas məqsədlərdəndir.

Unutmayaq ki, cəmiyyət böyüməkdə olan gənc nəsli həyata necə hazırlayırsa, o cür də gələcək gözləyir.

***Sahibə ƏLƏKBƏROVA,***
***AMEA, Milli Azərbaycan Tarix Muzeyinin Elmi-kütləvi iş və təhsil şöbəsinin elmi işçisi***

● Xarıbülbül

# "Əfsanədən gerçəkliyə - bir gülün sehrində"

## 44 günlük Vətən müharibəsi ilə bağlı çəkilən yeni klip belə adlanır

**Müharibə od-alov, ölüm-itim deməkdir. Müharibənin qələbə ilə başa çatması isə Zəfər salnaməsinin yaranmasını ortaya qoyur.**




Bu qələbə şairlərin poeziyasında, yazıçıların nəsrində, rəssamların rəsmlərində, musiqiçilərin isə nəğmələrində uzunömürlülük qazanır. Ötən il 44 gün ərzində davam edən Vətən müharibəsi də artıq özünün bədii ömrünü yaşamağa başlayıb.

"Əfsanədən gerçəkliyə - bir gülün sehrində" adlı çəkilən yeni klip də məhz Vətən müharibəsində Müzəffər Ordumuzun Ali Baş Komandanı başda olmaqla, xalqımızla birlikdə qazandığı Zəfərə həsr olunub.

Klip sözləri Leyla Əliyevaya, musiqisi Kamala məxsus olan "Xarıbülbül" mahnısına çəkilib. Müğənni Aydın Sani, Əməkdar artist Təyyar Bayramov və oğlu Kənan Bayramovun ifasını aranjemançı Mahir İbrahimov ərsəyə gətirib.

Oğuz alpaqutunun qanlı köynəyini cırıb bülbüllə sevgilisi Aybükəyə göndərməsi, gülün görüşünə tələsən bülbülü küləyin ayırması, Ağabəyim xatunun Vətən həsrəti... Bütün bu əfsanələrin motivində intizar, ayrılıq önə çəkilsə də, detallarda qovuşma var...

Əfsanələr sehrlidir. Oradakı obrazlardan hansınınsa yuxusu, ilğımı, mübarizəsi və xoş gerçəkliyi olur. "Xarıbülbül" klipində də ilğımla xatirələrin, yuxu ilə gerçəkliyin sintezi əks olunur.

Bu klip 28 illik həsrətin sonu - Vətən müharibəsindəki qələbəmizə, onu isə bizə qazandıran şəhidlərimizə, yarımcan qazilərimizə, qəhrəman döyüşçülərimizə ithaf edilib.

***"Azərbaycan"***

## B İ L D İ R İ Ş

“Bakı Şəhər Əsaslı Tikinti və Təmir” MMC tərəfindən 19 mart 2021-ci il və 09 aprel 2021-ci il tarixlərdə “Azərbaycan” qəzetində dərc olunmuş “Bakı şəhəri ərazisində dövlət mənzil fonduna aid binaların təmiri”nin satın alınması məqsədi ilə keçiriləcək açıq tenderdə Ramazan bayramı ilə əlaqədar iş günlərindəki dəyişiklik səbəbilə tender təklifi ilə bank təminatı sənədlərinin qəbulu tarixi 10 may 2021-ci il saat 18:00-dan 17 may 2021-ci il saat 18:00-a və zərflərin açılış tarixi 11 may 2021-ci il saat 11:00-dan 18 may 2021-ci il saat 11:00-a dəyişdirilir.

***Tender komissiyası***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti “Prezident H.Əliyev” və “Şuşa” gəmilərinin “Gövdə və mexanizmlərinin” sığorta xidmətlərinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 29 aprel 2021-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən 12 may 2021-ci il saat 14:00-da keçirilməsi nəzərdə tutulmuş **“Bakı Metropoliteni” QSC-nin struktur və bölmələrində kadrların peşə səviyyəsinin artırılması məqsədi ilə müxtəlif peşələr üzrə təlim kurslarının təşkilinin satın alınması”** üzrə açıq tenderin vaxtı Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə” 2021-ci il 19 aprel tarixli 100 nömrəli qərarı səbəbilə dəyişdirilmişdir. İddiaçıların təklifləri 16 may 2021-ci il saat 14:00-da açılacaqdır. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 30 aprel 2021-ci il saat 14:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 08 may 2021-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən 12.02.2021-ci il tarixdə “Dəftərxana və təsərrüfat mallarının satın alınması” məqsədilə keçirilmiş açıq tender Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin 20.04.2021-ci il tarixli AİBNDX-15/01-5/1839P məktubuna əsasən 22.04.2021-ci il tarixdə ləğv olunmuş hesab edilsin.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti tərəfindən Heydər Əliyev Beynəlxalq Aeroportunda mövcud 1 və 4A saylı drenaj-nasos stansiyalarında əlavə olaraq 2 ədəd şaquli dalğıc nasoslarının alınıb, köməkçi işlər də daxil olmaqla quraşdırılması işlərinin satın alınması məqsədilə 16.02.2021-ci il tarixdə dövlət satınalmalarının vahid internet Portalında və “Azərbaycan” qəzetində dərc edilən 1 lotdan ibarət açıq tender prosedurunda təkliflərin təqdim edilməsi tarixi müvafiq formada uzadılır.

İddiaçılar tender təklifi ilə bank təminatı sənədlərini 26.04.2021-ci il saat 14:30-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 27.04.2021-ci il saat 14:30-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 12.03.2021-ci il tarixdə “Azərbaycan” qəzetində dərc edilmiş elan üzrə “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq keçirilmiş təkliflər sorğusu müsabiqəsində: LOT - 1: Dəftərxana, mətbəə və təsərrüfat mallarının satın alınması üzrə “İNTELLEKT M.A” MMC, LOT- 2: Kompüter, kompüter avadanlıqları, printer, toner, katric və idarədə istifadə olunan digər çox işlək malların satın alınması üzrə “XEROPC” MMC, LOT - 3: İdarədə istifadə olunan elektrik və digər malların satın alınması üzrə “SANTRAL ELEKTRİK LTD” MMC, LOT - 4: Pərdələrin, yumşaq mebellərin və döşəmələrin kimyəvi təmizlənmə işlərinin satın alınması üzrə “Yük Taksisi.AZ” MMC, LOT - 5: “Milli Məclis” jurnalının illik çap edilmə işlərinin satın alınması üzrə “CBS-PP” MMC, LOT - 6: İçməli suların illik (dispenser üçün 19L) satın alınması üzrə “SAF LTD” MMC, LOT - 7: İnzibati binanın giriş pilləkənlərində təmir-quraşdırma işlərinin satın alınması üzrə “Arazplast” MMC, LOT - 8: Fəvvarələr üçün tələb olunan mal-materialların və santexnika mallarının satın alınması üzrə “CARBİN” MMC qalib elan edilmişlər.

Qalib təşkilatlarla müvafiq müqavilələr bağlanılmışdır.

***Tender komissiyası***

# Suqovuşan qəsəbəsinə elektrik veriliş xətti çəkilir

“Azərişıq” ASC işğaldan azad olunmuş əraziləri elektrik enerjisi ilə təchiz etmək üçün kompleks tədbirləri davam etdirir. Cənab Prezident İlham Əliyevin müvafiq fərmanına uyğun olaraq səhmdar cəmiyyət “Azərişıq” Qarabağda” layihəsi çərçivəsində Suqovuşan ərazisində işləri sürətləndirib.

“Azərişıq” ASC-nin Mətbuat xidmətindən aldığımız məlumata görə işğaldan azad olunmuş Suqovuşan qəsəbəsinə 110/35/6 kv-luq Tərtər yarımstansiyasından 35 kV-luq elektrik veriliş xəttinin çəkilməsi işləri davam etdirilir.

“Ağıllı şəbəkə” konsepsiyası işğaldan azad olunan digər ərazilərdə olduğu kimi, Suqovuşan ərazisində də tətbiq edilir. 35 kV-luq iki dövrəli xətt izoliyasiyalı kabellə çəkilir. Belə xətlərdə itkilər minumuma enir, əlverişsiz hava şəraitinə daha dözümlüdür, buzlaşmaya qarşı daha dayanıqlıdır, həmçinin belə xətlərin keçdiyi ərazilərdə mühafizə zolağı daha az olur, xətlərə texniki xidmət xərci minimuma enir.

Suqovuşan qəsəbəsinin daxili şəbəkəsində isə 0.4 kv hava xətləri bərpa edilmiş, yeni SİP kabellər çəkilmişdir. Qısa müddət ərzində qəsəbəyə elektrik enerjisinin verilişi təmin ediləcək. Bunun üçün lazım olan bütün mal-material əraziyə göndərilib.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial reabilitasiya mərkəzlərinin fəaliyyətinin təşkili (Bakı şəhəri (12 rayon üzrə) və Abşeron, Ağcabədi, Ağdaş, Ağstafa, Ağdam, Ağsu, Astara, Balakən, Beyləqan, Bərdə, Biləsuvar, Cəlilabad, Daşkəsən, Füzuli, Gədəbəy, Gəncə, Goranboy, Göyçay, Göygöl, Hacıqabul, Xaçmaz, Xızı, İmişli, İsmayıllı, Kürdəmir, Qax, Qazax, Qəbələ, Qobustan, Quba, Qusar, Lerik, Lənkəran, Masallı, Mingəçevir, Naftalan, Neftçala, Oğuz, Saatlı, Sabirabad, Salyan, Samux, Sumqayıt, Siyəzən, Şabran, Şamaxı, Şəki, Şəmkir, Şirvan, Tərtər, Tovuz, Ucar, Yardımlı, Yevlax, Zaqatala, Zərdab şəhər və rayonları üzrə)" adlı müsabiqə keçirir

**Müsabiqədə qeyri-hökumət təşkilatları iştirak edə bilərlər.**

**İştirak haqqı yoxdur.**

Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, ”Çinar Park” biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 05 may 2021-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 06 may 2021-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: **(012) 525-41-30 (daxili-5031)**

***Müsabiqə komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "20 Yanvar hadisələrinin mahiyyətinin təbliği", "Əlilliyi olan şəxslərin iştirakı ilə inklüziv incəsənət nümunələrinin hazırlanması", "Əlilliyi olan şəxslərə diqqət və qayğının artırılması məqsədilə maarifləndirici nəşrlərin hazırlanması", "Həssas əhali qruplarının sosial müdafiəsi və dəstək tədbirləri ilə bağlı ictimai maarifləndirmənin təşkili" adlı müsabiqələr keçirir

**Müsabiqələrdə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.**

**İştirak haqqı yoxdur.**

Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, ”Çinar Park” biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 06 may 2021-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 07 may 2021-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: **(012) 525-41-30 (daxili-5031).**

***Müsabiqə komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən informasiya təhlükəsizliyi lisenziyalarının satın alınması ilə bağlı “Azərbaycan” qəzetinin 18 fevral 2021-ci il tarixli nömrəsində elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Tender komissiyasının 12 aprel 2021-ci il tarixli qərarına əsasən “SMARTİT” MMC qalib elan edilmişdir.

Qalib şirkətlərlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Ağcabədi Meliorasiya İdarəsi 2021-ci il üçün *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu. Müqavilənin tələb olunan yerinə yetirmək müddəti 31.12.2021-ci il tarixə kimidir.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar. Əlaqələndirici şəxs: Vəli Baxışov

Ünvan: Ağcabədi şəhəri İsmət Qayıbov, 41; E-mail: **baxiwov71@mail.ru**

Tel: 050-382-17-20, iş: 02127 - 5 - 53 - 67

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.

LOT-2 Mal-materialların satın alınması

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba LOT-2 üzrə 50 (əlli) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Bank rekvizitləri :**
**H/h: AZ31CTRE00000000000002355402**
**VÖEN: 3400098091**
**Bank: DÖVLƏT XƏZİNƏDARLIQ AGENTLİYİ**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h: AZ41 NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

*1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminati - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
*4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
*4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;*
*4.3. Malgöndərənin (podratçının) ixtisas göstericilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə ve digər icbari ödenişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*
*4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **18.05.2021-ci il saat 15:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **26.05.2021-ci il saat 15:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri **27.05.2021-ci il saat 15:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Arzu Nağıyevə əzizi

**VƏLİ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Dövlət Məşğulluq Agentliyinin Bakı Şəhər Məşğulluq Mərkəzinin müdiri Qurban Nəzirova qardaşı

**NƏZİR NƏZİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanova atası

**ƏHƏD SÜLEYMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın Veteranlar Şurasının üzvü, ”91-lər”in nümayəndəsi

**MAQSUD AĞAQULU OĞLU NƏCƏFOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Arzu Nağıyevə əzizi

**VƏLİ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Elmira Süleymanova Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) İdarə Heyətinin sədri Aslan Aslanova anası

**ZİNYƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) İdarə Heyətinin sədri Aslan Aslanova anası

**ZİNYƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5207
Sifariş 723
Qiyməti 40 qəpik